Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

10-cu cild

26 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 11

*Milli Məclisin iclas salonu.*
*26 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 114 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fərid Əhmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Ceyhun Cəlilov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Zaur Mikayılov**, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Himalay Məmişov**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında

Dövlət Sosial Müdafiə Fondu İdarə Heyətinin sədri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri.

**Rövnəq Abdullayev,** Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Rəşad İsmayılov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Tapdıq Əmiraslanov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Emin Məmmədov,** Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Şahin Babayev,** Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Orxan Zeynalov,** Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Kamal Abbasov,** Azərbaycan Respublikası energetika nazirinin müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Elşad Əliyev**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Gündüz İsmayılov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Namiq Hümmətov,** Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

**Əziz Şərifov,** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini.

**Nigar Bayramova**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini.

**Sevinc Həsənova**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Mətbuat xidmətinin rəhbəri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Hüseyn Hüseynov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Vüqar Əhmədov**, Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru.

**Vüsal Qasımlı**, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Bəxtiyar Əsgərov,** Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respubli-

kası qanununun layihəsi (birinci oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.

12. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov, Musa Quliyev, Azər Badamov, İlham Məmmədov, Sevinc Fətəliyeva, Əziz Ələkbərov, Əli Məsimli, Əminə Ağazadə, Vüqar İskəndərov, Soltan Məmmədov, Kamran Bayramov, Eldar Quliyev, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Şahin İsmayılov, Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Nəsib Məhəməliyev, Arzuxan Əli-zadə, Ay-

dın Hüseynov, Hikmət Məmmədov, Elman Nəsirov, Arzu Nağıyev, Səbinə Xasayeva, Azər Kərimli, Səyyad Salahlı, Səməd Seyidov, Bəhruz Məhərrəmov, Samir Vəliyev, Novruzəli Aslanov, Azər Allahverənov, Vasif Qafarov, Sevinc Hüseynova

**Təklif:** Çıxışlar 5 dəqiqə olsun

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər

Əmiraslanov, Sahil Babayev, Azay Quliyev, Siyavuş Novruzov, Vüqar Bayramov, Əli Məsimli, Aydın Mirzəzadə, Fazil Mustafa, Sahib Alıyev

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*26 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli Şahin müəllim, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 104 |
| Yetərsay | 83 |

Yetərsay var. İclasımıza davam edə bilərik. Hörmətli həmkarlar, biz müzakirəmizi davam etdiririk. Anar İsgəndərov. Buyurun, Anar müəllim.

**Anar İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hökumət üzvləri və media nümayəndələri. 2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi tarixi günlərə

təsadüf edir. Bu günlərdə Azərbaycana BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına ev sahibliyi etmək şərəfi nəsib oldu. Hamımız bu tədbirin iştirakçısı olduq. Dünyanın ayrı-ayrı ölkələrindən 80 minə qədər insan, o cümlədən 80 ölkənin dövlət və hökumət başçıları Bakını ziyarət etdilər və Azərbaycanın uğurlarının şahidi oldular.

Bəlkə də Bakıya gələnə qədər bəzi qonaqlarımız aşağıdakı suallara cavab tapmaqda çətinlik çəkirdilər: Azərbaycan 44 günlük Vətən müharibəsinin qalibi necə oldu? Düşmən nə üçün danışıqsız təslim oldu? Ermənistana havadarlıq edən dövlətlər nə üçün erməni təcavüzünü axıra qədər müdafiə edə bilmədilər? Bu uğurların sirri xalq və iqtidarın dəmir yumruq kimi birləşməsində, güclü iqtisadiyyatın yaradılmasında, problemin tarixiliyinin dünyaya çatdırılmasında, ən müasir silahlara malik ordunun təşkilindədir. Bütün bu uğurların başında müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları dayanıb.

Azərbaycanın uğurlarını həzm edə bilməyənlər növbəti dəfə qarayaxma və böhtan kampaniyasına başladılar, amma heç bir nəticəsi olmadı. Çünki Azərbaycan haqq yolundadır, onu bu yoldan heç bir qüvvə döndərə bilməz.

2024-cü il həm də Prezident və parlament seçkiləri ili oldu. Müstəqil Azərbaycan öz tarixində ilk dəfə suveren ərazisində hər iki seçkini uğurla keçirdi.

2025-ci ilin dövlət büdcəsinin layihəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının andiçmə mərasimində irəli sürdüyü müddəalar, eyni zamanda, insanların rifahının daha da yaxşılaşdırılması öz əksini tapmışdır. İdeal büdcə olmur. Amma dövlətin və xalqın maraqlarını özündə ehtiva edən və eyni zamanda,

gələcəyə ümidlər artıran büdcələr təqdirolunandır. 2025-ci ilin dövlət büdcəsi haqqında hörmətli nazirlərimiz ətraflı məlumat verdilər. İcazənizlə, elm və təhsil xərclərinin büdcədə necə xarakterizə olunduğu barədə bir neçə fikri sizinlə bölüşüm.

2025-ci il üzrə təhsil xərclərinə 4 milyard 946 milyon manat vəsait ayrılmışdır. Bu rəqəm 2024-cü illə müqayisədə 395,7 milyon manat, 2023-cü ilin icrası ilə müqayisədə isə 821 milyon manat çoxdur. Bu məbləğin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 12 faizdir.

Təhsil xərcləri üçün ayrılmış vəsaitin 2 milyard 347 milyon manatı ümumi təhsil xərclərinə, 750 milyon manatı isə ali təhsil və dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsinə sərf olunacaqdır.

2022–2026-cı illər ərzində 137 min nəfər müəllimin sertifikatlaşma proqramında iştirakı və uğur qazanan heyətin diferensial əməkhaqqı sisteminə cəlb edilməsi təmin olunacaqdır. Bu məqsəd üçün 2025-ci ilin dövlət büdcəsi layihəsində 154 milyon manat vəsait nəzərdə tutulmuşdur. Bu sertifikasiya imtahanlarında əsas məqsəd müəllim nüfuzunu qaldırmaq və savad baxımından tələbləri ödəyə bilməyənlərin məktəbdən uzaqlaşdırılmasıdır.

2025-ci ildə əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədi ilə təhsil-tələbə kreditinin verilməsi üçün növbəti ilin dövlət büdcəsində 8 milyon manat nəzərdə tutulmuşdur. Bu barədə bir cümlə demək istəyirəm. Sadə düstur bundan ibarətdir: ödənişi ödəyə bilməyən tələbəyə kredit verilməlidir. Çünki müraciət edənlərin əksəriyyəti ehtiyacı olanlardır.

Pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrini

bitirmiş 9,9 min nəfərdən çox gənc mütəxəssisin kənd rayonlarında işə cəlb olunması üçün yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədi ilə birdəfəlik ödənilmə üçün 12,6 milyon manat nəzərdə tutulmuşdur. Pedaqoji təhsilli gənclərin kəndə getməsi üçün təkcə təbliğat kifayət etmir, maraqlara cavab verən güzəştlərə ehtiyac vardır.

2024–2025-ci tədris ilində fəaliyyətə başlayan və mühəndislik, tibb ixtisasları olmaqla 440 nəfər (tibb üzrə 160, mühəndislik üzrə 280 nəfər) tələbənin təhsil alacağı Azərbaycan–Türkiyə birgə universitetinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə 10 milyon manat nəzərdə tutulmuşdur.

Qarabağ Universitetində 6 istiqamət və 27 ixtisas üzrə 1300-dək tələbənin, növbəti 2025–2026-cı tədris ilindən etibarən isə 2500-dək tələbənin təhsil alması və yataqxanalarda yerləşdirilməsi planlaşdırılır. Qarabağ Universitetinin fəaliyyətinin 2025-ci ildə təmin edilməsi məqsədi ilə 17 milyon manat nəzərdə tutulmuşdur.

2025-ci ilin dövlət büdcəsi layihəsində elmin maliyyələşdirilməsi üçün 244 milyon manat nəzərdə tutulur. Cari ildə Azərbaycan Milli Akademiyası üçün 3 milyon manat, Azərbaycan Elm Fondu üçün 4,1 milyon manat nəzərdə tutulmuşdur.

Əldə olunan uğurlarla yanaşı, bir neçə tövsiyəni hökumət üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Təhsil insan həyatında yeganə sahədir ki, bütün cəmiyyəti əhatə edir, təhsil hər evdə var və hər bir ailə təhsillə bağlı baş verənlərin şahidi olur. Hər il dağlıq rayonlarda şagirlərin sayı azalır, ailələr müxtəlif səbəblərdən kəndləri tərk edir. Bununla bağlı köklü qərarlar qəbul etməyə ehtyac vardır. İki...

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Yazılı su-

rətdə katibliyə çatdırarsınız.

Musa Quliyev. Musa müəllim, sualınız, yoxsa təklifiniz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, mənim bir təklifim var. Büdcənin ümumi parametrləri, iqtisadi uğurlarımız və digər prinsiplər barədə deputatlarımız ətraflı çıxış ediblər. Mən təklif edirəm ki, biz 5 dəqiqə vaxt müəyyənləşdirək. Deputatlarımız, əsasən, seçicilərimizin qaldırdığı sosial problemləri daha çox şərh edə bilsinlər. Digər deputatlarımız da mənimlə həmfikir olduqlarını söyləyiblər. Xahiş edirəm, imkan varsa, çıxışlar 5 dəqiqə olsun, daha çox seçicilərin qaldırdığı sosial məsələlər, fikirlər bildirilsin. Sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, təklif var, 5 dəqiqəyə keçək. Mən təklifi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun. 5 dəqiqəyə keçirik.

Xahiş edirəm, Fərid müəllim, nəzərə alsınlar.

Azər Badamov. Buyurun.

**Azər Badamov**. Təşəkkür edirəm, hörmətli xanım sədr.

Hörmətli hökumət üzvləri, həmkarlar və media nümayəndələri. Dövlət büdcəsi hər bir ölkənin iqtisadi inkişafının, sosial rifahının və dayanıqlı inkişaf edən cəmiyyətin əsasını təşkil edən mühüm bir sənəddir. Müzakirəmizə təqdim olunmuş 2025-ci il üçün dövlət büdcəsi zərfi proqnozlaşdırılan iqtisadi artım, inflyasiya səviyyəsi, işsizlik, sosial və müdafiə xərcləri və digər mühüm göstəricilər nəzərə alınaraq hazırlanmışdır. Son illərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar və inkişaf proqramları əhalimizin yaşayış səviyyəsinin artırılması və investisiya mühitinin yaxşılaşdırılması məqsədini daşıyır. Dövlət büdcəsində hərbi, müdafiə, sosial, təhsil, Qarabağın yenidən qurulması və bərpası ilə bağlı xərclərin artırılması vacibdir və nəzərdə tutulmuş proqramların vaxtında icrası ölkənin gücünün daha da artmasına xidmət edəcəkdir.

2025-ci ilin dövlət büdcəsinin təqdimatında qeyd olunduğu kimi, büdcə zərfi ölkənin iqtisadi və sosial inkişafını təmin etmək, insanların həyat şəraitini yaxşılaşdırmaq üçün konseptual yanaşmalarla hazırlanıb. Büdcə tərtib edilərkən yalnız qısamüddətli məqsədlər deyil, uzunmüddətli inkişaf və hədəflər də nəzərə alınmışdır. Bu yanaşma yalnız 2025-ci ilin iqtisadi vəziyyətini deyil, həm də gələcək nəsillərin rifahını təşkil edəcəkdir.

Hörmətli həmkarlar, dövlət büdcəsinin lehinə səs verəcəyəm və fürsətdən istifadə edərək seçicilərimi narahat edən bir neçə məsələni də səsləndirmək istəyirəm. Əvvəlcə, qeyd etmək istəyirəm ki, Qusar rayonunun yaşayış məntəqələrinin qazlaşdırılması məsələsi problem olaraq qalmaqdadır. Belə ki, rayonun yaşayış məntəqələrinin cəmi 57 faizi qazlaşdırılmışdır. Yasab və Xürəl kəndlərinin qazlaşdırılması cari ildə nəzərdə tutulsa da, hələ də

layihələndirmə işlərinə başlanmamışdır. Məlumat üçün bildirmək istəyirəm ki, Yasab kəndində 2150, Xürəl kəndində isə 1400 nəfər əhali yaşayır. Bu kəndlər rayon mərkəzinə yaxın ərazidə yerləşir. Bu kəndlərin sağ və sol tərəfində olan kəndlərin qazlaşmasına baxmayaraq, onlar ortada qalmışdır. Hörmətli iqtisadiyyat nazirimizdən qeyd etdiyim kəndləri 2025-ci ilin investisiya proqramına salmasını və aidiyyəti üzrə tapşırıqlar verməsini xahiş edirəm.

Digər məsələ isə 300 yerlik Yasab kənd tam orta məktəb binasının yenidən qurulması ilə bağlıdır. Qeyd etdiyim məktəb binası istifadəyə veriləndən sonra uzun illər ərzində, heç olmasa, bir dəfə də olsun, təmir olunmayıb. Məktəb binasının dam örtüyünün yarısı yoxdur, digər hissəsi isə qəzalı vəziyyətdədir. Ümumiyyətlə, məktəbin sinif otaqlarına girib tədris aparmaq mümkünsüzdür. Hörmətli təhsil nazirimizdən məktəbə baxış keçirilməsi üçün nümayəndələrin göndərilməsini və vəziyyəti yerində dəyərləndirərək müvafiq addımların atılmasını xahiş edirəm. Həm də Cibir və Kuzunqışlaq orta məktəb binaları ilə bağlı qaldırdığımız məsələyə operativ yanaşılaraq müvafiq addımlar atıldığına görə hörmətli cənab nazirimizə seçicilərimizin adından təşəkkür edirəm. Ümid edirəm ki, hörmətli Emin müəllim bu vacib məsələni də diqqətdə saxlayacaqdır.

Digər bir məsələ Qusar şəhərinin yanındakı “Bənövşə gölü” su anbarının bərpası ilə bağlıdır. “Bənövşə gölü” su anbarı Qusar şəhərini və ətraf kəndləri uzun illər içməli və təsərrüfat suyu ilə təmin etmişdir. Amma son illər baxımsız qalmış, qurudularaq yararsız hala gətirilmişdir. Dünyada baş verən iqlim dəyişiklikləri şirin su mənbələrinin azalmasına gətirib çıxarır. Bu baxımdan su anbarlarının

tikilməsi və bərpası çox aktual məsələdir. Bütün bunları nəzərə alaraq müvafiq qurumdan Qusar şəhərinin yanında yerləşən "Bənövşə gölü" su anbarının bərpasının diqqətdə saxlanılmasını xahiş edirəm.

Sonda hökumətə qarşıdan gələn dövrdə, büdcə ilində uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

İlham Məmmədov. Buyurun.

**İlham Məmmədov.** Hörmətli xanım sədr, söz verdiyiniz üçün çox sağ olun. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli deputat həmkarlarım. Fürsətdən istifadə edərək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – BMT Baş Assambleyasından sonra dünya liderlərinin ikinci ən böyük illik toplantısının yüksək səviyyədə təşkili və uğurla başa çatması münasibəti ilə möhtərəm Prezidentimiz cənab İlham Əliyevi və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanı ürəkdən təbrik edirəm. Ölkəmizdə keçirilən COP29 Azərbaycanın qlobal liderliyini bir daha sübut etdi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin parlaq siyasi obrazı sülh və xilaskarlıq təşəbbüslərinin lideri kimi bir daha dünyaya təqdim olundu. Biz hamımız bunu gördük, bütün dünya bunu gördü, qürurlandıq və şərəfləndik. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın ən müasir innovativ təşkilatçılıq dəst-xəti tədbirin əvvəlindən axırına kimi nəinki xarici qonaqlarımızı, ölkəmizə tədbirə gələn ziyarətçiləri, bizləri də, sadəcə, heyran etdi.

Hörmətli millət vəkilləri, büdcə layihəsi ilə tanışlıq deməyə əsas verir ki, gələn ilin büdcəsi dünyada baş verən siyasi, hərbi, iqtisadi kataklizmlər nəzərə alınmaqla Azər-

baycanın sosial-iqtisadi inkişafına və yaxın üç ilin inkişaf perspektivlərinə əsaslanan real büdcədir. Müstəqillik dövrümüzün ən yüksək maliyyə tutumlu bir büdcəsidir. Belə ki, gələn ilin büdcəsinin həm gəlirləri, həm də xərcləri rekord həddə nəzərdə tutulubdur. Qeyd etdiyimiz kimi, 2025-ci ilin büdcə layihəsində bütün sahələrə vəsait ayrılıbdır. Mən səhiyyə sahəsinə ayrılan büdcə ilə bağlı fikrimi qısaca əsaslandırmaq istərdim. Səhiyyə xərcləri üçün 1999 milyon manat vəsait nəzərdə tutulub ki, bunun da 70 faizi dövlətin vəsaiti hesabına əhalimizin icbari tibbi sığortalanmasına və səhiyyə sahəsində dövlət proqramlarının həyata keçirilməsinə xərclənəcəkdir.

Hörmətli deputat həmkarlarım, nəzərinizə çatdırım ki, bu rəqəm 2021-ci illə müqayisədə ən yüksək həddə – 45 faizdən çox artıbdır. Əhalinin sağlamlığının qorunması həmişə dövlətimizin diqqətində olmuşdur. Belə ki, təkcə keçən bir il ərzində dövlətimizin vəsaiti hesabına icbari tibbi sığortanın həyata keçirdiyi tibbi sığorta zərfinə daxil olan xidmətlərin sayı 3315-ə çatdırılıb. Bu, 4 il ərzində çox kiçik bir rəqəm idi. Lakin səhiyyəmiz təkcə bu rəqəmlə kifayətlənmir. Eyni zamanda, kəmiyyət göstəricisi olaraq maliyyə tutumu yüksək, icrası mürəkkəb olan bir çox xəstəliklərin müalicəsi, orqan transplantasiyaları artıq Azərbaycanda uğurla həyata keçirilir. Səhiyyə büdcəsinin bu artan dinamikasında onkoloji xəstəliklərin şiş əleyhinə preparatlarla təminatı da bu günün aktual, vacib məsələlərindən biridir. Bu barədə artıq təkliflərimizi də vermişik. Hesab edirəm ki, dövlətimizin bunu nəzərə alması çox müsbət bir hal kimi qəbul olunardı.

Hörmətli deputat həmkarlarım, hörmətli hökumət üzvləri, növbəti büdcə ilində millət vəkili olduğum Yevlax

şəhərinin olduqca ciddi və həyəcan təbili çalınmalı, 30 ildən artıq bir vaxtı əhatə edən problemi barədə məsələ qaldırıb, onun həllini xahiş etmək istəyirəm. Belə ki, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Yevlax şəhəri ərazisindən keçən 251-ci kilometrliyində qorunan dəmir yolu keçidinin 1987-ci ildə ləğv edilməsi nəticəsində Yevlaxın hava limanı, Çənlibel, Şəkitay massivində yaşayan on mindən çox sakini, yəni şəhər əhalisinin 10 faizi dəmir yolunun bir tərəfindən digər tərəfinə keçmək üçün yalnız avtomobillə 8-10 kilometr məsafə qət etməli olur. Təsəvvür edirsiniz, şəhərin içərisində kiçik bir məişət məsələsini həll etmək üçün 10 kilometr yol qət edilməlidir. Sakinlər əlavə vaxt itkisi ilə yanaşı, dəmir yolunu keçərkən olduqca böyük təhlükə ilə üz-üzə qalırlar. Burada bir neçə dəfə hətta ölümlə nəticələnən hadisələr də baş verib. Bura bir çox dəmir yolu qovşaqlarının qovuşduğu bir yerdir. Problemin həlli üçün biz artıq bir neçə dəfə məsələ qaldırmışıq. Dəmir yolunun həmin ərazidən keçən hissəsində avtomobillər və sakinlər üçün yeraltı keçid salınmasına çox böyük ehtiyac var. Bu məsafə 20-25 metrə bərabərdir. Belə hesab edirəm ki, dövlətimiz bunu həyata keçirə bilər.

Bu məsələlərin həlli əhalimizin və mənə müraciət edən seçicilərin məmnunluğuna səbəb olacaqdır. Bütün bu işlərin həyata keçirilməsi, büdcənin uğurlu icrası üçün hökumətə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıram. Büdcəyə səs verəcəyimi bəyan edirəm. Hörmətli deputat həmkarlarımı da...

**Sədrlik edən.** Sağ olun. Sevinc Fətəliyeva. Buyurun.

**Sevinc Fətəliyev**a. Hörmətli xanım sədr, hörmətli hökumət nümayəndələri, millət vəkilləri. Azərbaycan bu

gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dövlət başçımız Prezident İlham Əliyevin uzun illər ərzində düşünülmüş və məqsədyönlü siyasəti ölkəmizin 44 günlük Vətən müharibəsində qələbəsini və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını təmin etdi. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafın irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətinin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülməkdədir. Dövlət başçısının ilk gündən qəbul etdiyi uzunmüddətli strategiyaların, dövlət proqramlarının və milli fəaliyyət planlarının uğurlu icrası respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinə, əhalinin rifahına xidmət edir. Azərbaycanın sabit və təhlükəsiz şəraitdə hərtərəfli inkişafı, iqtisadi rəqabət qabiliyyətliliyinə görə nüfuzlu beynəlxalq hesabatlarda yüksək pillələrdə qərarlaşması, o cümlədən dünyanın ən islahatçı dövlətlərindən birinə çevrilməsi, nəhəng qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olmaqla gerçəkləşdirilməsi dövlət başçısının məqsədyönlü siyasətinin əyani təzahürüdür.

Bəli, bütün istiqamətlərdə uğurla inkişaf etdirilən Böyük Qayıdış siyasəti dövlət siyasətimizin aparıcı istiqamətlərindən birini təşkil etməkdədir. Sözsüz ki, Böyük Qayıdışa dair dövlət proqramında müəyyən edilmiş mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradıl-

ması əsas prioritet kimi nəzərdə tutulmuşdur. Müzakirə etdiyimiz 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə daxil olan bir çox məsələlər günün tələblərinə uyğun müəyyən edilmişdir. Lakin həlli arzu olunan bəzi məsələlər də vardır ki, onların aradan qaldırılmasına və gələcəkdə büdcədən bu sahəyə də vəsaitin ayrılmasına ehtiyac duyulur.

Millət vəkili seçildiyim ərazi üzrə bir neçə məsələni diqqətinizə çatdırmaq istərdim. Hövsan şəhər tipli qəsəbədir. Eləcə də əhali baxımından həmin ərazidə artım nəzərəçarpacaq dərəcədə hiss olunur. Qəsəbədə poliklinikanın mövcud olmasına baxmayaraq, əhalinin sağlamlığının tam təmin olunması və əhalinin məmnunluğu baxımından müasir tipli yeni xəstəxananın tikintisinə ehtiyac var.

Dövlətimiz tərəfindən təhsilə göstərilən qayğı danılmazdır. Gənclərin təhsili və onların gələcəyinin təmini dövlət siyasətinin prioritetidir. Arzuolunandır ki, Hövsan qəsəbəsində 118 saylı orta məktəbdə, Yeni Suraxanı qəsəbəsində 316 saylı orta məktəbdə şagird sıxlığının olmasını nəzərə alaraq əlavə tədris korpusları, Hövsan qəsəbəsinin Quşçuluq sovxozu yaşayış sahəsində isə yeni məktəb binası tikilsin. Eyni zamanda, Hövsan və Yeni Suraxan qəsəbələrində mövcud, lakin yararsız vəziyyətdə olan uşaq bağçalarının sökülüb müasir tipli bağçalarla əvəzlənməsinə ehtiyac duyulur.

Son dövrlərdə millət vəkili seçildiyim ərazidə asfalt örtüyünün çəkilişinə mütəmadi olaraq diqqət ayrılmasına baxmayaraq, ilkin kanalizasiya probleminin mövcudluğu digər məsələlərin vaxtında aradan qaldırılmamasına səbəb olur və əhali arasında narazılıq yaradır. Suraxanı rayonunda mövcud olan kanalizasiya şəbəkəsinin yenidən

qurulması, təmizləyici qurğuların tikintisi, kanalizasiya şəbəkəsi olmayan sahələrdə bu problemin aradan qaldırılması vacib məsələdir.

Eyni zamanda, mütəmadi olaraq korroziyaya uğramış, sıradan çıxmış su xətlərinin dəyişdirilməsinə və yeni su xətlərinin çəkilməsinə baxmayaraq, bütövlükdə, bəzi ərazilərdə problem öz həllini tapmamışdır. Yaxşı olardı ki, daxili yolların əsaslı təmir edərək asfaltlanması mövcud olmayan yerlərdə kanalizasiya və su şəbəkələrinin qurulması nəzərdən kənarda qalmasın.

Qeyd olunan problemlərin aradan qaldırılması üçün büdcədə həmin sahələrin nəzərə alınmasını xahiş edirəm. Büdcə layihəsini dəstəkləyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əziz Ələkbərov. Buyurun.

**Əziz Ələkbərov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri, media nümayəndələri. Biz növbəti dəfə Azərbaycan Respublikasının yeni il üçün dövlət büdcəsi haqqında qanun layihəsini müzakirə edirik. Bu, ərazilərimizin 30 illik işğaldan azad olunmasından sonrakı beşinci dövlət büdcəsidir. Bu büdcələri bir-biri ilə müqayisə etdikdə ilbəil qazandığımız uğurlara görə qürur hissi keçiririk.

Mən deputat həmkarlarımın fikri ilə tam razıyam ki, müzakirəmizə təqdim olunan 2025-ci il üçün dövlət büdcəsi ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni həyatımızın bütün sahələrinin inkişafını kifayət qədər ehtiva edən mükəmməl bir sənəddir və mən də onun qəbuluna səs verəcəyəm. Amma öncə hökumət nümayəndələrinin burada olmasından istifadə edərək son 2 il ərzində Azərbaycan dövlətinin və millətinin ümummilli hədəflərindən olan Qərbi Azərbaycana qayıdış konsepsiyasının

icrasına verdikləri hərtərəfli dəstəyə görə möhtərəm Prezidentimiz başda olmaqla bütün dövlət və hökumət rəsmilərinə, strukturlarına, Milli Məclisin rəhbərliyinə Qərbi Azərbaycan icması adından öz dərin təşəkkürümü bildirirəm. Bu dəstək sayəsində bu gün artıq heç kəs şübhə etmir ki, tarixi ədalət mütləq öz yerini tapacaq və Qərbi azərbaycanlı soydaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar.

Mən 2025-ci il dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasını xüsusilə dəstəklədiyimi bildirmək istəyirəm. Çünki nəinki 200 illik tarixi təcrübə, nəinki son 30 ilin və 44 günlük müharibədən sonrakı son 4 ilin dərsləri, hətta Ermənistan rəhbərliyinin və onun komandasının son aylardakı və son günlərdəki bütün çıxış və hərəkətləri sübut edir ki, onlar toplum və dövlət olaraq region ölkələrinə qarşı ərazi iddialarından heç vaxt əl çəkməyiblər və əl çəkən də deyillər. Sülh sazişi ilə bağlı danışıqlar isə onlara silahlanmaqdan və növbəti müharibəyə hazırlaşmaqdan ötrü vaxt qazanmaq üçün lazımdır.

Hörmətli həmkarlar, mən çıxışımda deputatı olduğum Saatlı rayon sakinlərinin bir xahişini hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm. Saatlı rayonu Aran bölgəsində yerləşir və bir sıra təbii coğrafi çətinliklərlə üzüzədir. Hələ ki, bunları birtəhər ötüşdürmək olar. Amma Saatlı rayonu kəndlərinin hər dörddən birinin qazı yoxdur, bunu isə heç cür ötüşdürmək mümkün deyil. Mən hər il büdcə müzakirəsində bu məsələni qaldırıram. Lakin heç bir irəliləyiş yoxdur. Bu günlərdə SOCAR-ın prezidentinin məsələ ilə bağlı imzaladığı cavab məktubundan aydın oldu ki, 2025–2030-cu illərdə Saatlı rayonunun qazsız 11 kəndindən ancaq bir kəndinə qaz çəkilə bilər. Digər 10

kəndə isə 2030-cu ilə qədər qaz çəkilməyəcək. Səbəb də odur ki, Saatlının qazsız kəndləri də daxil olmaqla 2025-ci il yanvarın 1-də ölkə ərazisində qazla təmin olunmayan 899 kəndə qaz çəkilişi iqtisadi cəhətdən səmərəsizdir. Başqa rayonları deyə bilmərəm, amma Saatlı rayonundakı qazsız kəndlərin hamısı bir-birinin yaxınlığındadır. Tam düzənlik ərazidir, qaz-magistral xətləri bəzi qazsız kəndlərin lap kənarından keçir. Belə olan halda bu kəndlərə qaz çəkilişi hansı əsasa görə iqtisadi cəhətdən səmərəsiz sayılır?

İkinci. Cənab Prezidentin xüsusi qayğısı və diqqəti ilə dövlət büdcəsinin önəmli bir hissəsinin sosial sahəyə yönəldildiyi bir ölkədə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məsələsi nə vaxtdan iqtisadi səmərəliliklə ölçülür? Xahiş edirəm, bu məsələ diqqət mərkəzində saxlanılsın və mən də gələn il büdcə müzakirəsində bu məsələni dördüncü dəfə qaldırmaq məcburiyyətində qalmayım. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Hörmətli sədr, hörmətli deputat həmkarlarım, hökumət nümayəndələri, media mənsubları. 2025-ci ilin büdcəsini müsbət qiymətləndiririk. Eyni zamanda, büdcə zərfini əhatə edən 2025–2028-ci illərə dair bir sıra fikirlərimizi də bildirmək istərdik. Müharibədən sonra 2021-ci illə müqayisədə 2024-cü ildə büdcə gəlirləri 10 milyard manat, büdcə xərcləri isə 14 milyard manat artıb. 2025-ci illə müqayisədə 2028-ci ildə isə büdcə gəlirlərinin cəmi 1,5 milyard manat, xərclərinin isə 1 milyard manat artacağı gözlənilir.

Ölkəmizin hərbi müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi hələ xeyli müddət prioritet olaraq

aktuallığını saxlayacaqdır. Növbəti illərdə də 2025-ci il büdcəsində nəzərdə tutulduğundan daha çox vəsait ayrılmasını zəruri edəcəkdir. Neft hasilatının və neft gəlirlərinin azalmağa başladığı hazırkı mərhələdə büdcəmizi potensialımıza layiq səviyyədə dayanıqlı saxlamaqdan ötrü Dövlət Neft Fondu ilə yanaşı, əlavə mənbələr də tapmalıyıq. Bunun magistral yolu iqtisadi artım templərini artırmaqdan keçir. Hələ 2015-ci ildə devalvasiyadan sonra bunun üçün çox yaxşı bir fürsət yaranmışdı. 2016–2024-cü ilin 9 ayı ərzində Azərbaycan iqtisadiyyatına 151 milyard manat sərmayə, 160 milyard manata yaxın isə kredit qoyulub. Toplam 311 milyard manatlıq vəsait qoyulub. Əgər həmin vəsaitin, çox demirəm, kiçik bir hissəsi – 10-15 faizi, yəni 30-45 milyard manatı rayonlarda yerli istehsalın inkişaf etdirilməsinə, idxalı əvəz edən məhsulların gündəlik tələbat mallarının istehsal dairəsinin genişləndirilməsinə, rəqabətqabiliyyətli iş yerlərinin açılmasına yönəlsə idi, həmin 9 il ərzində bu vəsaitin hesabına rayonların fundamental tərəqqisinin timsalında yeni bir Azərbaycan qurub-yaratmaq olardı.

İkinci. Monopoliya və ondan qaynaqlanan haqsız rəqabət yerli istehsalımızın inkişafına çox ciddi mane olur. Azərbaycan Prezidentinin dəfələrlə dediyi kimi, haqsız rəqabət bizim üçün böyük yaradır. Monopolistlər öz imkanlarından istifadə edib müxtəlif üsullarla rəqiblərini sıradan çıxarırlar. Bir sıra istisnaları çıxmaq şərti ilə monopolistlər hansı sahədə bir qədər gəlir görürsə, o saat ora əl qoymağa çalışırlar. Fərqində deyillər ki, bunun ucbatından xeyli insan evinə bir parça çörək aparmaq imkanından belə məhrum edilir. Ona görə də ölkəmizdə istehsalı mümkün olan şeylərin çoxu xaricdən gətirilir.

Üçüncü. Korrupsiyaya qarşı mübarizə gücləndirilməlidir. Sahibkarlarla müxtəlif qurumların məhkəmə işlərində həmişə haqlının tərəfində olan ədalətli məhkəmə sisteminin formalaşdırılması çox vacib bir məsələdir.

Dördüncü. Gələn il Bakıda COP29-dan irəli gələn, eləcə də meşəçiliyə həsr olunmuş bir tədbir keçiriləcək. Bu kontekst Azərbaycanda meşələrin qorunması və genişlənməsi məsələsinə diqqəti daha da artırmağı ön plana çəkib. Onsuz da, iqtisadi tərəqqiyə təkan verə biləcək səviyyədən iki-üç dəfə az olan meşələrimizin qırılmaqda davam etməsi ekologiyaya ciddi təsir göstərir. Kəndlərdə bir sıra sakinlər odun almağa maddi imkanları olmadığından həyətdəki meyvə ağaclarının bir hissəsini kəsib odun kimi qışa tədarük yığırlar. Bəs bu işin nəticəsi 3-4 ildən sonra necə olacaq? Ona görə də bu prosesin və meşələrin qırılmasının qarşısını almaqdan ötrü Şəkinin 20-dən, Qaxın isə 30-dan artıq kəndinin timsalında regionların qazlaşdırılması işi sürətləndirilməli və qaz limiti mərhələlərlə aradan qaldırılmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. O qədər monopolist dediniz, elə bil ki, bizdə monopolist hökumət var. Ümumiyyətlə, nə isə bir yaxşı şey var?

Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, hörmətli Kabinet üzvləri. 2025-ci ilin dövlət büdcəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla yaxın gələcəkdə Azərbaycanın sosial-iqtisadi inkişafı üçün əsaslı zəmin yaradır. Növbəti ilin dövlət büdcəsində ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, azad edilmiş ərazilərimizə Böyük Qayıdışa dair

dövlət proqramlarında müəyyən edilmiş mühüm tədbirlərin davam etdirilməsi, eyni zamanda, əhalinin sosial rifah halının gücləndirilməsi kimi mühüm vəzifələr öz əksini tapmışdır. Möhtərəm cənab Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın artan iqtisadi imkanları əhalinin sosial müdafiəsinin və rifah səviyyəsinin təyin edilməsinə də mühüm töhfələr vermişdir.

2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmaqda davam edəcəkdir. Bütün bunlar dövlətin icra orqanlarından kifayət qədər gərgin iş tələb edir və bu məsələlərin həlli istiqamətində Nazirlər Kabinetinə uğurlar diləyirəm.

Fürsətdən istifadə edərək təmsil etdiyim Kürdəmir rayonu üzrə həlli vacib olan sosial-iqtisadi məsələləri diqqətinizə çatdırmaq istərdim. Birinci məsələ təhsillə bağlıdır. Son illərdə Kürdəmir rayonunda bir neçə müasir məktəb binaları tikilmiş, bəzi məktəb binaları əsaslı təmir olunmuşdur. Yeni istifadəyə verilən məktəblər ən müasir avadanlıqlarla təchiz edilmiş, buna uyğun olaraq, yerlərdə təhsilin səviyyəsi də artmışdır. Lakin eyni zamanda, rayon ərazisində əsaslı təmirə və ya tikintiyə zəruri ehtiyac duyulan qəzalı və istismara azyararlı məktəb binaları hələ də mövcuddur. Belə ki, rayonun Karrar qəsəbəsində, Pirili kəndində və 2 saylı şəhər tam orta məktəblərinin tikintisinə ciddi ehtiyac vardır. Mən bu məktəb binalarında olmuşam, onların qəzalı vəziyyətdə olduğunun şahidiyəm. Eyni zamanda, onu da qeyd edim ki, rayon üzrə ən yüksək nəticələr bu məktəblərin şagirdləri tərəfindən göstərilmişdir. Təhsilin dövlətimiz üçün daim prioritet olduğunu

nəzərə alaraq Kürdəmir rayonunda yeni məktəb binalarının tikintisini diqqətdə saxlamağınızı xahiş edirəm. Fürsətdən istifadə edərək hörmətli elm və təhsil nazirinə ünvanladığımız müraciətlərə operativ qaydada cavab verdiyinə görə seçicilərim adından, öz adımdan təşəkkür edirəm.

Digər məsələ Kürdəmir Rayon Uşaq İncəsənət Məktəbi ilə bağlıdır. Ötən illərin büdcə müzakirələri zamanı da mən Kürdəmir Rayon Uşaq İncəsənət Məktəbinin qəzalı vəziyyəti ilə bağlı müraciət etmişəm. Onu da bildirmək istəyirəm, Kürdəmir Rayon Uşaq İncəsənət Məktəbi ölkədə azsaylı tədris müəssisələrindəndir ki, orada musiqi fənnindən başqa, rəssamlıq və rəqs fənləri də tədris olunur. Bu məktəbdə təhsil alan uşaqlar regional müsabiqələrdə yüksək nəticələr göstərirlər. Yetişən gənc nəslin mədəni, mənəvi inkişafında əvəzsiz rolu olan rayon Uşaq İncəsənət Məktəbi üçün yeni binanın inşa edilməsini rayon əhalisi adından xahiş edirəm.

Bir məsələni də hörmətli Samir müəllimin nəzərinə çatdırmaq istəyirəm. Bu, rayon üçün ayrılmış pul vəsaiti ilə bağlıdır. Qeyd edim ki, 2020-ci ildə cənab Prezidentin Ehtiyat Fondundan Kürdəmir Rayon İcra Hakimiyyətinə şəhərin 8 nömrəli körpələr evi–uşaq bağçasının 100 yerlik yeni binasının tikintisi üçün 1,5 milyon manat vəsait ayrılmışdır. Təəssüf ki, dövlət başçısının rayonumuz üçün nəzərdə tutduğu bu humanist sərəncam vaxtında icra edilməmiş, icrası maliyyə ilinin sonuna tam təmin edilmədiyindən həmin vəsait vahid xəzinə hesabına köçürülmüşdür. Onu da bildirim ki, köpələr evi–uşaq bağçasının tikintisi ilə bağlı bütün layihə sənədləri işlənmiş və bu məqsədlə dövlət büdcə vəsaitinin müəyyən hissəsi də xərclənmişdir. Qeyd edim ki, inşası nəzərdə tutulan uşaq

bağçasının yerləşdiyi ərazi iri yaşayış massividir və orada yaşayan əhali üçün bu uşaq bağçasına böyük ehtiyac vardır.

Sonda qeyd etmək istəyirəm ki, təqdim edilmiş Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsini tam dəstəkləyirəm və hörmətli Kabinet üzvlərinə uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun, Əminə xanım. Vüqar İskəndərov. Buyurun.

**Vüqar İskəndərov**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, media mənsubları. 2025-ci ilin dövlət büdcəsi çox mükəmməl hazırlanıb. Hökumət üzvlərinin və həmkarlarımızın məruzələrini diqqətlə dinlədik. Düşünürük ki, 2025-ci ilin büdcə zərfi ölkəmizin hərtərəfli inkişafına öz vacib töhfələrini verəcək. Fürsətdən istifadə edərək bir neçə məsələyə fikrimi bildirmək istəyirəm. Büdcə zərfində müdafiə və təhlükəsizlik xərclərinə kifayət qədər vəsait ayrılıb. Bu özlüyündə çox mühüm məsələdir. Biz ordumuzun gücünü artırmaq üçün vacib addımlar atırıq. Düşünürəm ki, peşəkar ordu quruculuğu sahəsində çalışan müddətdən artıq xidmət keçən və xüsusi təyinatlı hərbçilərimizin maaşlarını bir neçə dəfə artırmalıyıq. Təcrübə göstərir ki, müharibədən çıxmış ölkələrdə hərbi sahəyə axın bir neçə dəfə azalır. Məsələnin normal məcraya gəlməsi üçün kifayət qədər zaman tələb olunur. Hərbi sahədə çalışan insanların maaşlarının yüksək olması ilə bu sahəyə olan axını stimullaşdırmaq olardı. Bura həm də ictimai təhlükəsizliyimizi qoruyan polis əməkdaşlarımızı da əlavə etməliyik. Çünki hüquq mühafizə orqanları içərisində ən az məvacib alan Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır.

Hörmətli xanım sədr, fürsətdən istifadə edərək

seçildiyim Şəki şəhəri ilə bağlı da bir neçə məsələni diqqətinizə çatdırmaq istəyirəm. Şəki şəhər Rəsulzadə prospekti 303 ünvanında yerləşən çoxmənzilli yataqxana binası çox qəzalı vəziyyətdədir. Maliyyə Nazirliyinin və Şəki Şəhər İcra Hakimiyyətinin birgə hazırladığı təkliflər Nazirlər Kabinetinə təqdim olunub. Həmin təkliflərdə sakinlərin daimi məskunlaşdırılması üçün onlara kompensasiya verilməsi məqsədi ilə maliyyənin ayrılması nəzərdə tutulub. Nazirlər Kabineti tərəfindən həmin təkliflər Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə göndərilmişdir. Komitədən isə Nazirlər Kabinetinin tapşırığına uyğun olaraq, məsələ dövlət proqramı layihəsinə salınaraq yenidən Nazirlər Kabinetinə təqdim edilib. Lakin 2 il keçməsinə baxmayaraq, məsələ öz həllini tapmayıb.

Hər il burada qaldırdığımız digər məsələ şəhərin su və kanalizasiya işləri ilə bağlıdır. 2010-cu ildən başlayıb və təəssüf olsun, 14 ildir ki, öz həllini tapmır, insanlarımızı narahat edir. Təşəkkür edirik ki, qaldırdığımız məsələ ilə əlaqədar cənab Prezidentin sərəncamına əsasən şəhərin mərkəzi hissələrində asfaltlanma işləri gedir. Lakin mərkəzi hissələrin bir çoxunda hələ də böyük qazıntı işləri var, yarğanlar əmələ gəlir. Bu ilin əvvəlindən yenə də işlər dayandırılıb və bu məsələ hələ problem kimi qalıb. İnsanlarımızın xahişini nəzərə çatdırırıq ki, bu məsələyə yenidən baxılsın və maliyyənin ayrılmasına dəstək olunsun.

Şəki rayonunun Oxud kəndi şəhərə ən yaxın kəndlərdən biridir. Şəhərlə kənd arasında Kiş çayı axır. Çayın üzərində körpü olmadığından insanlar kəndə getmək üçün uzun yol qət etməyə məcbur olurlar. Çay çox enli deyil, böyük olmayan bir körpü inşa edilsə, 5 mindən çox əhalisi olan kəndin uzun illər arzuladığı məsələ həll edilmiş

olardı. İnsanlar bu məsələnin həll olunmasını xahiş edirlər.

Sonuncu məsələ Şəki rayonunun qazlaşdırılması məsələsidir. Rayonun indiyədək 69 faizi qazlaşdırılıb. 2025–2030-cu illər arası "Azəriqaz" tərəfindən Şəki rayonu üzrə 2 yaşayış məntəqəsinin qazlaşdırılması planlaşdırılmışdır. Bu da, düşünürük ki, sayca çox azdır. Xüsusən şəhər mərkəzinə uzaq olan dağ kəndlərinin qazlaşdırılmasına ehtiyac var. Şəhərin də bəzi yerlərində bu məsələlərin görülməsi çox vacibdir. Hörmətli Baş nazirdən, hökumətdən məsələlərin həll olunması üçün dəstək verməlerini xahiş edirik.

Sonda qeyd etmək istəyirəm ki, 2025-ci ilin dövlət büdcəsi zərfini dəstəkləyirəm və səs verəcəyəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Soltan Məmmədov. Buyurun.

**Soltan Məmmədov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli hökumət nümayəndələri, hörmətli həmkarlar, media nümayəndələri. Mən də öz növbəmdə dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29 konfransının yüksək səviyyədə keçirilməsi münasibəti ilə dövlətimizi, bu çərçivədə təşkil olunmuş parlament konfransında, Sahibə xanım, Sizin rəhbərliyiniz altında parlament diplomatiyasının səmərəli mexanizmlər əsasında qurulduğunu təsdiq edən, milli maraqlarımıza uyğun hazırlanmış və yekdilliklə təsdiqlənmiş sənəd münasibəti ilə deputat həmkarlarımı təbrik etmək istərdim.

2025-ci il üçün dövlət büdcəsinin sosial yönümlü xərclərinin 2024-cü illə müqayisədə 8,8 faiz artırılması, əməkhaqqı, pensiya və sosial müavinətlər, ünvanlı sosial yardım, minimum əməkhaqqı, minimum pensiya, minimum ehtiyac meyarı və yaşayış minimumunun artırılması bir

daha təsdiq edir ki, Azərbaycan dövlətinin sosial siyasətinin məzmunu və prioritetləri dəyişməz olaraq qalır. Ümumilikdə, hesab edirəm ki, təqdim olunan büdcə layihəsi günün tələblərinə, cəmiyyətin ehtiyaclarına və gözləntilərinə uyğun hazırlanıb. Bununla yanaşı, şübhəsiz ki, sosial məsələlərin həlli konkret bir dövrlə məhdudlaşmayan, davamlı islahatların aparılmasını tələb edən mürəkkəb və daimi prosesdir.

Səhiyyə xərclərinin ötən ilin göstəricisi ilə müqayisədə 7,1 faizlik artımı bu sahədə uzun müddətdir ki, həyata keçirilən davamlı islahatların nəticəsidir. İcbari tibbi sığorta sisteminin tətbiqi və qanunvericiliyin təkmilləşdirilməsi, xidmətlər zərfinin genişləndirilməsi ilə bağlı hüquqi bazanın inkişaf etdirilməsi tibbi xidmətlərə əlçatanlığın artırılmasını göstərir. Son illərdə xidmətlər zərfinə daxil olan tibbi müdaxilələrin sayının artırılması, xüsusilə hər bir vətəndaşın sosial müdafiəsinə xidmət edən ambulator sahədə dərman preparatlarının xidmətlər zərfinə daxil edilməsi, şübhəsiz, icbari tibbi sığorta sisteminin uğurlu inkişafının göstəricisidir.

Bununla yanaşı, Azərbaycanda bir sıra prioritet səhiyyə məsələlərinin həlli üçün dövlət proqramları icra olunur ki, onların da səhiyyə büdcəsində ayrıca maliyyələşdirilməsi dövlətin bu məsələlərə xüsusi diqqətinin göstəricisidir. Lakin uzun müddət uğurla həyata keçirilən bu proqramların da gələcəkdə icbari tibbi sığorta çərçivəsində xidmətlər zərfinə daxil edilməsi daha məqsədəuyğun olardı.

Eyni zamanda, qeyd etmək istərdim ki, uşaqlar arasında bəzi xəstəliklər var, onların aşkarlanması və müalicəsi ilə bağlı həm səhiyyə, həm də sosial müdafiə sahəsində xüsusi yanaşma tələb edilir. Bu gün hər birimizin yaxşı

tanıdığı genetik və ətraf mühit faktorları ilə bağlı yaranan autizm spektr pozuntusunun erkən aşkarlanması və sonrakı reabilitasiyası üçün dövlət proqramının qəbul olunması vacibdir. Erkən diaqnostika, keyfiyyətli reabilitasiya uzunmüddətli perspektivdə həm dövlət büdcəsinin, həm də əhalinin maliyyə yükünün azaldılmasına xidmət edəcəkdir.

2025-ci ilin dövlət büdcəsində bir sıra layihələrə ayrılan büdcənin artımı və bəzilərində isə azalmaların izahlı təqdimatı, əldə olunan uğurlar və daha çox diqqət tələb edən səhiyyə məsələləri haqda məlumatlandırma çox faydalı olardı. Bu izahatlar bir sıra xəstəliklərlə bağlı həyata keçirilən dövlət proqramları çərçivəsində nəzərdə tutulan maliyyə vəsaiti ilə xəstə saylarının artan dinamikası arasındakı uyğunsuzluqları daha aydın başa düşməyə kömək edərdi.

Dövlət büdcəsi tərəfindən ayrılan investisiyalar və verilən subsidiyalar nəticələrinə görə, hər zaman həm hökuməti, həm də millət vəkillərini maraqlandıran məsələlər olub. Belə ki, Hesablama Palatasının hesabatına görə, kənd təsərrüfatına ayrılan subsidiyalarla bağlı 2025-ci ildə də ayrılan vəsaitin 2024-cü illə müqayisədə 9,4 faiz çox olması, bitkiçilik və heyvandarlıq sahələrində illik artımın cəmi 0,1 faiz bənd olması, eyni zamanda, kənd təsərrüfatı üzrə əlavə dəyərin ÜDM payında müsbət dinamikanın müşahidə olunmaması bu məsələlərin daha dərindən araşdırılmasına ehtiyac olduğunu göstərir.

Eyni zamanda, 2025-ci ilin büdcəsində ətraf mühitin qorunması üçün hədəflər və gələcək perspektivlər üzrə tədbirlər üçün nəzərdə tutulan maliyyə vəsaitinin gələcəkdə daha da artırılması lazımdır. Belə ki, tullantıların düzgün zərərsizləşdirilməsi, bütün ölkə ərazisində müasir

texnologiyaya əsaslanan təmizləyici sistemlərin qurulması, eyni zamanda, tibbi tullantıların idarə olunması üçün əlavə imkanların yaradılması çox vacibdir.

Hökumət nümayəndələrinin burada olmasından istifadə edərək bir məsələni də diqqətinizə çatdırmaq istərdim. Bu gün ölkənin hər bir nöqtəsində davamlı olaraq həyata keçirilən infrastruktur layihələri yüksək qiymətləndirilir. Təmsil etdiyim Xəzər rayonunda son illər dövlətimiz tərəfindən, xüsusilə Heydər Əliyev Fondu tərəfindən çoxsaylı sosial layihələr həyata keçirilmişdir. Bununla yanaşı, bu gün üçün ən əsas problemlərdən biri çirkab suların idarə olunması üçün kanalizasiya sisteminin olmamasıdır. Qrunt sularının yaratdığı problemlər, eyni zamanda, kanalizasiya sisteminin yaratdığı sosial və potensial səhiyyə problemləri dəfələrcə hökumət qarşısında qaldırılıb. Eyni zamanda, içməli su problemi də əhalini narahat edən məsələlərdən biridir. Hökumətin müvafiq strukturlarından gələcəkdə investisiya proqramları çərçivəsində bu sahələrdə tədbirlərin görülməsinin nəzərə alınmasını xahiş etmək istərdim.

Sonda bir daha 2025-ci il dövlət büdcəsi layihəsini dəstəkləyirəm və hökumətə bu büdcənin icrasında uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və hökumət nümayəndələri. Müzakirəmizə çıxarılmış 2025-ci il dövlət büdcəsinin layihəsi əsas hədəfləri əhatə edir, cari reallıqların diktə etdiyi bir çox məsələlərin həllinə yönəlir və ümumilikdə, dolğun və təkmil bir sənəd kimi dəyərləndirilməlidir. Sənəddə ölkənin müdafiə

potensialının gücləndirilməsinə, əhalimizin sosial təminatının yaxşılaşdırılmasına və eyni zamanda, işğaldan azad olunmuş ərazilərin bərpasına ayrılan vəsaitin artırılması isə bu istiqamətlərin ölkə rəhbərliyinin xüsusi diqqətində olmasından xəbər verir.

İşğaldan azad olunmuş ərazilərimizin bərpası ilə yanaşı, digər bölgələrimizin də sosial-iqtisadi inkişafına mühüm töhfələr verilir. Bu töhfələr parlamentdə təmsil etdiyim Göygöl və Daşkəsən rayonlarını da əhatə edir. Lakin həmin rayonlarda bir sıra sahələrdə işlərin sürətləndirilməsinə çox böyük ehtiyac var və onların bir qismini hökumət nümayəndələrinin diqqətinə çatdırmaq istərdim. Belə ki, Göygöl rayonunda 70 fərdi yaşayış evi olmaqla 320 nəfər əhalisi olan Firuzabad qəsəbəsində sakinlərin suvarma, kommunal-məişət, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun təsərrüfatına məxsus 200 hektar əkin sahəsinin, heyvandarlıq fermalarının, habelə Respublika Süni Mayalanma Mərkəzinin suya olan tələbatının ödənilməsi üçün həmin qəsəbənin ərazisindən keçən Gəncə çayından qapalı su borusunun çəkilməsinə böyük ehtiyac var.

Eyni zamanda, Göygöl şəhər inzibati ərazisində yerləşən, 83 ev təsərrüfatı olmaqla 442 nəfər əhalisi olan Ağdağ qəsəbəsində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı problemlər yaşanır. Belə ki, 2014-cü ildə Göygöl şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi həyata keçirilsə də, eyni inzibati əraziyə aid olan Ağdağ qəsəbəsi layihəyə daxil edilməmişdir və hazırda qəsəbədə qeyd olunan işlərin aparılmasına ciddi zərurət yaranıb.

Bununla yanaşı, Göygölün Sukanal sahəsinin maddi-texniki bazasının gücləndirilməsi də zəruridir. Çünki istis-

mara yararlılıq səviyyəsi aşağı olan mövcud texnikaları onun iş fəaliyyətində ciddi çətinliklər yaradır. Sahə tələb olunan yeni texnika ilə təmin olunarsa, rayonda yaranan qəzaların operativ və vaxtında həllinə müsbət təsirini göstərər. Qeyd etdiyim məsələlərin həlli ilə bağlı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən zəruri tədbirlərin görülməsini xahiş edirəm.

Daşkəsən rayonu üzrə isə seçicilərimi ən çox narahat edən problemlərdən biri yol məsələsidir. Belə ki, uzunluğu 38 kilometr olan, sonuncu dəfə 2006-cı ildə əsaslı təmir edilmiş və hazırda asfalt örtüyü tam yararsız hala düşmüş Gəncə–Daşkəsən avtomobil yolunun, uzunluğu 24 kilometr olan 2300 nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Daşkəsən–Dəstəfur–Qıyıqlı avtomobil yolunun və uzunluğu 4 kilometr olan 400 nəfərin yaşadığı Kəmərqaya kəndinin avtomobil yolunun əsaslı təmir olunmasına çox ciddi ehtiyac yaranıb. Qeyd edilən yolların təmiri bu ərazilərin turizm potensialının reallaşdırılmasına və bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə əhəmiyyətli təkan verərdi. Bununla əlaqədar xahiş edirəm ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bu məsələyə ciddi diqqət yetirsin.

Daşkəsən rayonunda problemlərdən biri də qazlaşma məsələsidir. Rayonun 49 yaşayış məntəqəsindən cəmi 15-i, yəni 30,6 faizi qazlaşıb və qazlaşma səviyyəsinə görə Daşkəsən rayonu ən axırıncı yerdədir. Bununla əlaqədar Dövlət Neft Şirkətindən ilkin olaraq Qabaqtəpə kənd inzibati ərazi dairəsinə daxil olan 3700 nəfərin yaşadığı 9 yaşayış məntəqəsinin və 530 nəfərin yaşadığı Əhmədli kəndinin qazlaşdırılması məsələsinə baxılmasını xahiş edirəm.

Bununla yanaşı, qazlaşdırılması çətin və rentabelli

olmayan ucqar yaşayış məntəqələrində yaşayan əhali üçün elektrik enerjisinin və ya odunun alınmasında güzəştlərin tətbiq edilməsi məsələsinə baxılmasını təklif edərdim.

Daşkəsənlə bağlı problemləri qabartmağımın ayrıca səbəbi də var. Gələn il Daşkəsən rayonunun yaranmasının 95 illik yubileyidir. Üzücü bir faktdır ki, Daşkəsən şəhərində sakinlərin istirahət etməsi, gənclərin asudə vaxtının səmərəli təşkili üçün yarandığı tarixdən bu günə qədər heç bir park, idman meydançası və idman qurğuları yaradılmayıb. Hesab edirəm ki, sadaladığım problemlərin həlli, habelə Daşkəsən şəhərinin abadlaşdırılması, şəhərdaxili küçələrin işıqlandırılması, asfaltlanması və istinad divarlarının təmir edilməsi üçün vəsaitin ayrılması rayonun yubiley ilində daşkəsənlilər üçün ən böyük hədiyyə olardı.

Bütövlükdə, büdcə layihəsinə səs verəcəyəm, həmkarlarımı da ona səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Eldar Quliyev. Buyurun.

**Eldar Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputatlar və hökumət üzvləri. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra o dövrdə ölkəmizin iqtisadi və sosial həyatının bütün sahələrində çox böyük uğurlara nail olmuşdur. Qazanılan bu nailiyyətlər ilk öncə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və hörmətli Prezidentimiz İlham Əliyev cənablarının uğurla həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində mümkün olmuşdur. Bunun nəticəsidir ki, respublikamız inkişaf etməkdə olan ölkələr sırasında ön sıralarda olmaqla regionun lider dövlətinə çevrilmişdir. Məhz bu amili nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatı COP29

Konfransının Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsinə razılıq vermişdir. Biz çox şadıq ki, bu konfransa hazırlıq və onun təşkili hörmətli Prezidentimizin rəhbərliyi ilə çox yüksək səviyyədə təşkil olundu və uğurla başa çatdı. Bununla da Birləşmiş Millətlər Təşkilatının ölkəmizə olan etibarı lazımi qaydada doğruldu və respublikamızın ən möhtəşəm tədbirlərin keçirməsinə qadir olduğu bir daha təsdiq edildi.

Bildirirəm ki, müzakirə etdiyimiz 2025-ci ilin dövlət büdcəsi zərfi həmişə olduğu kimi, çox nəfis, əhatəli və şəffaf qaydada hazırlanmışdır. Mən qanun layihəsinin hazırlanmasında əməyi olan hər kəsə öz minnətdarlığımı bildirirəm.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində insan amilinin dayanması gələn ilin büdcə layihəsində də öz əksini tapmışdır. Belə ki, 2025-ci ilin büdcə layihəsində bu xərclərə 17 milyarda yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Bu, ümumi büdcə xərclərinin 41 faizinə yaxındır. Cari illə müqayisədə 1,4 milyard manat və ya 8,8 faiz çoxdur. Nəzərə alsaq ki, ümumi büdcə xərcləri bu ilə nisbətən 5,4 faiz artdığı halda, sosial yönümlü xərclərin 8,8 faiz artması ölkəmizdə insan faktoruna olan diqqət və qayğının təsdiqidir.

Əlbəttə, ölkəmizin əldə etdiyi bu möhtəşəm uğurlarda təhsilin və səhiyyənin təşkilində xüsusi yeri vardır. Məlumdur ki, yüksək təhsilə nail olmadan, insanların sağlamlığını təmin etmədən iqtisadi və sosial sahələrdə uğurlar qazanmaq çətin olardı. Bu istiqamətdə dövlət büdcəsindən hər il lazımi səviyyədə vəsait ayrılır. Eyni zamanda, genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu vacib

məsələ gələn ilin büdcəsi layihəsində də nəzərdə tutulmuşdur. Cari illə müqayisədə 2025-ci ildə təhsilə 10,4 faiz, səhiyyəyə isə 8,8 faiz çox vəsait ayrılması nəzərdə tutulmuşdur.

Bununla yanaşı, hökumət üzvlərinin burada olmasından istifadə edərək bəzi məsələləri nəzərinizə çatdırmaq istəyirəm. Belə ki, müstəqillik dövründə yeni məktəb binasının tikilməsi və mövcud məktəblərin əsaslı təmiri sahəsində çox böyük işlər görülsə də, hələ təmirə ehtiyacı olan məktəblər mövcuddur. Digər tərəfdən də bir çox bölgələrdə məktəblərdə şagirdlərin çatışmaması, yaxud sıxlıq olması böyük bir problemə çevrilmişdir. Bu məsələləri eyni ilə Bakı şəhərində də göstərmək olar. Bəzi məktəblərdə hər sinifdə 35-40 şagird olması sıxlıq yaradır. Bəzilərində isə hətta üç növbədə dərslər keçirilir. Bununla əlaqədar olaraq yeni binaların tikilməsi vacibdir və bunu sürətləndirmək lazımdır. Təklif edərdik ki, bu binaların tikilməsinə özəl sektorlar da cəlb olunsun. Onların tikdiyi məktəblərdə mülkiyyət formasından asılı olmayaraq tədris Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi proqram əsasında və nazirliyin nəzarəti altında həyata keçiriləcək.

İkinci məsələ təcili yardım stansiyalarında maşınların vəziyyəti ilə əlaqədardır. Təmsil etdiyim Sabunçu rayonunun 28 nömrəli dairəsində Maştağa, Nardaran, Bilgəh qəsəbələri Bakının ən böyük qəsəbələrindəndir. Onu da nəzərinizə çatdırım ki, ancaq Maştağa qəsəbəsində yüz mindən çox əhali yaşayır. Orada bir təcili yardım stansiyası var. 3 maşın xidmət göstərir ki, bu maşınların da tez-tez təmirə ehtiyacları olur və bu təmirlər də uzun zaman alır. Bununla əlaqədar bizim hökumət üzvlərindən xahiş

edirəm ki, əlavə 2 maşın da...

**Sədrlik edən.** Çox sağ olun, Eldar müəllim.

Növbəti çıxış edən Müşfiq Məmmədli. Buyurun.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri, media nümayəndələri. Dünya iqtisadiyyatındakı meyillər və qlobal kataklizmlər fonunda Azərbaycan iqtisadiyyatındakı müsbət meyillər ölkə Prezidentinin nə qədər uğurlu iqtisadi siyasət yürütdüyünün parlaq sübutudur. Çox diqqətəlayiq haldır ki, ölkə iqtisadiyyatındakı artım və bunun büdcəyə yönələn vəsaitlərin artımı şəklində yansıması böyük miqdarda qeyri-neft sektorunun hesabına təmin edilmişdir. Tam əminliklə demək olar ki, 2025-ci ilin büdcəsi rekord büdcə kimi qalib xalqın, qalib dövlətin, qalib millətin büdcəsidir.

Səhiyyə xərclərinin 2 milyarda yaxınlaşması, büdcə xərclərinin 4,8 faiz olması, 2024-cü illə müqayisədə səhiyyə xərclərinin 7,1 faiz çox olması bu sahəyə necə diqqət və qayğı göstərilməsinin daha bir nümunəsidir. Nəzərinizə çatdırıram ki, son 5 ildə səhiyyə büdcəsi dəfələrcə artmışdır.

Yaradılan şəraitə minnətdarlığımı bildirərək ilk öncə seçicilərimizin qaldırdığı məsələləri hökumət üzvlərinin nəzərinə çatdırmaq istəyirəm. Siyəzən rayonu daim dinamik inkişaf edən və kənd təsərrüfatı istehsal müəssisələrinin inkişafı hesabına əhali sayının artması ilə müşahidə olunan bölgələrimizdəndir. Bu bölgədə xüsusən gənc əhalinin faiz nisbəti daha yüksəkdir. Son zamanlar gənclərimizin idman sahəsində uğurları hər birimizi qürurlandırır. Bununla yanaşı, idman kompleksinin olmaması seçicilərimizin daim qaldırdığı məsələlərdəndir. İdman

kompleksinin qurulması üçün yarımçıq bir binanın olması, məncə, prosesləri sürətləndirməkdə mühüm rol oynayar. Hökumət üzvləri tərəfindən bu məsələyə diqqət yetirilməsi vacibdir.

Quba rayonunun Cimi kəndində çayın üzərində körpünün olmaması ilə əlaqədar əhalinin gediş-gəlişində müəyyən problemlər yaranır. Bu problemlərin həlli üçün körpünün salınması bizim seçicilərimizin məndən bir neçə dəfə etdikləri xahişdir.

Qonaqkənd qəsəbəsində və ondan sonrakı dağ kəndlərində qaz təchizatının infrastrukturu həyata keçirilmişdir. Lakin qaz təchizat sisteminə qoşulmaması böyük problemlər yaradır. Bu da bizim seçicilərimizin qaldırdığı məsələlərdəndir.

İcbari tibbi sığortanın tətbiqi ilə ölkə səhiyyəsinin maliyyələşməsində müasir yanaşmaların olması səhiyyə sahəsinin inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. Səhiyyə xərclərinin 70 faizdən çoxunun, yəni 1 milyard 410,4 milyon manatın İcbari Tibbi Sığorta Fonduna yönəlməsi bu sahənin prioritet olmasının sübutudur. Beləliklə, 1,5 milyard manata yaxın vəsait dövlət büdcəsi hesabına əhalinin sığortalanmasına, digər vəsait isə dövlət proqramları şəklində ayrılmışdır. Bu, sosial dövlət modelinin uğurlu tətbiqinin nümunəsidir. Ancaq Hesablama Palatasının rəyindən göründüyü kimi, burada da bəzi korrektələrə, daha fərqli idarəetmə həllərinə, ölkə qanunvericiliyinə uyğun şəkildə müasir korporativ idarəetmə modellərinin tətbiqinə ehtiyac vardır.

Digər sahələrdə olduğu kimi, yaradılmış publik hüquqi şəxslər bəzən büdcə təşkilatları kimi fəaliyyət göstərirlər. Ancaq müasir idarəetmə tətbiq edilən, işini zamanın

tələblərinə uyğun quran Yeni Klinika, Kliniki Tibbi Mərkəz, Abşeron Tibb Mərkəzi publik hüquqi şəxslər dotasiyasız fəaliyyət göstərirlər. Sumqayıt Tibb Mərkəzi isə çox cüzi – 7-8 faiz dotasiya ilə fəaliyyət göstərir. Belə nəticəyə gəlmək olar ki, islahatların davamlı və ardıcıl tətbiqi bu müsbət nəticələrin artmasına gətirib çıxarar. Publik hüquqi şəxslər şəklində fəaliyyət göstərən tibb mərkəzlərində tibbi kadrlardan səmərəli istifadə, modernləşmə, maddi-texniki bazanın yaxşılaşması bu müsbət tendensiyaları stimullaşdırır.

Düşünürəm ki, tibb müəssisələrində ştat vahidlərinin formalaşmasında vahid elmi əsaslara söykənən yanaşma bu prosesi daha da sürətləndirər və digər neqativ tendensiyaların qarşısının alınmasına gətirib çıxarardı.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ölkə iqtisadiyyatında müşahidə olunan müsbət tendensiyalar və Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin hazırlanması istiqamətində atılan addımlar hökumətimiz tərəfindən uğurla həyata keçirilməkdədir. Bu işdə və gələcək fəaliyyətlərində hörmətli Baş nazirə, Nazirlər Kabinetinə, hökumət üzvlərinə, agentlik rəhbərlərinə uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun, Müşfiq müəllim.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, hörmətli hökumət üzvləri, qonaqlar. 2024-cü ilin büdcəsində olduğu kimi, bu ilin büdcəsində də ötən illərdə əldə etdiyimiz uğurların davam etdirilməsi məqsədi ilə müdafiə və təhlükəsizlik, sərhədlərin qorunması, Böyük Qayıdışın sürətləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və təhsil sahəsinə

ayrılan vəsaitin artırılması xüsusi əhəmiyyət daşıyır.

Heç şübhəsiz ki, bu gün regional və beynəlxalq müstəvidə baş verən hadisələr sözügedən sahələrə ayrılan vəsaitin artırılmasını zəruri edir. Bu, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın artan gücünü və qüdrətini göstərir. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib.

Ötən dövr bir çox mühüm hadisələrlə, o cümlədən Prezident seçkiləri və Milli Məclisə seçkilərlə yadda qaldı. Azərbaycan xalqı hər iki seçkidə fəal iştirak edərək dövlətə və dövlətçiliyə səs verdi. Bu gün Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclü və müstəqildir.

Ötən dövrün əlamətdar hadisələrindən biri də torpaqlarımızın işğaldan tam azad olunması, bütövlüyümüzün, suverenliyimizin daha da gücləndirilməsi, Böyük Qayıdışın sürətlə həyata keçirilməsidir. Bu gün işğaldan azad olunmuş bütün rayonlar kimi Cəbrayıl da yenidən qurulur, artıq cəbrayıllılar da öz doğma yurdlarına qayıdırlar.

Bütün bunlarla yanaşı, vətəndaş müraciətləri əsasında bir sıra təklifləri səsləndirmək istəyirəm. Bölgələrdə yeni iş yerlərinin yaradılması istiqamətində tədbirlərin gücləndirilməsi və bu istiqamətdə ayrılan vəsaitin daha da artırılması. Əslində, hökumət üzvləri çıxışlarında bu məsələyə toxundular. Bu gün bölgələrdə ən aktual məsələlərdən biri budur. Qəbullar zamanı müraciətlərin çoxu da iş və maddi dəstəklə bağlı olur.

İkinci məsələ qazlaşdırma ilə bağlıdır. Bir az bundan əvvəl həmkarlar da bu məsələyə toxundular. Mən keçən dəfə də bu məsələni qaldırmışdım. Saatlının Nərimanov kəndi var. Burada Cəbrayıldan olan məcburi köçkünlər

yaşayır. Mən bir neçə dəfə müraciət etmişəm. Burada qaz təchizatı hələ də həyata keçirilməyib. Vətəndaşlar davamlı olaraq bu məsələ ilə bağlı bizə müraciət edirlər.

Digər məsələ təhsillə bağlıdır. Bu ilin dövlət büdcəsində təhsilə ayrılan vəsaitlərin artırılması xüsusi əhəmiyyət daşıyır. Bu öz növbəsində dövlətimizin bu sahəyə diqqət və qayğısını göstərir. Xüsusi qeyd etmək lazımdır ki, ötən dövrün təhsillə bağlı əlamətdar hadisələrindən biri də Qarabağ və Azərbaycan–Türkiyə universitetlərinin yaradılmasıdır.

2025-ci ilin dövlət büdcəsində elm sahəsinə 244 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Digər sahələrə daha çox vəsait ayrılıb. Buna istinadən bir neçə məqamın üzərində durmaq istəyirəm. Elmi dərəcələrə görə verilən vəsaitin artırılması. Sonuncu dəfə bu məsələyə bir neçə il öncə baxılıb. Hazırda bu məbləğ fəlsəfə doktorları üçün 60, elmlər doktorları üçün 100 manatdır. Rəsmi açıqlamaya əsasən bu məsələ ilə bağlı yeni mexanizmin tətbiq olunması planlaşdırılır. Əgər belə plan varsa, sürətləndirilməsini, yoxsa vəsaitin, az da olsa, artırılmasını təklif edirəm.

Universitetlərdə müəllimlərin maaşlarına baxılması, universitetlərin tədqiqatyönlü fəaliyyəti, maddi-texniki bazalarının gücləndirilməsi istiqamətində dəstəyin artırılması, ümumilikdə, universitetlərin maliyyələşmə sisteminə yenidən baxılması.

Yeni məktəbəqədər və orta təhsil müəssisələrinin inşası. Əksər ərazilərdə ciddi sıxlıq var. Rəsmi açıqlamalara əsasən xərclərin optimallaşdırılması məqsədi ilə təxminən 4400 məktəbdən 1500 məktəbin bağlanılması planlaşdırılır. Düşünürəm, məktəb həm də ideoloji və mədəni məsələdir. Məktəblərin bağlanması, eyni zamanda, həmin

ərazilərin boşalmasına gətirib çıxaracaq. Biz bu maliyyə məsələlərini anlayırıq. Amma düşünürəm, bu məsələdə də ortaq bir yolun tapılmasına ehtiyac var.

Bütövlükdə, büdcə layihəsini dəstəkləyirəm və səs verəcəyimi bildirirəm.

**Sədrlik edən.** Ceyhun müəllim, çox sağ olun.

Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli hökumət nümayəndələri, əziz həmkarlar, media nümayəndələri. Məndən öncə çıxış edən və büdcəyə dəstəyini bildirən həmkarlarımın fikirlərinə qatılıram. Çox sevindirici haldır ki, biz hər il büdcədə artım müşahidə edirik və bu, bir daha dövlətimizin iqtisadi gücünü, eyni zamanda, vətəndaş rifahına diqqəti göstərir.

Noyabr ayı Azərbaycanda baş verən ciddi və dəyərli hadisələrlə yadda qaldı. Düşünürəm ki, COP29-un uğurla keçirilməsi də bizim tariximiz üçün önəmli, o cümlədən COP üçün də yeni standartların müəyyənləşdirildiyi bir tədbir olmuşdur. Bu münasibətlə başda cənab Prezident olmaqla bütün hökumət üzvlərini, həmçinin xalqımızı təbrik edirəm.

Hökumət üzvlərinin burada olmasından istifadə edərək mən də seçildiyim Beyləqan rayonu ilə bağlı bir neçə məsələni onların diqqətinə çatdırmaq istərdim. Beyləqan Rayon Mərkəzi Xəstəxanası mindən çox əməkdaşı olan, o cümlədən həm Vətən müharibəsi, həm də pandemiya dövründə kifayət qədər ciddi işlərin görüldüyü bir xəstəxanadır. Həmçinin ətraf rayonlar üçün də vacib bir səhiyyə mərkəzidir. Biz orada mütəmadi olaraq görüşlər keçiririk. Bu xəstəxanada yeni bir korpusun tikilməsinə ciddi ehtiyac var. Aidiyyəti qurumlardan o məsələni diq-

qətdə saxlamalarını xahiş edərdim.

İkinci məsələ. Beyləqan rayon Təzəkənd kəndi Əliheydər Məmmədov adına məktəb 18 şəhid məzunu ilə beyləqanlıların xatirindədir. Məktəb qəzalı vəziyyətdədir. Ümumilikdə, Təzəkənd kəndində 100-dən çox veteran var. Bizim görüşlərimizdə onlar xahiş etdilər ki, təhsil nazirinin də burada olmasından istifadə edərək bu məsələni diqqətə çatdıraq. Məktəbin yenidən qurulmasına ciddi ehtiyac vardır.

Bundan başqa, Beyləqan da həm içməli su, həm də suvarma suyu ilə bağlı ciddi əziyyət çəkən rayonlarımızdandır. Bu rayonun aşağı hissəsində yerləşən kəndlər Qarabağ kanalından yararlana bilirlər, amma yuxarı hissəsində olan kəndlər istifadə edə bilmirlər. Burada bir nasosxana mərkəzi qurulsa, o kəndlərin problemləri, əslində, həll oluna bilər. Tatalılar, Eyvazalılar, Aşıqalılar kəndlərində nasosxana infrastrukturunun yaradılması ilə suvarma, su məsələsini həll etmək olar.

Bundan başqa, içməli su ilə də bağlı ciddi problemlər var. Bundan ən çox əziyyət çəkən Baharabad, Örənqala qəsəbələri, Təzəkənd, Eyvazalılar kəndləridir. Orada yaşayan insanlar görüşlər zamanı bu məsələni bizim hörmətli hökumət nümayəndələrinin diqqətinə çatdırılmasını və aidiyyəti qurumun bu məsələyə diqqət göstərməsini xahiş etmişdilər.

Hörmətli Sahibə xanım, burada hörmətli həmkarlarımız idman infrastrukturu ilə bağlı bir neçə məsələyə toxundular. Məlumat üçün nəzərinizə çatdırmaq istərdim ki, biz aidiyyəti dövlət qurumu olan Gənclər və İdman Nazirliyi ilə mütəmadi olaraq bu məsələni müzakirə edirik. Həmçinin biz hər il müşahidə edirik ki, ayrı-ayrı

regionlarımızda idman qurğuları, olimpiya idman mərkəzləri fəaliyyətə başlayır, yaxud da yenidən təmir olunub istifadəyə verilir. Bu proseslər mütəmadi olaraq gündəmdədir və davamlı şəkildə aidiyyəti struktur tərəfindən icra olunur.

Sonda büdcəyə dəstəyimi ifadə edirəm və həmkarlarımı da səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli sədarət, hörmətli hökumət üzvləri, həmkarlarım. Bu gün müzakirəmizə təqdim edilmiş Azərbaycan Respublikasının 2025-ci il üçün dövlət büdcəsi ölkəmizdə və beynəlxalq ictimaiyyətdə çox əlamətdar bir hadisəyə təsadüf edir. Mən həm seçicilərimin, həm də öz adımdan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda yüksək səviyyədə keçirilməsinə, təşkilatçılığına və uğurlu nəticələrə görə dövlətimizin başçısı möhtərəm Prezidentimizə, eləcə də Birinci vitse-prezidentimizə, bu uğurda, bu nailiyyətdə kimin zərrə qədər xidməti varsa, hər kəsə təşəkkür edirəm. Seçicilərimin böyük və səmimi arzularını, dualarını çatdırıram.

Mən də dövlət büdcəsi ilə bağlı deyilən müsbət fikirlərə qoşuluram. Sözsüz ki, biz hər il dövlət büdcəmizin nə qədər zənginləşdiyinin, nə qədər sosial yönümlü olduğunun, daha böyük sahəni əhatə etdiyinin şahidi oluruq. 2025-ci il üçün bizə təqdim olunan bu mükəmməl büdcədə bir daha dövlətimiz və xalqımız üçün, gələcəkdə region üçün bir çox prioritetlərin davam etməsi, öz əksini tapması, təbii ki, həm ictimaiyyət tərəfindən, həm də hər

birimiz tərəfindən qiymətləndirilir. Dövlət büdcəsində sosial yönümlülüyün, milli təhlükəsizliyimizin, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin əks olunmasına, Böyük Qayıdışın uğurla başa çatdırılmasına, bütövlükdə, xalqımızın rifahının yaxşılaşmasına və dövlətimizin qüdrətlənməsinə yönəlik prioritetlərin olmasına görə möhtərəm Prezidentimizə bir daha təşəkkür edirik. Hesab edirik ki, 2025-ci il büdcəsinin hər bir rəqəmi üzərində möhtərəm Prezidentimizin düşünülmüş siyasəti öz əksini tapıb. Əvvəlki illərdə də gördüyümüz kimi, hər bir rəqəm konkret əməllə, konkret layihə ilə uğurla həyata keçirilibdir. Sözsüz ki, mən büdcə paketinə səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram.

Qısaca olaraq öz seçicilərimin narahat olduğu problemləri də nəzərinizə çatdırmaq istərdim. Əlbəttə, bu, bir həqiqətdir ki, son illərdə ölkəmizdə aparılan çox ciddi və əsaslı islahatlar nəticəsində bütün sahələrdə çox böyük uğurlar əldə olunub. Bu uğurlar haqqında danışmağa kifayət qədər vaxt lazımdır. Mən təmsil etdiyim Səhiyyə komitəsinin, eləcə də uzun müddət təmsil olunduğum sosial sahə ilə bağlı bəzi məsələlərə toxunmaq istərdim. Təbii ki, Qarabağda görülən işlərə bəlkə də büdcə paketindən daha çox maliyyə tələb olunur. Amma biz o möhtəşəm işləri bəzən yetərincə dəyərləndirmirik. Qarabağda on kilometrlərlə tunellər, möhtəşəm infrastruktur, bərpa-quruculuq işləri və hava limanları dünyaya səs salan layihələrdir.

Səhiyyə sahəsində son 5 ildə böyük uğurlar qazanılmışdır. Biz bunu minnətdarlıqla təqdir və təbliğ etməliyik. Həllinin əlçatmaz olduğunu bildiyimiz ürək əməliyyatları, böyrək əməliyyatları, qaraciyər köçürülməsi, hətta bölgə-

lərdə dializin mümkünsüzlüyü haqqında məsələləri daim müzakirə edirdik. Amma bu gün ən uzaq bölgələrdə bu cür ağır problemlərin həlli, eləcə də hər bir vətəndaş üçün əlçatan olması bizi  sevindirir. Bu isə, sözsüz ki, möhtərəm Prezidentimizin hər bir vətəndaşın sağlamlığına verdiyi diqqətdir, xüsusilə möhtərəm Mehriban xanımın bu məsələni daim diqqətdə saxlamasıdır.

Hesab edirəm ki, gələcəkdə Sovet dövründən miras qalmış yüzlərcə, minlərcə kənd məntəqələrində yeni infrastrukturlar fəaliyyətə başlayacaqdır. Hörmətli Əhliman müəllimin dəfələrcə qeyd etdiyi kimi, xüsusilə onkoloji xəstəliklərin dövlət büdcəsi hesabına, daha doğrusu, sığorta ilə əhatə olunması günün ən vacib məsələlərindəndir.

Mən komitə iclasında da dedim. Bizim ərazimizdə istifadəyə yararsız olan yüzlərcə köhnə binaların zirzəmilərində ciddi dezinfeksiya, təmizlik işlərinin aparılmasına...

**Sədrlik edən.** Məlahət xanım, fikrinizi bitirin.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, Sahibə xanım. Müvafiq qurumların – həm Bakı Şəhəri İcra hakimiyyəti, həm də Səhiyyə Nazirliyinin tabeliyində olan Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən qarşılıqlı bir konsensus yaradılaraq, yaxud da büdcədən pul ayrılmasına nail olmaqla bu problemin həllinə kömək göstərilməsini xahiş edərdim. Çünki təkcə Nəsimi rayonunda deyil, Nizami və bir sıra digər rayonlarda, Əhmədlidə belə problemlər var. Biz pandemiyadan çıxmış ölkəyik, ona görə epidemioloji vəziyyətlə bağlı ciddi düşünməliyik. Çox təşəkkür edirəm, minnətdaram, Sahibə xanım.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli höku-

mət üzvləri və deputatlar. Dövlətimizin və xalqımızın həyatında artıq başa çatmaqda olan 2024-cü il olduqca əlamətdar hadisələrlə yadda qalacaqdır. Əvvəla, Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin öz rəşadətli ordusu ilə Ermənistanın işğalından azad edərək suverenliyini bərpa etdiyi bütün ərazilərdə 2024-cü il fevralın 7-də Prezident, sentyabrın 1-də yeddinci çağırış Milli Məclisə keçirilmiş demokratik, azad və şəffaf seçkilər ölkənin siyasi, iqtisadi, sosial və mədəni həyatında əhəmiyyətli hadisə idi. Həmçinin Azərbaycanın ev sahibliyi ilə Bakı şəhərində keçirilən COP29 tədbiri ən yüksək səviyyədə təşkil edilməklə yanaşı, həm də iqlim dəyişikliyi ilə bağlı həlli müşkül olan maliyyə məsələsini həll etməklə bu sahədə yeni böyük tarixi uğura nail oldu. Qeyd etməliyəm ki, bu uğurun əldə edilməsi birmənalı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nüfuzunun, həyata keçirdiyi uğurlu xarici siyasətin, tərəfdar ölkələrlə aparılan konstruktiv, intensiv danışıqların nəticəsidir.

Azərbaycanda karbon emissiyasının azaldılması, bərpa olunan enerji sektorunun inkişafı istiqamətində ardıcıl və məqsədyönlü işlər aparılır. Təkcə onu qeyd edim ki, Ermənistanın 30 il işğalından sonra azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən bərpası və Azərbaycan iqtisadiyyatının inteqrasiyası, bütövlükdə, iqtisadiyyatın inkişafına, yeni iş yerlərinin açılmasına, alternativ enerji mənbələrinin istifadəsinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Biz artıq onun ilkin nəticələrini müşahidə edirik. Yeni su elektrik stansiyalarının, külək və günəş elektrik stansiyalarının istifadəyə verilməsi enerji sektorunun, xüsusilə yaşıl enerji istehsalının inkişafını tam təmin

etmişdir.

Bəzi Qərb ölkələrinin siyasi dairələri Azərbaycana və onun uğurlarına, beynəlxalq aləmdə nüfuzunun artmasına qısqanclıqla yanaşaraq ölkəmizə, beynəlxalq əməkdaşlığın inkişafına və COP29-da uğur əldə edilməsinə zərbə vurmaq üçün təsir dairələrində olan siyasətçilər, media və QHT-lər vasitəsi ilə misli görünməmiş qarayaxma kampaniyası apardılar. Amma onların bu çirkin və siyasi əxlaqa sığmayan fəaliyyəti uğursuz oldu. Bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan dövləti qarşısına qoyduğu məqsədlərə nail olur və heç bir qara qüvvə ona mane ola bilməz.

Əlbəttə, bu uğurlar həm də 2024-cü ilin dövlət büdcəsinin uğurlu icrasının parlaq göstəricisi hesab edilə bilər. Qeyri-neft sektorunun inkişafı, vergi, gömrük və maliyyə intizamının möhkəmləndirilməsi gəlirlərin artmasını, büdcə vəsaitinin səmərəli və nəticəyönümlü xərclənməsini təmin etmişdir. İnanıram ki, bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövləti daha da sürətlə inkişaf edəcək və dünya üzərində özünün layiqli yerini və mövqeyini möhkəmləndirəcəkdir.

Bu baxımdan müzakirəyə çıxarılan 2025-ci ilin dövlət büdcəsi "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın uğurlu icrasının real əsasıdır. Növbəti ilin büdcəsi ölkəmizin 2025-ci ildə də yeni böyük layihələr həyata keçirəcəyini, o cümlədən 850 min keçmiş məcbur köçkünün, ilk növbədə, 140 mindən çoxunun yenidən qurulan "ağıllı şəhər", "ağıllı kənd" kimi cənnətə çevrilən Qarabağ və Şərqi Zəngəzura tezliklə qayıdacağını təmin edəcəkdir.

Eyni zamanda, 2025-ci il üçün dövlət büdcəsinin sosial

xərcləri 16 milyard 9,7 milyon manat məbləğində proqnozlaşdırılmışdır ki, bu da 1 milyard 370 milyon manat çoxdur. Bütün bunlar bir daha göstərir ki, dövlət siyasətinin mərkəzində vətəndaşımızın daha yaxşı və təhlükəsiz həyat fəaliyyətinin təmin edilməsi dayanır. Hesab edirəm ki, hökumət də bu məsələlərin həllinə diqqətlə yanaşır və səmərəli fəaliyyət göstərir.

Bütövlükdə, 2025-ci ilin dövlət büdcəsi qanunvericiliyin tələblərinə uyğun olaraq, yüksək peşəkarlıqla hazırlanıb və qarşıya qoyulan vəzifələrin həlli üçün real zəmin yaradır. Ona görə də 2025-ci ilin dövlət büdcəsini müsbət qiymətləndirirəm və həmkarlarımı da bu qanun layihəsinə səs verməyə çağırıram.

Bununla yanaşı, VII çağırış Milli Məclisdə təmsil etdiyim Ağdam 119 saylı seçki dairəsinin seçiciləri ilə görüşlər zamanı onların qaldırdıqları bəzi ümumi məsələləri də diqqətinizə çatdırmaq istərdim. O məsələlər komitələrin birgə iclasında qeyd edilibdir. Ona görə onları təkrar etmək istəmirəm. Yalnız bir məsələni vurğulayım ki, Ağdam rayonunun işğal altında olmayan kəndlərinin torpaq sahələrinin suvarılması üçün Qarqarçay üzərində bir bəndin tikilməsi ilə bağlı əhalinin xahişini hökumətin diqqətinə çatdırmaq istərdim. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim.

Nəsib Məhəməliyev. Buyurun.

**Nəsib Məhəməliyev**. Hörmətli xanım sədr, hörmətli hökumət nümayəndələri, hörmətli həmkarlar. Son illər Azərbaycanda iqtisadiyyatın davamlı rəqabət qabiliyyətli inkişafı istiqamətində çoxsahəli islahatlar həyata keçirilmiş, regionların və sahibkarlığın inkişafının təmin edil-

məsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, onların tənzimləyici bazasının təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun stimullaşdırılması hesabına yüksək nəticələr əldə olunmuşdur. İnsan kapitalının inkişafı, innovativ sənayeləşmə trendlərinə yüksək texnologiyaların tətbiqi, inklüziv yanaşma və dövrün çağırışlarını özündə ehtiva edən inkişaf modelinin tətbiqi ölkə iqtisadiyyatının modernləşməsinə və keyfiyyətcə yeni yüksək mərhələdə möhkəmlənməsinə zəmin yaratmışdır.

Hörmətli həmkarlar, təkrarçılığa və vaxt itkisinə yol verməmək üçün müzakirəyə təqdim olunan 2025-ci ilin dövlət büdcəsinin bütün parametrlərini burada sadalamadan bəzi məqamları diqqətinizə çatdırmaq istərdim. 2025-ci il dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun hazırlanmışdır. Müstəqillik dövrünün ən iri büdcəsidir, reallığı əks etdirir. Əsas makroiqtisadi göstəricilər üzrə artım tempi müşahidə olunur. Dövlət büdcəsinin ildən-ilə böyüməsi dövlətçiliyimizin daha da möhkəmlənməsini, hər bir vətəndaşımızın sosial vəziyyətinin yaxşılaşmasını şərtləndirir. Xüsusilə büdcədə müdafiə və təhlükəsizlik sahəsinə ayrılmış vəsaitin artırılması beynəlxalq mürəkkəb şəraitlə bağlıdır və son dərəcə zəruri hal kimi qimətləndirilir.

Müharibədən sonra işğal altında olmuş torpaqların minalardan təmizlənməsi, bərpası, dövriyyəyə qaytarılması istiqamətində cənab Prezidentin rəhbərliyi altında sistemli iş aparılır. Hər il çoxmilyardlı maliyyə tutumu tələb edən infrastruktur layihələri icra olunur, istehsal

müəssisələri, sənaye parkları yaradılır.

Millət vəkillərinin vəzifələrinin bir istiqaməti də təmsil olunduqları bölgələrin sosial-iqtisadi problemlərinin, seçicilərin qaldırdıqları məsələlərin aidiyyəti dövlət strukturlarına çatdırılmasıdır. Başa düşürəm ki, büdcənin həddindən artıq yüklənməsi yolverilməzdir. Dövlətin qarşısında daha aktual, həlli vacib məsələlər durur. Bununla yanaşı, hökumət üzvlərinin burada olmasından istifadə edərək seçildiyim Balakən rayonunun bəzi problemlərini səsləndirməyi özümə borc bilirəm.

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nda Balakən rayonu üzrə həyata keçirilməsi nəzərdə tutulan bəzi tədbirlər icra olunmamışdır. Konkret olaraq 4 məktəbin – Meşəşambul, Tülü, Şambulbinə və Poçtbinə məktəblərinin tikintisinə başlanmamışdır.

2. Səhiyyə və mədəniyyət müəssisələrinin, tarixi memarlıq abidələrinin bərpası və konservasiyası, idman kompleksi əsaslı təmir olunmamışdır.

3. Rayon mərkəzindən 20 kilometr aralıda yerləşən Qabaqçöl xəstəxanası 2012-ci ildə baş vermiş zəlzələdən sonra istismara tam yararsız vəziyyətə düşmüşdür, 50 çarpayılıq qəsəbə xəstəxanasının tikintisinə çox böyük ehtiyac var. Bu məsələ seçicilər tərəfindən dəfələrcə israrla bildirilir. Mən də bunu komitə iclaslarında dəfələrcə qaldırmışam.

4. Əkinə yararlı torpaqların eroziyaya məruz qalmasının qarşısının alınması üçün dağ çayları sistemində Katexçayda, Balakən çayında və Mazımçayda beton bəndlərin qurulmasına ehtiyac vardır.

5. İçməli su təchizatının yaxşılaşdırılması üçün Şambul,

Püştətala, Sarıbulaq, Şərif, Gərəkli kəndlərində subartezian quyularının qazılmasına ehtiyac vardır.

6. Zaqatala Dövlət Qoruğuna və Katexçay şəlaləsinə turizm marşrutlarının açılması.

Hörmətli Sahibə xanım, düşünürəm ki, burada yerli dağətəyi rayonlar üçün xüsusi spesifik əhəmiyyət kəsb edən qoruqlardan və biosferdən istifadə haqqında qanunun qəbul olunmasına çox böyük ehtiyac var. Bunun sosial problemlərin həlli üçün, iş-məşğulluq səviyyəsinin artırılmasında çox böyük əhəmiyyəti ola bilər.

Sonda elektrik şəbəkəsinin və transformatorların yenilənməsinə ehtiyac var.

Yekunda dövlət büdcəsinin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edirəm. Hökumətə yeni büdcə ilində uğurlar arzulayıram. Arzu edirəm ki, yeni büdcə profisitlə icra olunsun. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən sonra xahiş edərəm, Nəsib müəllimin mikrofonunu yoxlasınlar.

Arzuxan Əli-zadə. Buyurun, Arzuxan müəllim.

**Arzuxan Əli-zadə**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri və hörmətli media mənsubları. Bu gün müzakirə edilən büdcə layihəsi sessiyanın müzakirəsinə çıxarılmazdan əvvəl komitələrdə geniş müzakirə olunubdur. Mən fürsətdən istifadə edərək İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində büdcə müzakirələrinə siyasi partiya nümayəndələrinin iştirakını təşviq etdiyinizə görə, hörmətli xanım sədr, Sizə təşəkkürümü bildirirəm.

2025-ci ilin büdcə layihəsində, demək olar ki, bütün sahələr üzrə xərclərin artırılması nəzərdə tutulubdur. Təbii ki, bu, təqdirolunandır. Eyni zamanda, fərqindəyik ki, mü-

dafiə, milli təhlükəsizlik məsələlərinə, eləcə də işğaldan azad olunmuş ərazilərin bərpa və quruculuq işlərinə ayrılan vəsait təqdirəlayiqdir. Nəzərə almalıyıq ki, mövcud reallıqlar çərçivəsində növbəti illərdə bu xərclər bir qədər də artırıla bilər. Ermənistan sürətlə silahlandırılır. Həmçinin Böyük Qayıdışı təmin etmək üçün biz bu istiqamətdə xərclərimizi artırmalı olacağıq. Buna görə də hökumət üzvləri gələcəkdə büdcə gəlirlərinin artırılması istiqamətində fəaliyyəti gücləndirməlidirlər. Yenə də mövcud reallıqlar nəzərə alınmaqla, xüsusilə qeyri-neft sektorunun inkişafına diqqət yetirilməlidir. Mən hesab edirəm ki, Azərbaycandan kənarda olan iş adamlarımızın ölkə iqtisadiyyatına sərmayə qoyması təşviq edilməlidir, bunun üçün layihələr işlənib hazırlanmalıdır. Biz mütləq mənada büdcə gəlirlərimizi artırmalıyıq.

Qeyd etdiyim kimi, digər sahələr üzrə də artımlar var. Çıxışım, ola bilər, 5 dəqiqəlik reqlamentə sığmasın. Ona görə bir qədər irəli gedərək qeyd etmək istəyirəm ki, büdcə layihəsinin lehinə səs verəcəyəm. Amma bir sıra irad və təkliflərimi də diqqətinizə çatdırmaq istəyirəm. 2025-ci ilin dövlət büdcəsində sosial müdafiə və pensiya təminatı sahəsində əvvəlki illərlə müqayisədə artım müşahidə olunur. Amma hesab edirəm ki, hökumətin pensiya təminatı məsələsinə yenidən baxması zəruridir. Statistik məlumatlara diqqət yetirsək, təəssüflə bildirmək istəyirəm ki, Azərbaycanda insanlarımızın ömür, yaş həddi elə də yüksək deyil. Mən indi pessimizm notunda çıxış etmək, statistik məlumatları qeyd etmək istəmirəm. Amma ümumilikdə, statistikaya nəzər salsaq, görərik ki, hər ötən il pensiyaçılarımızın sayı azalmaqdadr. Təklif edirəm ki, şəxs pensiyaya çıxandan sonra öz istəyinə

uyğun şəkildə fərdi sahibkar qismində və ya hər hansı bir sahəyə investisiya qoymaqla öz əmək qabiliyyətini ifadə etmək istəyirsə, həmin şəxsə onun pensiya fondunda yığılmış vəsaitinin müəyyən bir hissəsinin birdəfəlik ödənilməsi təşviq edilsin. Beynəlxalq təcrübədə bir sıra ölkələrdə bu sistem uğurla tətbiq olunmaqdadır. Həmçinin hesab edirəm ki, şəxs dünyasını dəyişərsə, onun pensiya fondunda yığılmış vəsaitinin vərəsəlik əsasında ailə üzvlərinə verilməsi də qanunvericilikdə öz əksini tapmalıdır. Belə yanaşma ədalətli olmaqla və vətəndaşın dövlət təminatına inamını artırmaqla yanaşı, həm də əmək qabiliyyətli insanların mütləq mənada əmək müqaviləsi əsasında işləməsini stimullaşdırar. Bu da büdcəyə əmək haqqından tutulan müvafiq ayırmalarda əlavə artıma səbəb olar.

Hazırda sirr deyil ki, əmək müqaviləsi olmadan işləyənlərin, eləcə də reallıqda olduğundan aşağı əməkhaqqı alanların, bir çox hallarda əlavə ayırmalar olmasın deyə, minimum əməkhaqqı məbləği göstərilməklə işləyənlərin sayı kifayət qədər çoxdur.

Pensiya məsələsi ilə bağlı daha vacib bir məqamı da diqqətinizə çatdırmaq istəyirəm. Hesab edirəm ki, bir sıra sahələr üzrə mütəxəssislərin pensiyaya çıxmasında könüllülük prinsipi tətbiq olunmalıdır. Xüsusilə 65 yaş müəllim və həkimlərin mütləq şəkildə pensiyaya çıxmasını şərtləndirməməlidir. 65 yaşına çatmış müəllim və həkimin mövcud təcrübəsindən yararlanmaq əvəzinə onları imperativ qaydada təqaüdə göndərmək nə dərəcədə faydalı və ədalətlidir? Daha doğru olmazmı ki, müəllimlərə və həkimlərə ən azından 70 yaşa qədər öz istəkləri əsasında işləmək imkanı verək? Onsuz da, bu kateqoriyadan olan şəxslər 70 yaşına qədər hər il müəssisə rəhbəri ilə birillik

müqavilə bağlamaqla işdə qala bilirlər. Amma bu amil özü də bəzən bir sıra neqativ hallara səbəb olur.

Tibbi sığorta ilə bağlı da fikirlərim var. Amma...

**Sədrlik edən.** Çox sağ olun, Arzuxan müəllim. Xahiş edirəm, təkliflərinizi mütləq yazılı surətdə katibliyə verin. Çox sağ olun.

Aydın Hüseynov.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, millət vəkilləri, media nümayəndələri. Məlumdur ki, ölkəmiz Prezident İlham Əliyevin müəllifi olduğu mükəmməl iqtisadi inkişaf modeli əsasında inamla addımlayır. Siyasi, iqtisadi, sosial sahələrdə önəmli nailiyyətlərə imza atılır. Eyni zamanda, cənab Prezidentin praqmatik siyasətinin əsasında milli iqtisadiyyatın davamlı inkişafı, maliyyə dayanıqlılığı, ölkə vətəndaşlarının rifahının və layiqli həyat şəraitinin yaxşılaşması dayanır. İnamla deyə bilərik ki, 2025-ci il ölkəmiz üçün nikbin və möhkəm təminatlı uğurlu illər sırasında olacaq. Bu uğurlarımızı səciyyələndirən ən başlıca amillərdən biri də indi müzakirə etdiyimiz dövlət büdcəsi layihəsidir. Qeyd edək ki, təqdim olunan layihə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədindən irəli gələn çağırışları, həmçinin qlobal iqtisadiyyatda gedən prosesləri və milli maraqlarımız fonunda aşağıda qeyd olunan prioritet istiqamətləri özündə əks etdirir. Belə ki, 2025-ci ilin dövlət büdcəsinin xərclərinin əsas hədəfləri müdafiə və təhlükəsizlik, azad edilmiş ərazilərdə böyük quruculuq, həssas və aztəminatlı ailələrin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat, sahibkarlığın inkişafının dəstəklənməsi və digər sahələrdə islahatların davamını təmin edən proqram və tədbirlərin maliyyələşməsindən ibarətdir.

2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38,3 milyard manat, xərcləri isə 41,3 milyard manat proqnozlaşdırılıb ki, bu da müvafiq olaraq, 5,3 faiz və ya 4,1 faiz çoxdur.

Dövlət büdcəsinin xərclərinin sosial yönümlü təmin edilməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hökumət qarşısında qoyduğu ən mühüm tapşırıqlardan biridir. Sosial yönümlü xərclər 16,9 milyard manat təşkil edir və müqayisədə 8,8 faiz artımla proqnozlaşdırılıb. Həmçinin ölkəmizin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatı, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi diqqət mərkəzində olan sahələr sırasındadır. Milli təhlükəsizliyimizin tərkib hissəsi olan ərzaq təhlükəsizliyi üçün 527 milyon manat, o cümlədən ərzaqlıq buğda idxalından asılılığın azaldılması üçün 43 milyon manat nəzərdə tutulmuşdur ki, bu da qeyd etdiyimiz kimi, vətəndaşlarımızın rifah halının yüksəldilməsi və iqtisadiyyatımızın digər sahələrinin inkişafının təmin edilməsi ilə bir uzlaşma təşkil edir. Bununla yanaşı, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun artırılması hesabına davamlı və yüksək iqtisadi artımın təmin olunması üçün sahibkarlara müxtəlif iqtisadi sahələrdə əsaslı maliyyə təminatının yaradılması da büdcə siyasətində başlıca yer tutur.

Mən, bütövlükdə, büdcə layihəsini təqdir edirəm, səs verəcəyəm. Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədovun da təqdimatda qeyd etdiyi kimi, büdcə layihəsi qanunvericiliyə uyğun tərtib olunub. Eyni zamanda, ortamüddətli xərclər çərçivəsi və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri prinsiplərini də özündə ehtiva edir.

Hörmətli xanım sədr, Sizin tövsiyənizə əsasən biz Milli

Məclisə təqdim etdiyimiz qrafiklər əsasında yerlərdə görüşlər keçiririk. Bu görüşlərdə də vətəndaşlar artıq büdcə layihəsi ilə mətbuatdan, eləcə də Maliyyə Nazirliyinin saytı vasitəsi ilə tanış olublar. Mən hesab edirəm ki, bizim parlamentdə büdcə layihəsini yüksək tərzdə ifadə etməyimiz, dəstəkləməyimiz elə insanların, vətəndaşların fikrinin bir ifadəsidir. Vətəndaşlar büdcəmizin hərbi xərclərinin, müdafiə xərclərinin, sərhədlərimizin qorunması xərclərinin artırılmasını çox yüksək dəyərləndirirlər. Necə ki, Ermənistan öz konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını götürməyib, işğalçılıq siyasətindən əl çəkməyib, biz də hərbi büdcəmizi, müdafiə qüdrətimizi, sərhədlərimizin qorunmasını daha da artırmalıyıq. Bu, vətəndaşların birmənalı istəyidir.

Eyni zamanda, Qaradağ rayonunun bir çox mövcud problemləri var. Mən bu problemlərlə bağlı komitə iclaslarında fikirlərimi səsləndirmişəm. Digər problemlərlə də əlaqədar olaraq səhiyyə, təhsil, xüsusilə nəqliyyat və su-kanalizasiya sistemlərinin yenilənməsi ilə bağlı fikirlərimi yazılı şəkildə təqdim edəcəyəm. Bir daha büdcəmizi təqdir edirəm, ona səs verirəm. Xeyirli, uğurlu olsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aydın müəllim, sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri, hamınızı salamlayıram. Düşünürəm ki, büdcə sənədi Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi dövlət prioritetləri baxımından ardıcıllıqla düzgün tərtib olunubdur, maliyyə balansı diqqətlə nəzərə alınıbdır, dövlətimiz üçün, Azərbaycan Prezidentinin siyasəti üçün lazımi prioritet istiqamətlər

düzgün müəyyənləşdirilibdir. Hər şeydən öncə bu sənədin hazırlanmasında, ortaya çıxmasında kollektiv bir əmək var və əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm.

Sadəcə, büdcənin dil üslubu ilə bağlı müəyyən fikirlərimi səsləndirmək istəyirəm. Büdcə sənədi, heç şübhəsiz ki, akademik sənəd deyil. Onun iqtisadi terminlərlə bu qədər yüklənməsinə ehtiyac yoxdur, çünki açıq mənbələrdə hər bir vətəndaşın əlinin çatdığı bir sənəddir. Ona görə də dil nə qədər sadə olarsa, Azərbaycan vətəndaşı da, məsələn, Maliyyə Nazirliyinin internet səhifəsində büdcə ilə tanış olan zaman dövlətimizin onun rifahı üçün nə qədər böyük işlər gördüyünü daha yaxşı anlaya bilər. Bu mənada mən düşünürəm ki, növbəti belə sənədlərin tərtibatında bu məsələ nəzərə alına bilər.

Hörmətli hökumət üzvləri, hörmətli xanım sədr, Azərbaycan Prezidenti bu mötəbər kürsüdən çıxış edən zaman təhlükəsizliyimizin iki komponentinə diqqət çəkdi. Əlbəttə, bunlardan biri fiziki, hərbi, siyasi təhlükəsizlikdir. Mən düşünürəm ki, bu, büdcədə əksini tapıbdır. 8,3 milyard manat müdafiə və təhlükəsizlik məsələləri üçün ayrılıbdır. Amma milli təhlükəsizliyimizin ikinci komponenti var ki, düşünürəm, büdcə sənədində buna daha çox diqqət ayrılmalıdır. Bu, nədən ibarətdir? Prezident dedi ki, Azərbaycanda ideoloji təhlükəsizlik təhdid olunur, həmçinin ölkəmizdə ictimai rəy üzərində hakim olmaq istəyən mərkəzlər var. Mən baxıram ki, bu sahədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət təşkilatları və təhsil sistemimizin müəyyən institutları üçün ayrılan məbləğ cəmi 364,2 milyon manatdır. Bura mədəniyyət, incəsənət, informasiya, film, gənclər siyasəti, televiziya, ictimai təşkilatlar, siyasi partiyalar və digərləri

daxildir. Əgər torpaq işğal olunarsa, əlbəttə, biz onu qısa müddətdə işğaldan azad edə bilərik. Amma ictimai rəy Azərbaycan xalqının ümumi kütləvi şüurudur. Əgər burada zəifliyə yol verəriksə, ictimai şüur işğal olunarsa, biz onu necə azad edəcəyik? Ən qorxulu məqam budur. Məsələn, mən adlarını çəkməyəcəyəm. Qonşu ölkələrdə məhz vaxtında bu cür tədbirlər görülmədiyi üçün onların ictimai rəyi, kollektiv şüuru işğala məruz qalıbdır. Məsələn, seçkilər keçirirlər, lakin nəticəsi qəbul olunmur, müxtəlif ölkələrin siyasətinin vassalına çevrilirlər və hökumət heç bir tədbir görə bilmir. Ona görə mən düşünürəm ki, bu istiqamətdə mühüm işlər görülməlidir və buna ciddi maliyyə ayrılmalıdır.

Şübhəsiz ki, mən bu sözləri deyən zaman, ilk növbədə, təhsil və təhsillə bağlı institutlar yada düşür. Amma bir şeyi nəzərə almaq lazımdır: təhsil iqtisadiyyat deyil ki, bu gün sərmayə qoyasan, sabah nəticə götürəsən. Azərbaycanda təhsil islahatları ardıcıllıqla, prinsipiallıqla həyata keçirilir. Mən bunu yüksək qiymətləndirirəm. Düşünürəm ki, artıq nəticə əldə etmək mərhələsinə qədəm qoymuşuq. Bu, özlüyündə çox yaxşıdır. Amma məsələnin hamısıdırmı? Hamısı deyil.

İdeoloji təhlükəsizliyimizin iki komponenti var. Bunlardan biri siyasi ideoloji təhlükəsizlikdir, digəri isə dini ideoloji təhlükəsizlik məsələləridir ki, mən burada konkret təkliflərlə çıxış etmək istəyirəm. Məsələn, azərbaycanlı ümumi kütləvi şüuru, milli, etnik şüuru vahiddir. Baxmayaraq ki, azərbaycanlılar dünyanın müxtəlif ölkələrində yaşayırlar. Ona görə də ümumi identikliyi qorumaq üçün ölkəmizdən kənarda yaşayan azərbaycanlılar da dövlət hesabına Azərbaycanda təhsilə, xüsusən də dini təhsilə

cəlb olunmalıdırlar ki, ictimai şüurumuzu, milli şüurumuzu təyin edən əsas komponentlərdən biri olan dini şüurumuz düzgün əsaslarda formalaşsın. Bu, məsələnin bir tərəfidir.

İkincisi. Milli şüuru və milli təhlükəsizliyi təmin edən vətəndaş cəmiyyəti institutlarının həm maliyyələşməsi lazımdır, həm də xüsusi maliyyə əsasında bu cür daha səmərəli yeni institutlar yaranmalıdır ki, biz təhlükəsizliyimizi tam nəzərdən keçirə bilək və onun təmin olunmasına əmin olaq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, hörmətli media mənsubları. Biz bu gün müstəqillik dövrü tariximizin ən böyük, rekord həcmli bir dövlət büdcəsini müzakirə edirik. Bizim dövlət gəlirlərimiz büdcədə 38,3 milyard manatdır. İl ərzində xərclərimiz 40,1 milyard vəsait olacaq. Bu yerdə ölkə Prezidenti cənab İlham Əliyevin bir fikrinə istinad etmək istəyirəm: "Azərbaycan sosial dövlətdir və dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı və təhlükəsizliyi dayanır". Hesab edirəm ki, hər iki komponent bu büdcə zərfində tam nəzərə alınıb. Belə ki, sosial rifah məsələlərində büdcəmizin 41 faizi öz əksini tapıb. Bu o deməkdir ki, bayaq söylədiyim 40,1 milyard manatlıq büdcə xərclərimizdən 17 milyard manat məhz sosial xərclər üçün nəzərdə tutulub. Bu da cari illə müqayisədə 8,8 faiz, yaxud da 1,4 milyard manat çox deməkdir. Yəni biz 2025-ci ildə əhalimizin sosial rifahı, pensiyalar, müavinətlər, əməkhaqları və digər sahələrdə daha yaxşı, ciddi nəticələr gözləyirik.

Təhlükəsizlik məsələləri. Bizim büdcəmizin 20,3 faizi,

yəni 8,4 milyard manat məhz bu sahə üçün – müdafiə, təhlükəsizlik sahəsi üçün ayrılıb ki, bu da başadüşüləndir. Məhz bu zalda sentyabrın 23-də ölkə Prezidenti İlham Əliyev qeyd etdi ki, növbəti mərhələdə qarşımızda duran əsas məsələ məhz bizim hərbi gücümüzün, hərbi potensialımızın daha da artırılmasıdır. Hesab edirəm, istisna deyil ki, 2025-ci ilin ortalarında büdcəyə baxmaq məsələsi bir daha gündəmə gəlsə, hərbi büdcəmizin daha da artırılması məsələsi yerinə düşərdi. Bunu indidən söyləmək mümkündür.

Nəhayət, işğaldan azad olunmuş torpaqlarımızın bərpası məsələsi bu gün prioritet sahədir. 2021-ci ildən 2024-cü ilin sonuna qədər bu məqsəd üçün 19 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. 2025-ci ildə bu məqsəd üçün 4 milyard manat ayrılıb. Bu da büdcə xərclərimizin 9,7 faizi deməkdir. Yəni bütün bunlar çox vacib sahələrdir və bizim büdcəmizdə əksini tapması müsbət haldır.

Mən hökumət üzvlərinin burada olmasını nəzərə alaraq təmsil etdiyim Cəlilabad rayonu 72 saylı seçki dairəsi ilə bağlı kənd sakinlərinin problemlərini qabartmaq istəyirəm. Biz ayda minimum iki dəfə seçicilərimizlə görüşürük. Elə son görüşümdə də “Azərişıq”ın fəaliyyətindən razılıq etdilər. Seçki dairəmizdə 16 kənd tam kabelləşdirilib. Mən ancaq 72 saylı seçki dairəsi ilə bağlı söyləyirəm. 2025-ci ildə 21 kəndin kabelləşməsi nəzərdə tutulub, artıq plana salınıb. Bu, müsbət haldır.

Eyni zamanda, təbii qazla təminat çox ciddi məsələdir. Təəssüf ki, “Azərişıq”la bağlı, dediyim eyni fikri “Azəriqaz”la bağlı hələ ki, söyləyə bilmirəm. İranla sərhəd kəndlərdə, demək olar ki, qaz yoxdur. Baxmayaraq ki,

ölkəmizdə qazlaşmanın səviyyəsi 96 faizi ötüb, 97 faizə yaxındır, yüksək nəticədir. Bu, cənab Prezidentin əhalinin sosial rifahı ilə bağlı atdığı addımların nəticəsində baş verib. Amma Cəlilabadda, konkret rəqəmlərlə desəm, 118 kənddən 63-də, yəni 5423 evdə indiyə kimi mavi qaz yoxdur. Seçicilərimiz də görüşlərdə bu məsələləri həmişə qabardırlar.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramı həyata keçirildi, uğurlu nəticələri oldu. Arzu edərdik ki, sərhədboyu kəndlərimizin sosial-iqtisadi inkişafı ilə bağlı da analoji dövlət proqramı olsun, yaxud da pilot layihələr həyata keçirilsin. Xüsusilə də İranla sərhəd kəndlərimizin qazlaşdırılması, orada həllini gözləyən digər sosial problemlər, avtomobil yolları və sair məsələlər öz həllini tapsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Arzu Nağıyev. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli hökumət nümayəndələri, media nümayəndələri. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin layihəsi qlobal iqtisadi meyillər və ölkəmizin qarşısında duran strateji çağırışlar nəzərə alınmaqla hazırlanmışdır. Həmkarlarımız da qeyd etdi. Möhtərəm Prezident cənab İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında ölkə qarşısında duran bəzi vəzifələr haqqında danışarkən bildirdi ki, bir nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatları arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə və müharibə ocaqlarının yaradılması, ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz

olmasa, hər hansı müstəvidə – nə iqtisadi, nə də siyasi müstəvidə uğur qazanmaq çətin olar.

Bu gün ən önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır. Uzunluğu 500 kilometr olan sərhəd mürəkkəb relyefli ərazilərdən keçir. Sərhəd xəttini möhkəmləndirmək üçün müasir istehkam qurğularının qurulmasına və yenilənməsinə ehtiyac var. Əsasən, yüksəkliklərdə hərbi xidmət keçmək üçün yeni komandoların, hərbi birləşmələrin yaradılması zəruridir. Xüsusi xidmət və hüquq mühafizə orqanlarının ən müasir texnika və texnologiyalarla təmin edilməsi prosesi davam etdirilməlidir.

Hörmətli iclas iştirakçıları, qeyd edilənlərə əsasən bildirmək istəyirəm ki, 2025-ci ilin əsas xərcləri arasında ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması qanun layihəsində ən mühüm istiqamətlərdən biri kimi nəzərdə tutulub.

Həmkarlar dəfələrcə qeyd etdi. Qanun layihəsində müdafiə və milli təhlükəsizliyə ayrılan vəsaitin 8,4 milyard manata çatdırılması nəzərdə tutulur. Bu da 2024-cü illə müqayisədə 1,3 milyard manat çoxdur. Cənab nazir də qeyd etmişdi, bu xərclərin maliyyələşdirilməsi Azərbaycan Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin 1 milyard 700 milyon manat artırılması hesabına təmin ediləcək.

Bir neçə statistik rəqəmi qeyd etmək istərdim. Burada bizim həmkarları da narahat edən xərclərlə bağlı rəqəmləri söyləyirəm. Müdafiə qüvvələri 2 milyard 665 milyondan çox, milli təhlükəsizlik 467 milyondan çox, sərhəd xidməti 540 milyondan çox, o cümlədən müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar 5 milyon 359 min, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən

digər fəaliyyətlər 4 milyard 717 milyondan çoxdur. Burada hər bir ölkənin milli və dövlət təhlükəsizliyinə olan təhdidlər nəzərdə tutulur ki, bu istiqamət bizim həmkarları da narahat edir.

Müdafiə və xüsusi xidmət, hüquq mühafizə orqanlarında şəxsi heyətin tam komplektləşdirilməsi, həmin orqanların maddi-texniki təminatının yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərdə müdafiə, hüquq mühafizə orqanlarının müvafiq xidmətlərinin təşkili ilə bağlı məsələlər də layihədə nəzərdə tutulmuş və bu istiqamətlərə kifayət qədər vəsait ayrılmışdır.

Hörmətli xanım sədr, tapşırığınız əsasında qanun layihəsi Milli Məclisin bütün komitələrində birgə iclaslarda aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə geniş müzakirə olunub. Həmkarlarımız tərəfindən hüquq mühafizə orqanlarında, o cümlədən polis orqanlarında və digərlərində məvaciblərin artırılması, Ombudsman aparatı ilə bağlı, digər irəli sürülən təkliflər də cavablandırılıb və layihə yekdilliklə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Eyni zamanda, təmsil etdiyim Tovuz və Gədəbəy rayonlarının 200 kilometrə yaxın Ermənistanla həmsərhəd olmasını qeyd etmək istərdim. Tovuz 69 kilometr, Gədəbəy 123 kilometr – bunlar həmsərhəddir. Burada həmkarlarımızın təhsil, səhiyyə, qaz, işıq, suvarma sistemləri, içməli su, yol, körpü və sairlə bağlı qaldırdığı məsələlər bizə də xas olan problemlərdir. Onların həlli üçün müvafiq strukturlara da məlumatlar göndəriləcəkdir.

Qeyd etmək istəyirəm ki, layihə ən yüksək səviyyədə peşəkarcasına hazırlanmışdır. Zəhməti keçən hər kəsə təşəkkürümü bildirirəm. Dəstəkləməyinizi və səs vermə-

yinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Səbinə Xasayeva. Buyurun.

**Səbinə Xasayeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hökumət üzvləri və media nümayəndələri. Başa çatmaqda olan 2024-cü il ölkəmizin tarixində mühüm hadisələrlə yadda qaldı. Bunlardan biri də, sözsüz ki, COP29 kimi irimiqyaslı tədbirə ölkəmiz tərəfindən uğurla ev sahibliyi edilməsi oldu.

Qeyd etmək lazımdır ki, əvvəlki illərdə olduğu kimi, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi də ölkəmizdə həyata keçirilən davamlı islahatların müsbət nəticəsi olaraq hər bir sahədə hərtərəfli inkişafı göstərir. Eyni zamanda, növbəti il üçün qarşımızda dayanan əsas məqsəd və vəzifələrimizi aydın əks etdirir. Artan iqtisadi gücümüzün göstəricisi olaraq dövlət büdcəsinin həm gəlirlərinin, həm də xərclərinin ildən-ilə çoxalması xüsusi təqdirəlayiq haldır. Bu, qarşıya qoyduğumuz milli prioritetlərimizə daha sürətlə çatmağa fürsət verir.

2025-ci ilin dövlət büdcəsinin gəlirləri 2024-cü illə müqayisədə 5,3 faiz, 2023-cü ilin göstəriciləri ilə müqayisədə isə 8,7 faiz çoxdur. Növbəti il üçün dövlət büdcəsinin xərcləri 2024-cü illə müqayisədə 4,1 faiz çox proqnozlaşdırılır. Ölkəmizdə həyata keçirilən islahatlar və qeyri-neft sektoruna yönəldilən investisiyalar iqtisadiyyatımızın dayanıqlılığının daha da güclənməsinə səbəb olur. Diqqətəlayiq haldır ki, 2025-ci il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 51 faizi qeyri-neft-qaz sektorunun payına düşür.

Büdcə sənədinə əsasən deyə bilərik ki, işğaldan azad

olunmuş ərazilərin bərpası və yenidən qurulması, ölkənin müdafiə potensialının, əhalinin sosial müdafiəsinin və sosial təminatının daha da gücləndirilməsi 2025-ci ilin dövlət büdcəsində nəzərdə tutulan əsas istiqamətlərdəndir.

Qarşıdan gələn ildə də işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetinə əsaslanaraq “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun şəkildə həyata keçiriləcək və yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa kömək edəcək. Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla davam etdirilməsi, ölkəmizin bütün regionlarının balanslaşdırılmış inkişafının təmin olunması 2025-ci ilin dövlət büdcəsi layihəsində öz həllini  tapmaqdadır.

Diqqətəlayiq haldır ki, 2025-ci ilin dövlət büdcəsində təhsil xərcləri də artırılmışdır. Belə ki, təhsil xərcləri 2024-cü illə müqayisədə 8,7 faiz, 2023-cü illə müqayisədə isə 19,9 faiz çoxdur. Bununla yanaşı, 2025-ci ilin dövlət büdcəsi xərclərində xüsusən Bakı şəhərində və onun ətraf qəsəbələrində əhali sıxlığını nəzərə alaraq yeni məktəb binalarının və uşaq bağçalarının, eyni zamanda, mövcud məktəblərdə və uşaq bağçalarında əlavə tədris korpuslarının tikintisi üçün ayrılan maliyyə vəsaitinin daha da artırılmasına ehtiyac olduğunu hesab edirəm. Çünki xüsusən Bakıətrafı qəsəbələrdə günbəgün artan əhali sıxlığı qarşısında mövcud məktəblər ehtiyacı ödəyə bilmir və bu da təhsilin keyfiyyətinə mənfi təsir göstərir. İnanıram ki, qarşıdakı illərdə bu məsələnin həlli ilə bağlı mühüm işlər görüləcəkdir.

Bu gün mövcud olan və əhalini narahat edən əsas problemlərdən biri də Bakıətrafı qəsəbələrdə olan nəqliyyat

problemidir. Doğrudur, bu qəsəbələri şəhər mərkəzi və digər ərazilərlə birləşdirən müxtəlif istiqamətli marşrut xətləri var. Lakin əsas məsələ Bakıətrafı istiqamətlərdə fəaliyyət göstərən marşrut xətlərində istifadə edilən avtobusların sayının azlığı, vaxt intervallarının çox olması, eyni zamanda, bir sıra hallarda avtobusların müasir standartlara cavab verməməsidir. Bu vəziyyət xüsusilə günün pik saatlarında sakinlərin avtobusların xidmətindən istifadə edə bilməsini bir sıra hallarda mümkünsüz edir.

Bütün bunları nəzərə alaraq 2025-ci ilin dövlət büdcəsində mövcud problemin aradan qaldırılması üçün lazımi vəsaitin nəzərdə tutulmasını seçicilər adından xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, fasilə. Saat 3-də işimizə davam edəcəyik. Sağ olun.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz işimizə davam edirik. Azər Kərimli. Buyurun.

**Azər Kərimli.** Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, dəyərli həmkarlar. 2025-ci il dövlət büdcəsi layihəsi ölkəmizin iqtisadi inkişafını davamlı və dayanıqlı etmək üçün dövlətimizin strateji məqsədlərinə uyğun hazırlanmış və milli maraqların qorunmasını əsas tutmuşdur. Bu layihənin qlobal iqtisadi qeyri-müəyyənliklər və regional çağırışlar fonunda hazırlanmasına baxmayaraq, Azərbaycanın iqtisadi dayanıqlılığı, o cümlədən enerji sektorunda mövqelərimizin güclənməsi, qeyri-neft sektorunun artımı və sosial rifahın yaxşılaşdırılması bu büdcənin əsas prioritetləridir.

ÜDM-in sabit artım tempini qorumaq və inflyasiyanın idarə edilməsi bu il də əsas hədəf kimi saxlanılıb.

2025-ci il dövlət büdcəsi ümumi gəlirlərin artmasını nəzərdə tutur. Gəlirlərin əsas hissəsi enerji sektorundan əldə olunacaq. Lakin qeyri-neft sektorundan gəlirlərdəki müsbət dinamika da diqqətəlayiqdir. Bu, möhtərəm cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan hökumətinin iqtisadiyyatın diversifikasiyası üzrə atdığı addımların nəticəsidir.

Xərclər baxımından dövlət investisiyaları 2025-ci ildə də prioritet sahələrə yönəldiləcək. Bunlar artıq həmkarlarımın da qeyd etdiyi kimi, təhsil və elm, səhiyyə, ordu və təhlükəsizlik, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri, infrastruktur və sosial siyasətdir. Büdcə layihəsində sosial rifahın qorunması əsas prioritet olaraq qalır.

Hörmətli həmkarlar, fürsətdən istifadə edərək təmsil etdiyim bölgənin ən vacib problemi ilə bağlı bəzi fikirlərimi demək istərdim. Zaqatala və Balakən rayonları Azərbaycanın Şimal-Qərbində yerləşən dağlıq ərazi olaraq sel və daşqın hadisələrinə meyilli bölgələrdir. Bu təbii fəlakətlər, əsasən, intensiv yağıntılar və dağ çaylarının daşması nəticəsində baş verir. Katexçay, Talaçay və digər dağ çayları sürətli axınları və yüksək su sərfi ilə tanınır. Bu çaylar yağıntılar zamanı tez daşaraq ətraf ərazilərə ziyan vurur. Kənd təsərrüfatı sahələri, yollar, körpülər və yaşayış evləri sel və daşqınlar nəticəsində zərər görür. Bu, iqtisadi itkilərə və əhalinin həyat şəraitinin pisləşməsinə səbəb olur.

Çox sadə bir misal çəkmək istərdim. Zaqatalanın Yolayrıc kəndi rayonu keyfiyyətli tərəvəz və bostan məhsulları ilə təchiz edən bir kənd olmuşdur. Son 2 il ardıcıl olaraq sel suları nəticəsində əhali artıq əkin sahələrinin miq-

darını iki dəfədən də çox azaltmışdır. Qeyd etmək istərdim ki, bu problem yalnız təmsil etdiyim rayonlara deyil, bütün Şimal-Qərb bölgəsində olan rayonlara da aiddir.

Hökumətimiz tərəfindən daşqınların və fəsadların qarşısının alınması üçün müxtəlif tədbirlər görülür. Çay sahillərində bəndlərin tikilməsi, su axınları hövzələrinin tənzimlənməsi və selə qarşı dayanıqlı infrastrukturun qurulması istiqamətində işlər aparılır. Amma təəssüflər olsun ki, görülən bütün tədbirlər hələ ki, sel və daşqınların törətdiyi fəsadların qarşısını tam ala bilmir. Bu baxımdan hökumətimizdən xahiş etmək istərdim ki, imkan daxilində çay yataqlarının təmizlənməsi, bəndlərin tikilməsi kimi qabaqlayıcı tədbirləri daha sürətlə həyata keçirsin, 2025-ci ilin və gələn illərin dövlət büdcəsində bu tədbirlərə imkan daxilində yetərincə vəsait ayrılsın. Qeyd etmək istərdim ki, çay hövzələrinin təmizlənməsi üçün dövlət qurumları yerli icmaları və bələdiyyələri də bu işlərə cəlb edə bilər.

Zaqatala rayonunun vacib problemlərindən biri də qazlaşma ilə bağlıdır. Bəzi həmkarlarım öz bölgələri ilə bağlı bu problemi qaldırdılar. Zaqatalada 62 yaşayış məntəqəsindən 1 şəhər, 1 qəsəbə və 30 kənd olmaqla cəmi 32-si, yəni 52 faizi qazlaşdırılmışdır. Hökumətimizdən xahiş edərdim ki, Zaqatala rayonunun qazlaşma səviyyəsinin, heç olmasa, ölkəmizin regionları üzrə qazlaşmanın orta səviyyəsinə yaxın olmasına nail olmaq üçün səylərini əsirgəməsin.

Hörmətli sədr, əminəm ki, müzakirə etdiyimiz büdcə layihəsi ilə biz iqtisadiyyatımızı daha da gücləndirə, vətəndaşlarımızın sosial rifahını yüksəldə və beynəlxalq arenada mövqelərimizi daha da möhkəmləndirə biləcəyik. Büdcə layihəsini dəstəkləyirəm və hökumətimizə qarşıdan

gələn ildə də uğurlar arzu edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Səyyad müəllim, sualınız var, deyəsən. Buyurun.

**Səyyad Salahlı.** Hörmətli xanım sədr, təsadüfən əlim düyməyə dəydi. Mən 39-cu idim. İndi 49-cu adam çıxış etdi. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Səyyad müəllim, nəzərə alarıq, narahat olmayın. Ancaq bizim günahımız yoxdur. Özünüz deyirsiniz. Sadəcə, günahı boynunuza götürün. İndi çıxış etməyə hazırsınız? Mən indi Səməd müəllimə söz verim, Siz də hazırlaşın, zəhmət olmasa.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, xahiş edirəm, bir-birimizə diqqətlə qulaq asaq. Dünən çıxış edənlər bu gün çıxış edənlərə qulaq assınlar.

Səməd Seyidov. Buyurun.

**Səməd Seyidov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli nazirlər, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Biz tarixi inkişafımızın elə bir mərhələsini yaşayırıq ki, bir neçə vacib problemi eyni zamanda həll etməliyik. Bunların içərisində əhalinin sosial müdafiəsi, ölkəmizin müdafiə potensialının genişləndirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafı, dünya səviyyəli konfransların keçirilməsi, Azərbaycan əleyhinə aparılan çirkli və böhtan xarakterli kampaniyaya qarşı fəaliyyətimiz. Bunların hamısı öz-özlüyündə çox çətin, mürəkkəb problemlərdir. Ancaq bütün bunların bir yerdə həll olunması və həyata keçirilməsi yalnız güclü iqtisadiyyata və böyük inkişaf potensialına malik dövlətə xas ola bilər. 2025-ci ilin büdcəsi məhz bu xüsusiyyətləri özündə ehtiva edir. Ümumiyyətlə, büdcənin fəlsəfəsi Azərbay-

canın dünyada rolunu, onun geosiyasi çəkisini, təsir imkanlarını və beynəlxalq səviyyədə nüfuzunu artıran bir sənəd kimi qiymətləndirilməlidir.

Mən, sadəcə, beynəlxalq münasibətlərlə əlaqədar ayrılan 754 milyon vəsaitlə bağlı müzakirə aparmaq istəmirəm. Çünki büdcə bütünlüklə Azərbaycanı yüksəldir. Ona görə bu nöqteyi-nəzərdən, xahiş edirəm, bu məsələni nəzərə alaq.

Bu gün Azərbaycan Respublikası Prezidentinin uğurla aparılan siyasəti öz müsbət nəticələrini verir. Əziz dostlar, xarici siyasət həmişə daxili siyasətin məntiqi davamıdır, daxili siyasət də çox uğurla, çox yüksək səviyyədə həyata keçirilir. Mən Qazax rayonunun təmsilçisi, millət vəkili kimi deməliyəm ki, bu gün Qazax çox gözəl, abad bir şəhərdir və bütün müasir standartlara cavab verir. Rayonumuzda elə bir kənd yoxdur ki, orada abadlıq işləri aparılmasın. Hörmətli həmkarlar, biz bu gün fəxr edirik ki, rayonumuzun 4 kəndi işğaldan azad olunub. Bu gün Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli, Qızılhacılı artıq vətəndədir. Buna görə hər bir qazaxlı adından mən cənab Prezidentə öz təşəkkürümü bildirirəm. Bilirəm ki, hökumət artıq bu istiqamətdə işlər görür və bu kəndlər də yüksək səviyyədə bərpa olunacaq.

Əziz dostlar, bu gün Qazax təşəbbüslər məkanıdır. Mən mütləq burada qeyd etməliyəm, bu gün Qazaxda ADA Universiteti ən yüksək səviyyədə öz filialını açıb. Bu gün dünyanın bütün aparıcı ali məktəblərindən professorlar, alimlər Qazaxdadırlar. ADA Universiteti ilə bərabər, muzeylər bərpa olunur, rəsm qalereyaları açılır. Bu, öz-özlüyündə gözəl bir təşəbbüsdür.

Bu gün Qazaxda biznes mühiti də özünü göstərmək-

dədir. Misal üçün, burada Arkoz Qazax Sement Zavodu fəaliyyət göstərir. Mən bir neçə müddət öncə həmin zavod tərəfindən şəhid ailəsinə tikilmiş evin bağışlanması mərasimində iştirak etmişəm. Bir ev deyil, bir neçə evlər tikilir və bağışlanılır. Bu, nümunəvi bir hadisədir və buna görə mən bu yüksək kürsüdən o insanlara öz təşəkkürümü bildirmək istəyirəm.

Təbii, Qazaxda problemlər var, yəni problemsiz mümkün deyil. Misal üçün, Qazax şəhərinin bəzi küçələri asfaltsızdır. Bununla bağlı biz hökumətə müraciət etmişik. Hörmətli Samir müəllim də bu məsələ ilə bağlı işlər görüb, yəni agahdır, dəstək verib. İqtisadiyyat Nazirliyi bununla bağlı öz müsbət rəyini bildirib. Sadəcə, maliyyə ili yekunlaşdığına görə vəsait ayrılmadı. Mən xahiş edirəm, yeni ildə büdcədə bu məsələlər də nəzərdə tutulsun ki, gözəl işlərin yanında bu xırda məsələlər də öz həllini tapsın.

Biz bu gün yüksələn büdcəni müzakirə edirik. Bu gün elə bir işlər haqqında söhbət aparırıq ki, bizə yeni imkanlar, yeni üfüqlər açılır. Ona görə fürsətdən istifadə edərək hökumətdən bu məsələləri də həll etməyi xahiş edirəm.

Əziz dostlar, biz bu büdcəyə qürurla səs verəcəyik. Bu, inkişaf büdcəsidir, qalibiyyət büdcəsidir və hamımız buna dəstək verməliyik. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

Mən Səyyad müəllimə söz verdim. Bəhruz müəllim, Siz bir az gözləyin, zəhmət olmasa. Səyyad müəllim, buyurun.

**Səyyad Salahlı.** Çox, çox təşəkkür edirəm. Bəli, günah mənim idi. Əlim dəydi, toxundum.

Hörmətli xanım spiker, hakimiyyətin strukturları ara-

sında xalqa ən yaxın olan parlamentdir. Çünki xalq parlamentə onun dərdini-sərini, kəm-kəsirini, çatışmazlıqlarını ifadə etmək üçün seçdiyi deputatları göndərir, burada eşitdiyi sözlərlə, eyni zamanda, hörmətli nazirlərimizin bu məsələlərə reaksiyası ilə bağlı nəticələri gözləyir. Bu mənada, doğrudan da, parlamentin əvəzi yoxdur və o, xalqın etimad etdiyi əsas hökumət strukturlarından biridir.

Bayaq İmişlinin digər deputatı kanalizasiya ilə bağlı danışdı. Mən başqa şey soruşmaq istəyirəm. 2011-ci ildə 194S saylı sərəncamla İmişli şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçivəsində birinci mərhələ üzrə su qəbuledici qurğular, magistral su xətti və şəhərdaxili su şəbəkəsi quruldu. Amma 2014-cü ildə hansı isə məlum səbəblərdən bu iş qaldı. Bəs buna sərf olunan pullar? Hara getdi? Niyə bu iş davam etmir? Nəticədə nə oldu? Çöküntü, qar, yağış, külək, gətirilən texniki avadanlıqların paslanması, korroziyaya uğraması və sair. Deməli, o mallar yenidən alınmalıdır, yenidən dövlətin büdcəsindən bu prosesləri həyata keçirmək üçün pullar xərclənməlidir. Belə təsərrüfatsızlıq olar? Bunu hansı idarə edir?

Rayonun Mədəniyyət şöbəsi 37 ildir ki, təmir olunmur. Burada çox fədakar bir kollektiv çalışır. Mən bu kollektiv haqqında mədəniyyət nazirinə məktub da yazmışam. Bu kollektivin üzvlərindən biri 35 il, biri 30 il, biri 25 il, biri də 15 ildir, orada çalışır. Onlardan heç kim bir dəfə də təltif olunmayıb. Fədakarcasına çalışırlar. Bu insanlar niyə diqqətdən kənarda qalmalıdırlar? Mədəniyyət sahəsi də eyni vəziyyətdədir.

Mən tibb barədə də danışmışdım. Düzdür, müəyyən irəliləyişlər, tərəqqi, inkişaf var. Amma ümumi 410 min

nəfər əhalisi olan üç rayonda bir nəfər də lor həkim yoxdur. Saatlıda bir nəfər lor həkim var, lakin o, Belarusda oxuyub, orada öz ixtisası üzrə çalışıb deyə, öz vətənində, heç olmasa, bu üç rayona xidmət etmək üçün hansı isə prosesdən keçə bilmir. Xahiş edirəm, səhiyyə naziri və TƏBİB bu məsələ ilə maraqlansınlar, həmin rayonlara lor həkimin təsdiq olunması üçün əməli bir iş görsünlər.

Dünən "Qafqaz.info"da bir məlumat oxudum. Xahiş edirəm, həm səhiyyə naziri, həm də TƏBİB-in rəhbəri bu məsələyə diqqət etsinlər. Məqalənin adını oxuyuram: "Qaynı arvadının ölümünə səbəb olan plastik cərrahdan növbəti şikayət". Məlum olur ki, guya "AzE Estetik Mərkəz" MMC-nin direktoru Ülviyyə İlyasova kimi əməliyyat etsə, yaxşıdır? Qaynı arvadını. Vəziyyət dəhşətli dərəcədə faciəyə doğru gedir. Onun əkiz bir oğlu, bir qızı qalıb. Öz qaynı arvadını bu cür ölümcül vəziyyətə düçar edir. Yəni bu, xəstə sayı mənasında ikinci dəfədir ki, baş verir. Özü də burada yazılıb ki, onun tibbi təhsili yoxdur. O, necə cərrahi əməliyyat aparır? Buna icazə verilibmi? Kim icazə verib?

Bayaq digər deputat yoldaşlarım da bildirdi. Qazla bağlı ciddi narahatlıq var. İmişlinin təxminən 7-8 kəndi, Saatlının da 6 kəndi qazlaşmayıb. Qurtarın, bunları həll edin. Bu rayonların qarşısında da yağlı bir müsbət işarəsi yazın ki, bitdi. Saatlı, İmişli qazlaşdırıldı. Niyə yarımçıq saxlayırsınız? Niyə qonşu kəndi qazlaşdırırsınız, onun yaxınlığındakı bu biri kəndi qazlaşdırmırsınız? Nəticədə camaat narazı qalır.

Camaatın narazılığından danışdım. Vaxtım da, deyəsən, azalır. Hörmətli xanım sədr, bir sıra məsələlərdə sanki qəsdən camaatı narazı qoyurlar. Bu 80 manat məsələsi çox

ayıb bir rəqəmdir. Bizim qəhrəman oğlanlarımıza – qazilərimizə bu nə müavinətdir verilir? Hamı bundan narazılıq edir. Qazilər üstümüzə gəlir.

**Sədrlik edən.** Səyyad müəllim, mən üzr istəyirəm, vaxtınız bitdi. Xahiş edirəm, yazılı surətdə verin, stenoqrama daxil ediləcək. Lazım olan məktubları da yazın. Hökumət üzvləri buradadırlar.

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Səyyad müəllim, bununla bağlı artıq komitə sədri hörmətli Əhliman müəllim bir neçə dəfə danışıb. Biz düşünürük ki, bunun da həlli tapılacaq.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, hörmətli hökumət üzvləri. Son 4 ildə çoxsaylı ədalətsiz, qərəzli, amma real hücumlar fonunda Azərbaycan mürəkkəb tarixi bir dövr adlasa da, möhtərəm Prezidentin rəhbərliyi altında qazanılan hərbi-siyasi qələbələrlə ölkəmiz, sözün əsl mənasında, inamlı təkamül yolu keçərək sabit, təhlükəsiz, müasir həyat səviyyəsini təmin etmiş müstəqil iqtisadi və siyasi güc mərkəzi kimi özünü təsdiq edə bilmişdir. Məhz bu prizmadan 2025-ci ilin dövlət büdcəsi layihəsini mübaliğəsiz şəkildə mahiyyət, keyfiyyət və kəmiyyətcə tam yeni tarixi mərhələnin başlanğıcı hesab etmək olar.

Yaranan yeni konfiqurasiya, Azərbaycanın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması cəmiyyətdə dövlətçilik ənənələrinin güclənməsinə və müasir sosial-iqtisadi infrastruktur quruculuğunun yeni mərhələsinə gətirib çıxarmışdır. Söhbət elə bir mərhələdən gedir ki, dövlətçilik tariximizin heç bir dövründə milli mənafelərimizin

tam təmin olunduğu bu cür əlverişli status-kvoya nail ola bilməmişik.

Bilirsiniz, cəmi iki gün əvvəl COP29-un sədri kimi Azərbaycan iqlim dəyişiklikləri ilə mübarizə tarixinin ən yaxşı nəticəsini ortaya qoydu. İntensivləşən tarix, təzyiq və qarayaxma cəhdləri fonunda Azərbaycanın sədrliyində əldə olunan bu uğur, həm də imperialist dairələrə, eyni zamanda, onların Azərbaycanda ruporuna çevrilmiş antimilli marionetlərə verilə biləcək ən yaxşı cavab idi. Çünki bu ünsürlər COP-a fürsət kimi baxaraq 1990-cı illərdə iqtidar arzusu ilə xəyanətlərə necə əl atmışdılarsa, bu gün də eyni ruhda milli maraqları qurban verməyə hazır olduqlarını göstərdilər. Amma cənab İlham Əliyev də göstərdi ki, dövlətimiz hər kəslə layiq olduğu formada danışmağa qadirdir. Bu mənada COP29 həm də milli qələbəmizdir və bu qələbənin memarı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımızı çatdırıram.

Həmçinin COP29-un Təşkilat komitəsinə, o cümlədən təhlükəsizlik tədbirlərinin təmininə, prosesin təhlükəsiz, ictimai asayişin qorunması şəraitində təşkilinə görə aidiyyəti strukturlara, xüsusən Daxili İşlər Nazirliyinin kollektivinə təşəkkür edirəm. Azərbaycan polisi bir daha sübut etdi ki, hər zaman istənilən tapşırığın öhdəsindən peşəkar və keyfiyyətli şəkildə gəlməyə qadirdir.

Hörmətli iclas iştirakçıları, hökumət üzvlərinin müzakirələrdə iştirakını nəzərə alaraq, icazənizlə, təmsil etdiyim Biləsuvar rayonu üzrə seçiciləri narahat edən bəzi məsələləri diqqətinizə çatdırmaq istəyirəm. Bu gün Biləsuvarın suvarma və içməli su məsələləri hələ də əsas problem olaraq qalır. Bundan başqa, kəndlərdə internet, telefon,

elektrik və yol infrastrukturunun yenilənməsinə ehtiyacımız var. Həmçinin Biləsuvar şəhər 6 saylı, Nərimankənd, Təzəkənd, Yuxarı Ağalı kənd, Çaylı və Günəşli məktəblərinin yenidən tikilməsinə, Dərvişli, Yuxarı Cürəli, Ovçubərə, Ağayrı, Amankənd, Səmədabad, Zəhmətabad kənd tam orta və Nərimankənd kənd ümumi orta məktəblərinin binasının, habelə rayon Mədəniyyət Mərkəzinin, Tarix Diyarşünaslıq Muzeyinin, musiqi məktəbinin, eləcə də 9 kənddə tibb məntəqələrinin təmirinə zəruri ehtiyac var. Bundan başqa, Aşağı Cürəli, Nərimankənd, Yuxarı Ağalı kənd, Günəşli, Çaylı, Bağbanlar, Nəsimi kənd, Çinarlı sakinləri uşaq bağçalarının, Günəşli kəndində isə tibb məntəqəsinin yaradılması haqqında bizə müraciətlər ediblər.

Hörmətli iclas iştirakçıları, seçki dairəmizdəki məsələlərlə yanaşı, parlamentdə vəkilləri təmsil edən deputat olaraq hökumətin diqqətini başqa bir məsələyə də cəlb etmək istəyirəm. Bu gün dövlət hesabına göstərilən hüquqi yardıma görə ödənilən məbləğin azı iki dəfə artırılmasına ehtiyac var. Prinsipcə məsələ ilə bağlı razılıq var idi. Amma proses nədənsə ləngiyir. Məsələnin həlli Azərbaycanda vəkillik institutunun güclənməsi istiqamətində ciddi töhfə ola bilər. Açıq demək lazımdır ki, bu məsələ ilə bağlı çox da ciddi maliyyə vəsaiti lazım deyil.

Bundan başqa, məhkəmə aparatlarında, xüsusən birinci instansiyalarda çalışanların əməkhaqqı məsələsinə ciddi formada baxılmalıdır. Çünki cari maaşa savadlı, keyfiyyətli hüquqşünas üçün artıq məhkəmədə hakim köməkçisi, məhkəmə iclas katibi, yaxud məsləhətçi vəzifələrində işləmək sərfəli deyil. Bu isə xüsusən rayon məhkəmələrində ciddi kadr çatışmazlığına gətirib çıxarır.

Təbii ki, bu sadaladıqlarım bədbin qənaət yaratmamalıdır, əksinə, bu kimi məsələlərin gündəmə gəlməsi inkişafın hərəkətverici qüvvəsidir. Üstəlik, problemlər qarşısında ümidsiz də deyilik. Möhtərəm Prezidentin rəhbərliyi altında iqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə verməkdə olduğu üçün bütün problemlərin həlli istiqamətində güclü potensialımız var.

Cari büdcə layihəsini də məhz bu çərçivədə uğurlu hesab edə bilərik. Çünki layihəni təhlil edərkən bu ilin fevralında andiçmə mərasimində möhtərəm cənab Prezidentin yeni dövr üzrə müəyyən etdiyi prioritetlərimizin sənəddə tam əhatələndiyini görürük. Bu mənada layihəni dəstəkləyirəm, xalqımız, dövlətimiz üçün xeyirli olsun.

**Sədrlik edən.** Sağ olun. Samir Vəliyev. Buyurun.

**Samir Vəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli hökumət üzvləri. Milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin edilməsi baxımından makroiqtisadi siyasətin fundamental və ən mürəkkəb komponentlərindən olan büdcə siyasətinin parametrlərinin təhlili bu gün bizə deməyə imkan verir ki, ölkəmizdə həyata keçirilən büdcə prosesi iqtisadiyyatımızın birinci növbədə rəqabət qabiliyyətliliyinin artmasına, eləcə də dünya iqtisadiyyatında bu gün baş verən hadisələrə qarşı büdcə mexanizmləri vasitəsi ilə müvafiq adaptik və reaktiv mexanizmlərin tətbiq edilməsinə imkan yaradır. Təbii olaraq bu kontekstdə dünya iqtisadiyyatında bu gün formalaşmaqda olan yeni çağırışlar, ilk növbədə, ölkəmizin əsas makroiqtisadi göstəricilərində, o cümlədən büdcə prosesində də öz əksini tapmalıdır. Eyni zamanda, ölkədə həyata keçirilən büdcə siyasəti milli iqtisadiyyatımızın

qarşısında duran əsas hədəflərə, həmçinin ölkə əhalisinin geniş kateqoriyasını əhatə edən insanların sosial rifahının yüksəlməsinə istiqamətlənməlidir. Bu baxımdan hesab edirəm ki, bu gün müzakirəyə təqdim edilən 2025-ci ilin dövlət büdcəsi layihəsi göstərilən hədəflərə nail olmaq, eyni zamanda, xarici iqtisadi təsirlərə qarşı dayanıqlı mexanizm qurulması üçün müvafiq baza yaratmaqdadır.

Təqdim edilən 2025-ci ilin dövlət büdcəsi layihəsində daxilolmalar və xərclər seqmentlərinə nəzər saldıqda cari illə müqayisədə mövcud artımlar müşahidə olunur. Bu da, zənnimcə, büdcə imkanlarımızın artmasını göstərməklə yanaşı, dünya təcrübəsində mütərəqqi milli iqtisadiyyatlara malik olmaq və malik olan dövlətlərdə müşahidə olunan trendlərə tam şəkildə uyğundur. Bununla yanaşı, büdcə resurslarının artması dünya iqtisadiyyatında baş verən ciddi transformasiyalara, həmçinin struktur böhranının dərinləşməsinə, nəqliyyat, logistik dəhlizlərinin, eləcə də istehsal zəncirlərinin deformasiyalarına və nəhayət, dünyada baş verən yeni münaqişələr ocağının yaratdığı iqtisadi problemlərə ölkə iqtisadiyyatımızın reaktivliyinin əsas göstəricisi kimi çıxış edir.

Büdcə layihəsinin sistemli təhlili bir sıra məqamlar üzərində xüsusi fokuslanmağı məqsədəuyğun edir. Layihəyə əsasən 2025-ci ilin dövlət büdcəsində büdcə kəsirinin 3 milyard manatdan bir qədər artıq olacağı nəzərdə tutulur. Hesab edirəm ki, bu, aktual, elmi cəhətdən əsaslandırılmış və beynəlxalq miqyasda öz təsdiqini tapmış yanaşmadır. Belə ki, büdcə kəsirinin ümumi daxili məhsula nisbəti baxımından proqnozlaşdırılan kəsir göstəricisi təhlükəli parametrlərdən xeyli uzaqdır. Eyni zamanda, milli iqtisadiyyatın müvafiq investisiya impulsunun artırıl-

ması baxımından bu istiqamətdə artım dəhlizi də mövcuddur.

Təqdim olunan sənəddə büdcə daxilolmaları üzrə ənənəvi üç əsas istiqamət, yəni Dövlət Neft Fondundan transferlər, vergi və gömrük xətləri üzrə yığımlarla bağlı əks olunan rəqəmlər o qənaətə gəlməyə imkan verir ki, ümumilikdə, büdcə daxilolmaları ilə bağlı gözləntilər milli iqtisadiyyatımızın strukturuna tam şəkildə adekvatdır.

Qeyd etmək istərdim ki, təqdim olunan layihədə insan kapitalı ilə bağlı xərclərin artması səmərəli büdcə siyasətinin əsas təzahürüdür. Belə ki, sosial, elm, təhsil, səhiyyə blokları üzrə artımlar əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədinə xidmət edir, ölkənin daxili bazarında alıcılıq qabiliyyətinin qorunmasına, eləcə də əmək bazarında kompetensiyaların artmasına, aktiv məşğulluq siyasətinin həyata keçirilməsinə şərait yaradır.

Büdcə layihəsində iqtisadi fəaliyyət xərclərinin uzadılması da xüsusi önəm kəsb edir. Bütövlükdə, hesab edirəm ki, təqdim olunan 2025-ci ilin dövlət büdcəsi layihəsi iqtisadi artıma, iqtisadi vəziyyətə tam adekvatdır, milli iqtisadiyyatımızın dayanıqlı inkişafına xidmət edir və onun müvafiq parametrləri ilə bağlı baş verən hər hansı trendlərə tam uyğundur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Samir müəllim.

Novruzəli Aslanov. Buyurun.

**Novruzəli Aslanov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli hökumət üzvləri. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə həyata keçirilən inkişaf strategiyası ölkəmizdə sabitliyi tam olaraq təmin etmiş və maliyyə dayanıqlılığını daha da möhkəmləndirmişdir. Müzakirəyə

başladığımız dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan digər sənədlərə nəzər saldıqda dövlət büdcəsinin həm gəlirlərinin, həm də xərclərinin ilbəil artmasının şahidi oluruq. Bu göstəricilərin artımı dövlətimizin iqtisadi potensialından xəbər verir. Xüsusilə büdcə layihəsində nəzərdə tutulmuş 5 milli prioritetin icrası diqqətdə saxlanılıbdır. Büdcə layihəsi müasir dövrün çağırışları nəzərə alınmaqla tərtib edilib. Sosial müdafiə və sosial təminat yönümlü sahələrə diqqət daha da artırılıbdır. Eyni zamanda, təhsil, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış dövlət proqramının icrası, müdafiə potensialının gücləndirilməsi və digər məqsədlərin icrası üçün maliyyə təminatı yaradılmışdır.

Təhsil sahəsinin maliyyə təminatında keçmiş məcburi köçkünlərin, ölkənin suverenliyi uğrunda şəhid olmuş şəxslərin tələbə övladlarının, müharibə veteranı adı almış və digər güzəştli kateqoriyaya aid olan şəxslərin təhsilinə dəstək üçün xərclərin davamlılığı da dövlət büdcəsində nəzərdə tutulub.

Bunlarla yanaşı, səhiyyə sahəsində xərclərin artırılması da təqdirəlayiq hal kimi qeyd edilməlidir.

Büdcənin müzakirəsində bank xidmətləri barədə də danışmaq yerinə düşərdi. Çünki pul-məzənnə siyasəti, makroiqtisadi və maliyyə sabitliyi, nağd pul dövriyyəsinin təşkili Azərbaycan Respublikası Mərkəzi Bankının üzərinə düşən vəzifədir. Ölkənin maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sistemi daha da təkmilləşdirilmişdir və bu sahədə Azərbaycan Respublikası Mərkəzi Bankının rolunu xüsusi vurğulamaq olar.

Xüsusilə pul tədavülünün təşkilində, ödəniş sistemləri-

nin tənzimlənməsində və inkişafında, valyuta ehtiyatlarının saxlanılmasında və digər idarə formasında Mərkəzi Bank uğurlu siyasət yürüdür. Mən hər il büdcə müzakirəsində Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondunun vəsaitlərinin artırılması təşəbbüsü ilə çıxış edirəm. Bu il də fondun vəsaitlərinin artırılması təklifini edirəm. Fondun vəsaiti hesabına ölkədə sosial-iqtisadi sahələrdə vacib əhəmiyyət kəsb edən tədbirlər həyata keçirilir. Xüsusilə fövqəladə hallar baş verdiyi zaman, fəlakətlər və böhranların nəticələrinin aradan qaldırılması istiqamətində çevikliyin təmin edilməsi üçün bu, çox vacib şərtlərdəndir. Eyni zamanda, ölkədaxili və zərurət yarandığı halda, ölkəxarici mühüm fəaliyyətlərin idarə edilməsində operativliyi təmin edir. Bu da respublikanın maliyyə xərclərinin yükünün tənzimlənməsinə öz töhfəsini verir.

Ölkənin yaşıl enerji məkanına çevrilməsi təbii və coğrafi imkanlardan irəli gələn zərurətdir. Qarşıdakı dövr ərzində daha səmərəli enerji mənbələrindən istifadə edilməsi, alternativ enerji mənbəyinə üstünlük verilməsi ekoloji baxımdan çox vacibdir. Azərbaycan bu sahəyə diqqətin artırılması üçün dünya ictimaiyyətinə kifayət qədər çağırışlar edib. COP29 tədbirinin Bakıda keçirilməsi də bunun əyani sübutudur. Hesab edirəm ki, büdcə layihəsində bu məsələ də diqqət mərkəzində olacaq.

Təmsil etdiyim İsmayıllı rayonunun müvafiq problemləri mütəmadi olaraq dövlət strukturları ilə müzakirə olunur və qəbul edilmiş qərarlar imkan daxilində dövlət büdcəsinə əlavə olunur. Mən bu əməkdaşlığa görə İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Təhsil və Səhiyyə nazirliklərinə, Su Ehtiyatları Dövlət Agentliyinə və

Turizm Agentliyinə öz təşəkkürümü bildirirəm.

Sonda əmin olduğumu vurğulamaq istəyirəm ki, 2025-ci il ölkəmiz üçün daha düşərli il olacaq. Azərbaycan vətəndaşlarının rifahı daha da yüksələcək, ölkə iqtisadiyyatının dinamik inkişafı və suverenliyimizin qorunması tam olaraq təmin ediləcəkdir. Mən bu büdcə layihəsini dəstəkləyirəm və növbəti il büdcənin icrası istiqamətində müvafiq hökumət qurumlarına uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov.** Hörmətli xanım sədr, hörmətli hökumət nümayəndələri və hörmətli həmkarlar. Mən də 2025-ci il dövlət büdcəsinin layihəsi ilə yaxından tanış olmuşam və üzvü olduğum komitənin iclasında bir sıra təkliflərimi səsləndirmişəm. Demək istəyirəm ki, bütün parametrlər üzrə kifayət qədər mükəmməl və müasir dövrün çağırışlarına adekvat cavab verən bir sənəd hazırlanıbdır.

Eyni zamanda, vətəndaş cəmiyyəti institutlarını, qeyri-hökumət təşkilatı sektorunu təmsil edən bir şəxs olaraq Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə ayrılan vəsaitin məbləğinin bir qədər artırılması təklifini irəli sürmək istəyirəm. Komitə iclasında bunu qeyd etdik. 8,5 faiz artım var. Digər maddələrdə də olduğu kimi, müxtəlif faiz nisbətləri var. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yeganə milli donor qismində çıxış edir və il ərzində 500-dən çox layihənin maliyyələşdirilməsinə nail olur. Düzdür, bizdə digər mərkəzi icra hakimiyyəti orqanları var ki, onların büdcəsində QHT-lərin dəstəklənməsi ilə bağlı müəyyən müddəalar var. Amma onların da fəaliyyət spektrləri çox spesifik olur. Uzaqbaşı

15-20-30 layihə ola bilər. Amma yeganə milli donor qismində məhz Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi çıxış edir. Qarşıdan gələn 2025-ci ildə xüsusilə bizim qeyri-hökumət təşkilatları bir sıra platformalarda çox səmərəli şəkildə təmsil olunacaqlar. Çünki istər COP29 formatında, istərsə də digər fəaliyyət istiqamətlərində qeyri-hökumət təşkilatlarımız kifayət qədər böyük platformaların yaradılmasına nail oldular. Düşünürəm ki, istər üçlüyün, istər Xəzər dənizi hövzəsinə daxil olan ölkələrin, istərsə də Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq spektrləri kifayət qədər strateji sahələr hesab edilir və bura daha çox vəsaitin cəlb olunmasına çox ciddi ehtiyac var.

Burada hökumət nümayəndələrinin iştirak etməsindən istifadə edərək mən də bir sıra vacib məsələləri onların diqqətinə çatdırmaq istəyirəm. Təmsil etdiyim 29 saylı Sabunçu 4 saylı seçki dairəsinin seçiciləri ilə tez-tez görüşürəm. Bu seçki dairəsi Nardaran, Kürdəxanı, Pirşağı, Zabrat qəsəbələrini əhatə edir. Orada aidiyyəti üzrə bir sıra məsələlər var ki, görüşlər zamanı seçicilər tərəfindən dilə gətirilir. Mən həmin məsələlər barədə bəzi fikirləri çox qısaca olaraq sizin diqqətinizə çatdırmaq istəyirəm. Nardaran qəsəbəsində Nardaran Sağlamlıq Mərkəzi deyilən çox vacib bir müəssisə fəaliyyət göstərir. Amma bu müəssisədə ultrasəs müayinə aparatının olmamasından, həkimlərlə bağlı bir sıra vakant yerlərin boş qalmasından Nardaran qəsəbəsinin sakinləri, həqiqətən, çox əziyyət çəkirlər. Onlar dönə-dönə xahiş etdilər ki, aidiyyəti üzrə həmin vakant yerlərə həkimlərin təyin olunması məsələsində köməklik edilsin.

Digər vacib məsələ. Nardaran qəsəbəsində 130 saylı

məktəb fəaliyyət göstərir. Onun qonşuluğunda 337 saylı bağça var. Amma bu bağçadan məktəbə keçidi təmin edən məktəbəqədər müəssisənin olmaması ucbatından valideynlər müəyyən əziyyətlər çəkirlər. Hətta bəziləri öz uşaqlarını qonşu qəsəbələrdə fəaliyyət göstərən müəssisələrə aparırlar. Ona görə də çox xahiş etdilər ki, təhsil naziri bu məsələni diqqət mərkəzində saxlasın.

Digər müraciətim bilavasitə Zabrat qəsəbəsi ilə bağlıdır. Burada bir neçə həmkarımız məktəb binalarının çox yaxşı vəziyyətdə olması ilə bağlı bəzi fikirlər söylədi. Bu qəsəbədə 192 saylı məktəb var. Amma orada çox sıxlıq yaşanır. Valideynlər mənə müraciət etdilər ki, əlavə bir korpusun tikilməsinə ehtiyac var. Çünki bu, müəyyən mənada tədris prosesinə, həqiqətən, təsir edən bir haldır.

Eyni zamanda, Zabrat qəsəbəsində yaşayan sakinlər bizimlə görüşlərdə idman meydançalarının və parkın olmamasından vaxtaşırı gileylənirlər. Həqiqətən, Zabrat-1 və Zabrat-2 ərazilərinə baxış keçirdikdə biz görürük ki, orada park yoxdur. İstər Nardaranda, istərsə də Zabratda gənclərin, uşaqların asudə vaxtlarının təşkil olunması ilə bağlı bu vacib işlərin həyata keçirilməsinə çox ciddi ehtiyac var. Düşünürəm ki, aidiyyəti strukturlar bu məsələni diqqət mərkəzində saxlayacaqlar.

Sonda mən bir daha büdcə layihəsinin kifayət qədər mükəmməl olduğunu bildirirəm, ona səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram. Belə vacib bir sənədin hazırlanmasında əziyyəti keçən bütün şəxslərə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov**. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri və həmkarlar. Biz bu gün müstəqillik tariximizin

ən böyük büdcə layihəsini müzakirə edirik. Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozlaşdırılan transfer çıxılmaqla dövlət büdcəsinin gəlirləri son 5 ildə 2 dəfəyə qədər artaraq 2020-ci ildəki 12,5 milyard manatdan 23,8 milyard manata çatıb. Eyni zamanda, qeyri-neft sektorundan daxilolmaların ümumi dövlət büdcəsi gəlirlərindəki payı 2020-ci ildəki 43,3 faizdən 2025-ci ildə 51 faizə qədər yüksəlib, 19,5 milyard manata çatıb. Bu uğurlar ölkədə iqtisadi dayanıqlılığı artırır və uzunmüddətli dövr üçün iqtisadi artımı təmin edir. Bütün bunlar təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Mən vaxta qənaət edərək burada büdcə haqqında səslənən bütün müsbət fikirlərlə həmrəy olduğumu bildirir və seçicilərin tələb etdiyi məsələləri nəzərinizə çatdırmaq istəyirəm. Aparılan islahatlar nəticəsində rayonların gəlirləri son illərdə xeyli artmışdır. Hazırda 5 rayon istisna olmaqla 62 şəhər və rayonumuzun gəlirləri xərclərini üstələyir. Bu rayonlar artıq dotasiyadan asılı deyillər. Bir çox şəhər və rayonlarımızın, o cümlədən təmsil etdiyim Lerik rayonunun iqtisadi potensialı bu göstəricilərdən çox yüksəkdir. Bu potensialı üzə çıxarmaq, ölkənin uzunmüddətli dövr üçün iqtisadi artımını təmin etmək məqsədi ilə infrastruktur layihələrinin həyata keçirilməsinə ehtiyac var.

Lerik rayonu ucqar dağ rayonudur. Relyefi, təbiəti və gözəl mənzərəsi ilə böyük turizm potensialına malikdir. 2005-ci ildə 56 kilometrlik Lənkəran–Lerik, 2012-ci ildə Lerik–Qosmalian–Kəlvəz, 2018-ci ildə isə Piran–Hamarat–Vıjaker avtomobil yollarının inşa edilməsi, eyni zamanda, 2018-ci ildə Lənkəran–Lerik avtomobil yolunun yenidən qurulması bu yollar boyu turizm mərkəzlərinin yaradılmasına təkan vermiş, nəticədə turizm mərkəzləri və

digər iqtisadi subyektlər hesabına Lerik rayonu dotasiya ilə yaşayan rayonlar sırasından çıxmışdır. Eyni zamanda, bu turizm mərkəzləri rayonda işsiz əhalinin işlə təmin olunmasında da mühüm rol oynamışdır.

Lerik rayonunda turizm potensialına görə heç də Lənkəran–Lerik yolu boyu ərazilərdən geri qalmayan bir çox ərazilər də vardır ki, orada asfalt örtüklü avtomobil yollarının olmaması o yerlərin böyük turizm potensialından istifadəsinə imkan vermir. Bu ərazilər sırasında Əliabad–Gürdəsər–Kirəvud–Nücü–Vamazğon, Piran–Veri Əliabadı–Veri, 40-cı kilometr–Əliabad, Piran–Bürsülüm–Bobla, Lerik–Mastail–Livədirqə–Laman avtomobil yollarının tikintisi adıçəkilən ərazilərdə turizmin inkişafına böyük təkan verəcək. Bu da öz növbəsində həm büdcə gəlirlərinin artmasına, həm də həmin ərazilərdə yaşayan 30 min nəfərə yaxın əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına töhfə olacaq. Qeyd edim ki, adıçəkilən bu yolların layihə-smeta sənədləri bir neçə il bundan əvvəl hazırlanmışdır.

Bu yollardan Əliabad–Gürdəsər–Kirəvud–Nücü–Vamazğon avtomobil yolunun 2019-cu ildə tikintisi nəzərdə tutulsa da, inşası indiyədək həyata keçirilməmişdir. Bu yol Lerik rayonunu Masallı rayonu ilə birləşdirir və onun inşası 20-dən çox kənddə iqtisadi həyatı canlandıracaq.

Dövlət büdcəsinin infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcək xərclərində Lerik rayonunun yol infrastrukturunun yaxşılaşdırılması üçün də vəsaitin nəzərdə tutulmasını və bu məsələnin diqqətdə saxlanılmasını xahiş edirəm.

Eyni zamanda, bir məsələni də qeyd etmək istəyirəm. 2013–2017-ci illərdə Lerik rayonunda 30 min əhalinin

yaşadığı 50 yaşayış məntəqəsini birləşdirən 36 kilometrlik Noda–Şingədulan–Xanəgah avtomobil yolu inşa edilmişdir. Lakin bu yolun çəkilişi hələ tam başa çatdırılmadan avtomobil yolunda asfalt qatı sıradan çıxmış, yol dağılmışdır. Baxış keçirən mütəxəssislərin verdiyi rəyə görə, yolun inşası zamanı tikinti norma və qaydalarına əməl edilməmişdir. Podratçı təşkilat "Yol Tikinti Nəqliyyat Servis" MMC tərəfindən tikintisi həyata keçirilən yolda yaranan qüsurların aradan qaldırılması üçün təşkilata tapşırıqlar verilmiş, onun qısa müddət ərzində tikinti norma və qaydalarına uyğun tikilib istifadəyə verilməsi tapşırılmışdır. Lakin heç bir bərpa işləri həyata keçirilməmiş, yol keçilməz halda qalmışdır. Üzərindən 10 ildən çox vaxt keçməsinə baxmayaraq, bu yol indiyədək təhvil alınmamış, podratçı şirkət isə çıxıb getmişdir. Lerik əhalisinin təkidli...

**Sədrlik edən.** Vasif müəllim, sağ olun. Xahiş edirəm, deyə bilmədiyinizi yazılı surətdə verin. Sevinc Hüseynova. Buyurun.

**Sevinc Hüseynova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hökumət üzvləri, həmkarlar və mətbuat nümayəndələri. Mən də həmkarlarımın fikirlərinə qatılaraq ölkəmizi uğur tarixinin yeni bir səhifəsi və Azərbaycan müstəqillik tarixində ən böyük miqyaslı, qlobal tədbir olan COP29-a uğurla ev sahibliyi etdiyinə görə cənab Prezidentimizə təşəkkürümü bildirirəm və xalqımızı bu münasibətlə təbrik edirəm.

Müzakirəmizə təqdim olunan dövlətimizin əsas maliyyə sənədi ölkəmizin milli prioritetlərini, sosial-iqtisadi siyasət hədəflərini və qüvvədə olan məqsədli dövlət proq-

ramlarını nəzərə almaqla peşəkarcasına hazırlanmışdır. Layihədə ölkəmizdə Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nailiyyətləri öz əksini tapır. Fərəhləndirici haldır ki,  dünyada gedən gərgin proseslər, geosiyasi münaqişələr, kəskin iqlim anomaliyaları fonunda dövlət büdcəsinin gəlirlərinin və xərclərinin artırılması tendensiyası davam etdirilir.

Qeyd olunanlarla yanaşı, büdcə yaranmış ənənəyə sadiq olaraq sosial yonümlüdür. Bu xərclər prioritet kimi büdcənin 41 faizini əhatə edir və 2024-cü illə müqayisədə 8,8 faiz çoxdur. Əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sosial müdafiə və sosial təminat xərcləri də 9,6 faiz artırılır. Bu isə 5 milyon nəfəri əhatə edən yeni sosial paketin hazırlanıb həyata keçirilməsinə imkan yaradır. Bunlar ölkə vətəndaşının yaşam tərzinin dövlət siyasətinin diqqət mərkəzində saxlandığının, əhalinin rifahının yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində daim davamlı tədbirlərin keçirilməsinin təzahürüdür.

Əhalinin həssas qrupundan olan şəxslərin maddi təminatının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin, investisiya layihələrinin və yenilik olaraq təhsil, səhiyyə, ekologiya və digər sahələrdə pilot layihələrin keçirilməsi nəzərdə tutulur. Təbii ki, bu işlərin görülməsi, təhlillərin aparılması və sistemləşdirilməsi böyük peşəkarlıq və zəhmət tələb edir. Buna görə də büdcə zərfinə daxil olan sənədlərin və rəyin hazırlanmasında əməyi olan hər kəsə təşəkkürümü bildirirəm. Sözsüz ki, mən də layihənin lehinə səs verəcəyəm.

Bununla yanaşı, hökumət üzvlərinin iştirakından istifadə edərək təmsil etdiyim Gədəbəy rayonunun strateji mövqeyinin, Ermənistanla 123 kilometr sərhədinin olmasını nəzərə alaraq əhalini narahat edən müəyyən məsələləri diqqətinizə çatdırmaq istərdim. İlk olaraq yaşayış məntəqələrinin təbii qazla təmin edilməsi məsələsini bildirim. Rayon dağlıq ərazidə yerləşir. İqlimi sərtdir, ilin 7 ayı istilikdən istifadə olunur. Son illər ərzində bu sahədə böyük işlər görülmüşdür. Qaz təchizatı 30 faizdən 80 faizədək artırılmışdır. Ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində sərhəd kəndlərinin əhalisi təbii qazla təmin edilib. Buna görə də öz adımdan və əhalimizin adından möhtərəm Prezidentə minnətdarlığımızı bildirirəm. Lakin rayonun 45 kəndində qaz təchizatı işləri aparılmamışdır. Elə kəndlər var ki, bir hissəsi qazla təmin edilib. Məsələn, Kiçik Qaramurad kəndi. Bəzən isə bir neçə kənddən ibarət dairədə bir kənd qazla təmin olunmayıb. Buna Pərizamanlı, Arısu, Əlinağılar, Daryurd kəndlərini misal olaraq göstərmək olar.

Digər məsələ isə rayonun yaşayış məntəqələrinin elektrik enerjisi ilə təchizatı ilə bağlıdır. Bu sahə üzrə də müasir infrastrukturun yaradılması istiqamətində mühüm tədbirlər görülmüşdür, müvafiq güc mənbələri yaradılmışdır. Lakin rayonun kəndlərində elektrik şəbəkəsinin istismar müddəti bitdiyindən istehlakçıların keyfiyyətli, dayanıqlı elektrik enerjisi ilə təmin olunmasında çətinliklər mövcuddur. Rayonun 13 yaşayış məntəqəsi istisna olmaqla əksər kəndlərində şəbəkələrin yenidən qurulması və kabelləşməsi işləri tamamlanmayıb. Şəkərbəy, Əmiraslanlı, Parakənd, Səbətkeçməz kəndlərində isə bu işlər dayandırılıbdır.

Hökumətdən bu məsələlərin – qaz və elektrik təchizatında mövcud olan çətinliklərin aradan qaldırılmasını və bu istiqamətdə işlərin sürətləndirilməsinə dəstək verilməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sevinc xanım. Təklif var ki, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən də düşünürəm ki, dövlət büdcəsinin layihəsi kifayət qədər müzakirə olundu. Dövlət büdcəsi ilə bağlı 51 nəfər çıxış edib. Biz səsverməyə keçirik. Xahiş edirəm, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə öz münasibətinizi bildirəsiniz.

Çıxış edə bilməyən həmkarlarımızdan xahiş edirəm, çıxışlarınızı yazılı surətdə katibliyə verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 15.47 dəq.) |
|---|---:|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Gündəliyin 2-ci məsələsi Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında, 3-cü məsələ isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında

qanun layihələridir. Hər iki məsələ sosial müdafiə sahəsi ilə bağlıdır, ona görə də mən də Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevdən xahiş edəcəyəm, Musa müəllim, ümumi məlumat verin. Hörmətli həmkarlar, həmişə olduğu kimi müzakirəni birgə, səsverməni isə ayrılıqda aparacağıq. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri və hörmətli mətbuat təmsilçiləri. Cənab Prezident İlham Əliyevin rəhbərliyi və müdrik, uzaqgörən siyasəti sayəsində Azərbaycan iqtisadiyyatı cari ildə də dayanıqlı olmuş, artım tempini saxlamış, ölkəmiz sabitlik və inkişaf baxımından yeni uğurlara imza atmışdır.

Ölkəmizin 2024-cü ildə əldə etdiyi iqtisadi uğurlar 2025-ci ilin büdcə siyasətinin pozitiv və sosial yönümlü istiqamətdə formalaşmasını təmin etmişdir. Dövlətimizin daxili siyasətinin ən mühüm istiqamətlərindən biri olan sosial müdafiə və sosial təminat sahəsində aparılan dərin islahatlar vətəndaşlarımızın sosial rifah halının qorunmasına və yüksəldilməsinə etibarlı təminatlar yaratmışdır.

VII çağırış Milli Məclisin ilk iclasında çıxış edərkən cənab Prezident İlham Əliyev aparılan dərin sosial islahatların uğurlu nəticələrinə diqqət çəkərək demişdir: “Biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır”.

Hörmətli millət vəkilləri, müzakirənizə təqdim olunan 2025-ci il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsi də sosial ədalət və sosial rifah prinsiplərinə xidmət edən bu ali niyyəti rəhbər tutaraq hazırlanmışdır. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üçün büdcə layihəsi "Büdcə sistemi haqqında", "Sosial sığorta haqqında", "Əmək pensiyaları haqqında" qanunların və digər normativ hüquqi aktların tələbləri çərçivəsində, ölkəmizin iqtisadi və sosial inkişafına dair proqnozlar nəzərə alınmaqla demoqrafik göstəricilərə əsaslanaraq hazırlanmışdır.

Fondun 2025-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 7 milyard 676 milyon manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 726,6 milyon manat və ya 10,5 faiz çoxdur.

Fondun gəlirlərinin 5 milyard 997 milyon manatının, yaxud 78,1 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 66 faizi qeyri-büdcə sektorunun, 34 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcəkdir.

Hazırda ölkə üzrə pensiyaçıların ümumi sayı təqribən 1 milyon 100 min nəfər təşkil edir. Onlardan 707 min nəfəri yaşa görə, 258 min nəfəri əlilliyə görə, 135 min nəfəri isə ailə başçısını itirməyə görə pensiya alanlardır. 2019-cu ildən başlayaraq əmək pensiyalarının minimum məbləği ölkə üzrə pensiyaçılar üçün yaşayış minimumunu üstələmişdir. Bu meyil gələn ildə də davam edəcəkdir.

2025-ci ildə fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard

600 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü il üzrə təsdiqlənmiş transfer məbləğindən 368 milyon manat çoxdur. Transferin həcmindəki görünən artım 2024-cü ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindən 387 milyon manatın dövlət büdcəsinə yönəldilməsi ilə bağlıdır.

Hörmətli həmkarlar, Dövlət Sosial Müdafiə Fondunun xərclərindən danışarkən qeyd etmək lazımdır ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5 faizini və ya 7 milyard 408 milyon manatını əhaliyə ödənişlər təşkil edəcəkdir.

Əmək pensiyalarının orta aylıq məbləğinin 2024-cü ildə 494 manat təşkil edəcəyi gözlənilir. 2025-ci ildə isə 535 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq 571 manata yüksəlməsi nəzərdə tutulur.

Əvvəlki illərdə olduğu kimi, cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 48,8 faiz və 49,5 faiz olmaqla Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimum normaları haqqında" müvafiq Konvensiyasına cavab verəcəkdir.

Növbəti ildə əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi, eləcə də pensiya və müavinətlərin əhaliyə çatdırılması və bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri, ümumilikdə, 87 milyon manat məbləğində proqnozlaşdırılır.

Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahədə 159 xidmətin "Bir pəncərə"dən, operativ, şəffaf,

innovativ əsasda təqdim olunmasına imkan yaratmışdır. Hazırda ölkə üzrə 7 DOST mərkəzi, o cümlədən Şuşa filialı və Ağalı "Smart DOST" xidmət məntəqəsi fəaliyyət göstərir. Bu mərkəzlərə cari ildə 720 mindən çox vətəndaşımız müraciət etmişdir və məmnunluq indeksi 98,3 faiz təşkil etmişdir. Bir sıra ölkələr, o cümlədən Avropa ölkələri DOST təcrübəsini öyrənərək tətbiq etməyə başlamışlar.

Hörmətli həmkarlar, 2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə görə 198,4 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3 faiz, yaxud 16,8 milyon manat çoxdur.

Sığorta olunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası vasitəsi ilə maliyyələşdiriləcək xərclər 25 milyon manat, yaxud cari ildəkindən 2 faiz çox təşkil edəcəkdir.

Fond tərəfindən investisiya fəaliyyəti dövründə, ümumilikdə, 67,2 milyon manat gəlir əldə edilmiş və 2024-cü ilin sonuna qədər əlavə olaraq 15,8 milyon manat gəlir əldə olunması gözlənilir.

Fondun investisiya gəlirlərindən şəhid ailələrinin və müharibə əlillərinin mənzil və fərdi evlərlə təmin edilməsi, məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və sair sosial istiqamətlərə sərf edilir.

Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti üzrə iqtisadi fəallığının daha da artırılması, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımıza göstərilən xidmətin dairəsi-

nin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə komitənin təkliflərini hörmətli millət vəkillərinin və hökumət nümayəndələrinin diqqətinə çatdırmaq istərdim.

1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda və müvafiq hüquqi aktlarda büdcədənkənar dövlət fondlarının büdcələrinin strukturu, eləcə də qanunlarla təsdiq olunan göstəricilərə dair tələblərin müəyyən olunması.

2. Dövlət Sosial Müdafiə Fondunun investisiya fəaliyyətindən əldə edilən gəlirlərin mənfəət vergisindən azad olunması məqsədi ilə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi.

3. Zəruri tənzimləmənin həyata keçirilməsi ilə Dövlət Sosial Müdafiə Fondunun investisiya fəaliyyətini əhatə edən göstəricilərin büdcənin müvafiq parametrlərinə əlavə olunması.

4. Həssas qrupdan olan insanların maddi rifah halının yaxşılaşdırılması, həmin şəxsləri inflyasiyanın təsirlərindən qorumaq məqsədi ilə sosial ödənişlərin mütəmadi artırılması.

5. Müəyyən qədər sosial sığorta stajı və hesabında sığorta kapitalı olan işləməyən şəxslər vəfat etdikdə onlara dəfn xərcləri üçün müavinət verilməsi məsələsinin öz həllini tapması.

6. Aztəminatlı ailələrdən olan 1 yaşadək uşaqlara verilən sosial müavinətin uşağın 3 yaşına qədər davam etdirilməsi üçün hüquqi əsasların və təminatların yaradılması.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təqdim edilmiş qanun layihəsi ölkə qanunvericiliyinin tələblərinə uyğun

hazırlanmaqla sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sisteminin vahidlik və müstəqillik prinsiplərinə müvafiqdir və gələn il şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alan bütün vətəndaşlarımızın sosial rifahının qorunması və yaxşılaşması üçün etibarlı təminat yaradacaqdır.

Son olaraq Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin hazırlanmasında əməyi olan hökumət üzvlərindən və hökumət nümayəndələrindən hər kəsə, o cümlədən büdcə layihəsinə dair geniş və ətraflı təhlilə əsaslanan rəy vermiş Hesablama Palatasına minnətdarlığımızı bildiririk. Təqdim edilən layihələri dəstəkləməyinizi xahiş edirik.

İcazənizlə, hörmətli xanım sədr, İşsizlikdən sığorta fondunun 2025-ci il büdcə layihəsi barədə də qısa təqdimat edim.

Hörmətli həmkarlar,2025-ci ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 260 milyon 700 min manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 22,7 milyon manat, yaxud 9,5 faiz çoxdur.

İşsizlikdən sığorta fondunun gəlirlərinin 206,3 milyon manatı, yaxud 79 faizi işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2024-cü il üçün təsdiq edilmiş müvafiq göstəricidən 21,7 milyon manat və ya 11,7 faiz çoxdur.

Gəlirlərin 54,3 milyon manatı, yaxud 21 faizi isə İşsizlikdən sığorta fondunun 2025-ci il yanvarın 1-nə yaradılmış ehtiyatları hesabına olacaqdır. Sığorta haqları üzrə yığımın 75,9 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir.

Gələn il də İşsizlikdən sığorta fondunun xərcləri 13 istiqaməti əhatə edəcəkdir. Xərclərin 29,5 faizi özünüməşğulluq tədbirlərini, 13,4 faizi peşə hazırlığı və əlavə təh-

silin təşkili xərclərini maliyyələşməyə yönəltməklə, ümumilikdə, 55 faiz vəsait aktiv məşğulluq tədbirləri istiqaməti üçün nəzərdə tutulmuşdur.

Cari ilin təsdiqlənmiş büdcə layihəsi ilə müqayisədə 2025-ci ildə işsizliyə görə sığorta ödənişləri xərclərinin 2 milyon manat, özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi xərclərinin isə 4 milyon manat artırılması nəzərdə tutulur.

Peşə hazırlığının təşkili xərcləri, həmçinin sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin maliyyələşdirilməsi xərcləri, habelə digər aktiv tədbirlər üçün xərclər cari illə eyni səviyyədə qalır.

2025-ci ildə İşsizlikdən sığorta fondunun hesabına 8 min nəfərin özünüməşğulluq proqramına qoşulması nəzərdə tutulur. Bununla da 2017-ci ildən 2025-ci il də daxil olmaqla özünüməşğulluq proqramı ilə əhatə olunacaq şəxslərin sayı 100 min nəfər olacaqdır.

Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə 9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Hörmətli həmkarlar, İşsizlikdən sığorta fondu üzrə fəaliyyətin tənzimlənməsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə komitənin təkliflərini hörmətli millət vəkillərinə və hökumət nümayəndələrinə çatdırmaq istərdim.

1. Zəruri hüquqi tənzimləmələr aparmaqla İşsizlikdən sığorta fondunun sığorta ehtiyatlarının yaradılması və qalıq vəsaitin bir hissəsinin sığorta ehtiyatlarına yönəldilməsi, həmin məbləğin büdcə layihələrində əks etdirilməsi.

2.İşsizlikdən sığorta fondunun idarəetmə xərclərinə

yönəldilən yuxarı həddin müəyyən edilməsi ilə bağlı hüquqi aktlarda tənzimləmələrin aparılması.

3. İşsizlikdən sığorta fondunun xərc strukturunda xərc maddələri arasında proporsionallığın tətbiq edilməsi və aktiv sosial proqramlar arasında xərc bölgüsünün müəyyənləşdirilməsi.

Son olaraq söyləmək istəyirəm ki, İşsizlikdən sığorta fondunun büdcə layihəsi 2025-ci ildə sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsi, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, haqqı ödənilən ictimai işlərin təşkili və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşməsi üçün optimal əsaslar yarada biləcəkdir. Hər iki qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, ətraflı məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, mən indi Sizdən xahiş edirəm, hər iki qanun layihəsi ilə bağlı komitənin rəylərini bildirin. Buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Komitəmiz Sosial siyasət komitəsi ilə birlikdə hər iki qanun layihəsinə baxmış, müzakirə etmişdir. Hər iki layihə dəstəklənir və deputat həmkarlarımızdan hər iki layihəyə səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. İndi isə mən Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Sahil Babayevə söz vermək

istəyirəm. Sahil müəllim, buyurun.

**Sahil Babayev,** *Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir ölkə vətəndaşına layiqli həyat səviyyəsinin təmin edilməsi və sosial rifah halının yaxşılaşdırılması dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas prioritetidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, əhalinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, əhalinin rifah halının və sosial təminatının artırılması, həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində bir çox layihələr icra edilir.

Növbəti ilin dövlət büdcəsinin xərclərində sosial yönümlü xərclərin xüsusi çəkisinin 41 faiz olması, o cümlədən son 5 ildə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsaitin həcminin mütləq ifadədə 1,6 dəfə artması deyilənləri əyani sübut edir.

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üzrə xərclərinin maliyyələşdirilməsi üçün maliyyə mənbəyi 7 milyard 676 milyon manat nəzərdə tutulur. Bu, 2024-cü illə müqayisədə 727 milyon manat və ya 10,5 faiz çoxdur. Fondun maliyyə mənbəyinin 7 milyard 617 milyon manatlıq hissəsini fondun gəlirləri, 59 milyon manatlıq hissəsini isə fondun əvvəlki illərdə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait təşkil edir.

Qeyd edim ki, fondun 2025-ci il üçün gəlirlərinin 78 faizinin və ya 6 milyard manatının məcburi dövlət sosial

sığorta daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 519 milyon manat və ya 9,5 faiz çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə 2025-ci il üçün daxilolmalar 2 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 4 milyard manat proqnozlaşdırılır. Qeyri-büdcə sektoru üzrə gəlirlər sosial sığorta haqlarının 66 faizini təşkil edir.

Ümumilikdə, 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 7,1 faiz və ya 135 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 10,8 faiz və ya 385 milyon manat artımla proqnozlaşdırılmışdır.

2025-ci ildə fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 600 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü il üzrə təsdiqlənmiş transfer məbləğindən 368 milyon manat çoxdur. Transferin həcmindəki artım 2024-cü ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindən 387 milyon manatın dövlət büdcəsinin öhdəliklərinə yönəldilməsi ilə bağlıdır.

Xüsusi olaraq qeyd olunmalıdır ki, 2018-ci illə müqayisədə əhaliyə ödənişlərin 3 milyard 804 milyon manat artmasına baxmayaraq, 2019–2024-cü illərdə büdcəyə, ümumilikdə, 1 milyard 153 milyon manat vəsait qaytarılmış, habelə transferin gəlirlərdə payı 2017-ci illə müqayisədə 38,1 faizdən 2025-ci ildə 20,8 faizə enməsi planlaşdırılmışdır.

Növbəti ildə fondun xərcləri 7 milyard 676 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilə nisbətən 727

milyon manat və ya 10,5 faiz çoxdur.

Fondun 2025-ci il xərclərinin 97 faizi və ya 7 milyard 409 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2023-cü illə müqayisədə 1 milyard 521 milyon manat, 2024-cü illə müqayisədə isə 702 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 211 milyon manatı əmək pensiyalarından, 198 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərindən ibarət olacaqdır.

2025-ci il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2024-cü ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 686 milyon manat və ya 10,5 faiz artımla nəzərə alınmışdır. Bildirmək istərdim ki, növbəti il üçün pensiyaların orta aylıq məbləği 535 manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin sonuna gözlənilən göstəricidən 8,3 faiz çoxdur. Yaşa görə pensiyanın orta aylıq məbləği isə növbəti ildə 571 manat təşkil edəcəkdir. Bu isə cari il üçün yaşa görə pensiyaların ilin sonuna gözlənilən orta aylıq məbləği ilə müqayisədə 8,3 faiz artım deməkdir. Xatırladım ki, cari ilin sonuna yaşa görə pensiyaların orta məbləği 527,3 manat olaraq gözlənilir.

Pensiya sistemi üzrə əsassız və saxta ödənişlərin aradan qaldırılması nəticəsində 2024-cü ilin 9 ayında indeksasiya əmsalları tətbiq edilmədən 955 milyon manat, indeksasiya tətbiq edildikdə isə 1 milyard 263 milyon manat əsassız xərclərin qarşısı alınmışdır.

Eyni zamanda, aparılmış sistemli iş nəticəsində Dövlət Sosial Müdafiə Fondu əleyhinə məhkəmə qərarlarının sayı 94 faiz, yaranan maliyyə öhdəlikləri isə 93 faiz azalmışdır.

Bununla yanaşı, fondun fəaliyyət istiqamətləri üzrə ümumi 84 xidmətdən 79-u elektronlaşdırılmış, 2019–2024-cü illərdə, ümumilikdə, 830 mindən çox proaktiv elektron

təyinat aparılmışdır. Xüsusi vurğulanmalıdır ki, 2024-cü ildə fond tərəfindən aparılmış yaşa görə pensiyaların proaktiv təyinatının payı ümumi təyinatların 89 faizini əhatə etmişdir. Bu isə həmin sayda şəxsin heç bir ünvana yaxınlaşmadan öz sosial hüquqlarını reallaşdırması deməkdir.

Eyni zamanda, qeyd edilməlidir ki, fondun cari fəaliyyətində bütün ölkə üzrə maliyyə və mühasibatlıq işinin mərkəzləşməsi nəticəsində maliyyə əməliyyatlarına nəzarət gücləndirilmiş, sosial ödənişlərin məmur-vətəndaş təması olmadan bir mərkəzdən şəffaf və operativ təyinatı tam təşkil olunmuş, ölkə üzrə arxiv işlərinin mərkəzləşdirilməsi həyata keçirilmiş, bütün ölkə üzrə fərdi uçot tam şəkildə mərkəzləşdirilmiş və bu proses çərçivəsində benefisiarı bilinməyən 1,4 milyard manatadək vəsait aşkar olunaraq konkret şəxslərin hesablarına işlənmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin həyat və sağlamlığına dövlət təminatı verilən şəxslərin dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətləri 2022-ci il yanvarın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən icra olunur. Ötən dövr ərzində dövlət icbari şəxsi sığortası üzrə fəaliyyətin fərdi uçot prinsipi üzərindən qurulmasına nail olunmuş, 6,2 min şəxsə proaktiv təyinat aparılmış, 6,4 milyon manat sığorta ehtiyatı formalaşdırılmışdır.

Əlavə olaraq, fondun sərbəst vəsaitinin idarə olunan kapitala çevrilməsi, fondun maliyyə imkanlarının genişləndirilməsi məqsədi ilə müxtəlif investisiya layihələrində iştirakının təmin edilməsi üçün qısa müddətdə müvafiq normativ hüquqi baza yaradılmışdır.

Qeyd etmək istərdim ki, Dövlət Sosial Müdafiə Fon-

dunda aparılan islahatlar beynəlxalq mötəbər təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, fondda aparılan islahatlar son üç il ərzində beynəlxalq təşkilatlar tərəfindən 50 mükafat və sertifikatla təltif edilib. Təkcə 2024-cü ilin 10 ayı ərzində Dövlət Sosial Müdafiə Fondu 27 beynəlxalq mükafatla təltif olunub.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. İcazənizlə, İşsizlikdən sığorta fonduna dair də qısa şəkildə məlumat təqdim edim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, məşğulluq xidmətlərinin beynəlxalq təcrübə və innovasiyalar əsasında təkmilləşdirilməsi, əhaliyə göstərilən xidmətlərin çeşidinin və əhatə dairəsinin genişləndirilməsi, elektron xidmətlərin sayının artırılması ilə şəffaflığın daha da yüksəldilməsi istiqamətində ardıcıl və sistemli iş aparılır.

Məşğulluq strategiyasında müəyyən edilmiş hədəflərə uyğun olaraq, nazirlik tərəfindən əmək bazarının inkişafı, işsiz və iş axtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

2025-ci ildə İşsizlikdən sığorta fondunun gəlirləri və xərcləri balanslaşdırılmaqla 260,7 milyon manat nəzərdə tutulmuşdur. Bu da cari illə müqayisədə 22,7 milyon manat, yaxud 9,5 faiz çoxdur.

Qeyd etmək lazımdır ki, 2025-ci il üçün təqdim edilən büdcə layihəsində ilk dəfə olaraq fondun gəlir və xərclərinin daxilində Naxçıvan Muxtar Respublikasının İşsizlikdən sığorta fondunun vəsaitləri də nəzərə alınmışdır. İşsizlikdən sığorta fondunun gəlirlərinin 206 milyon manatı, yaxud 79 faizi işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2024-cü ilin təsdiq

edilmiş müvafiq göstəricisindən 22 milyon manat və ya 12 faiz çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 50 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 156 milyon manat proqnozlaşdırılır. Sığorta haqları üzrə yığımın 76 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir ki, bu da cari ilə nisbətən 17 milyon manat çoxdur.

Ümumilikdə, 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 10 faiz, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 12 faiz artımla proqnozlaşdırılmışdır.

Fondun maliyyə mənbəyinin 54 milyon manatlıq və ya 21 faizlik hissəsini fondun əvvəlki illərdə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait təşkil edəcəkdir.

Fondun 2025-ci il üçün proqnozlaşdırılan 260,7 milyon manat məbləğində xərclərinin 77 milyon manatı özünü-məşğulluq proqramının təşkilinə, 35 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkilinə, 17 milyon manatı iş-sizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümlü məsləhət xidmətlərinin göstərilməsinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 4 mil-yon manatı sosial iş yerlərində əməkhaqqının bir hissə-sinin maliyyələşdirilməsinə və 4,5 milyon manatı digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcəkdir.

Fondun 2025-ci il xərclərinin 6,5 faizi və ya 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinin payına düşür. Bu göstərici 2024-cü illə müqayisədə 2 milyon manat çoxdur.

Göstərilən xidmətlərin elektronlaşdırılması nəticəsində işsiz və işaxtaran şəxslərin, eləcə də işsizlikdən sığorta

ödənişləri almaq hüququ yaranmış vətəndaşların minimum vaxt və resurs sərf etməklə öz hüquqlarını reallaşdırması təmin ediləcəkdir.

Məlumat üçün qeyd edim ki, Dövlət Məşğulluq Agentliyinin 27 fəaliyyət istiqaməti üzrə avtomatlaşması mümkün olan 22 xidmətindən 16-sı artıq tam elektronlaşdırılmış, digərlərinin də qısa müddət ərzində elektronlaşdırılması istiqamətində işlər görülür.

Məşğulluq xidmətlərinin elektronlaşdırılması nəticəsində əmək və məşğulluq elektron sistemində hazırda 61 min aktiv vakansiya mövcuddur. İşsiz və işaxtaranların elektron qeydiyyatı imkanı yaradılmışdır və elektron fərdi məşğulluq proqramının tərtibatı təmin edilmişdir.

Əmək bazarının inkişafı, işsiz və iş axtaran şəxslərin məşğulluğunun təmin edilməsi üçün cari ilin 10 ayında məşğulluq orqanları tərəfindən 137 mindən çox şəxs işlə təmin olunmuşdur.

Əsas aktiv məşğulluq tədbirlərindən olan özünüməşğulluq proqramı növbəti ildə də davam etdiriləcək və İşsizlikdən sığorta fondu büdcəsinin əsas hissəsini, təqribən 30 faizini təşkil edəcəkdir. 2025-ci ildə nazirlik tərəfindən daha 8 min, Dünya Bankı layihəsi çərçivəsində isə 1500 nəfər olmaqla, ümumilikdə, 9500 ailənin özünüməşğulluğunun təmin edilməsi planlaşdırılır. Proqramın əhatə dairəsinin genişləndirilməsi, vətəndaşlara təqdim edilən zərflərdə çeşid müxtəlifliyinin artırılması məqsədi ilə 2025-ci ildə 7 yeni zərfin pilot olaraq tətbiq edilməsi nəzərdə tutulur. Əlavə olaraq 4 yeni zərfin yaradılması istiqamətində araşdırmalar davam etdirilir və növbəti ildə tətbiq edilməsi planlaşdırılır.

Özünüməşğulluq proqramının səmərəliliyinin artırıl-

ması, proqramdan yararlanan şəxslərin fəaliyyətinin əmək bazarında rəqabətə davamlılığının təmin edilməsi məqsədi ilə oxşar istiqamətlər üzrə əmlaklarla təmin olunmuş şəxslərin fəaliyyətinin klasterlərdə birləşdirilməsi hədəflənir və artıq bu istiqamətdə işlərin icrasına başlanılmışdır.

2030-cu ilə qədər Quba, Masallı, Sabirabad, Şəki, Cəbrayıl rayonlarında müasir avadanlıqlarla təchiz edilmiş yeni peşə hazırlığı mərkəzlərinin tikilməsi nəzərdə tutulmuşdur. 2025-ci ildə Quba peşə hazırlığı mərkəzinin istifadəyə verilməsi, maddi-texniki bazasının müasir standartlara uyğun şəkildə qurulması planlaşdırılır.

İşsiz və iş axtaran şəxslərin peşə hazırlığı və əlavə təhsilinin təşkili üzrə cari il ərzində 16 mindən çox müdavimin peşə hazırlığına cəlb olunması üzrə işlər görülür. 2025-ci ildə bu rəqəm 16 min müdavimi əhatə edəcək və bu istiqamətə 35 milyon manat vəsaitin yönəldilməsi planlaşdırılır.

Hazırda 175 ixtisas üzrə peşə hazırlığı kursları təşkil edilir. Mövcud peşə siyahısı əmək bazarının tələbinə uyğun olaraq, mütəmadi yenilənir. Bu peşələr üzrə reytinq sisteminin hazırlanması nəzərdə tutulmuşdur. Reytinq sistemi gənclərimizə və iş axtaranlara əmək bazarında ən çox tələbat olan peşələr barədə məlumat verəcək, onların düzgün peşə seçimi etmələrinə kömək edəcəkdir.

Əhalinin məşğulluğu üzrə sahibkarlıq subyektləri ilə əməkdaşlığın yeni forma və metodlarının tətbiqi məqsədi ilə işəgötürənlərlə birlikdə işçilərin əməkhaqqının birgə maliyyələşdirilməsi üçün işlər genişləndiriləcəkdir. 2025-ci ildə bu istiqamətdə 4 milyon manat xərclənməsi, 1000-dən çox şəxsin proqrama cəlb olunması nəzərdə tutulur.

2025-ci ildə əmək yarmarkalarının və əmək birjalarının

təşkili istiqamətində 500 min manat xərclənməsi nəzərdə tutulur. Bu, ölkədə 110 regional iri əmək yarmarkasının və digər tədbirlərin təşkil olunmasına kifayət edəcəkdir.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün əlavə iş yerlərinin, sosial müəssisələrin yaradılması, məqsədli proqramların həyata keçirilməsi və digər aktiv məşğulluq tədbirlərinin icrası üçün 2025-ci ildə 3 milyon manat xərclənməsi nəzərdə tutulmuşdur.

Növbəti ildə də məşğulluq xidmətlərinin rəqəmsallaşdırılması əsas prioritet istiqamətlərdən biri olacaqdır. Belə ki, ölkənin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, qeyri-formal məşğulluğa nəzarət vahid elektron informasiya sistemi, səyyar monitorinq altsistemi, elektron əmək birjası və yarmarkası üzrə işlər tamamlanacaqdır. Bu elektron xidmətlər ölkənin bütün insan resursları əməliyyatlarının tamamilə elektron müstəviyə keçidinin, inzibati ərazi vahidləri üzrə əsas məşğulluq, demoqrafik, peşə ixtisasları və əmək ehtiyatları balansı göstəricilərinin, qeyri-formal məşğulluq sahəsində nəzarət və risk əsaslı yoxlamaların, təlim, peşəyönümlü və peşə hazırlığı fəaliyyətinin onlayn müstəviyə daşınması nəticəsində əmək bazarının rəqəmsal ekosistemi formalaşacaqdır.

Hörmətli millət vəkilləri, xüsusilə qeyd etmək istəyirəm ki, Böyük Qayıdış üzrə dövlət proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə əhalinin məşğulluq imkanlarının artırılması növbəti ildə də prioritet olaraq qalacaqdır. Məlumat üçün bildirim ki, hazırkı tarixə işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşmış və iqtisadi fəal olan şəxslərin 80 faizindən çoxunun məşğulluğu təmin edilmişdir. Digər şəxslərin də məşğulluğunun təmin olunması istiqamətində aktiv işlər aparılır.

Hörmətli millət vəkilləri, çıxışımın sonunda yeni tərkibdə ilk büdcə müzakirəsini aparan Milli Məclisə fəaliyyətində uğurlar arzu edirəm. Qeyd olunanları və müvafiq büdcə göstəricilərini nəzərə alaraq, təqdim olunmuş layihələrə səs verməyinizi sizdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahil müəllim. Hörmətli həmkarlar, müzakirələrə keçirik. Azay Quliyev. Buyurun, Azay müəllim.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli hökumət üzvləri, dəyərli həmkarlarım. Həm hörmətli komitə sədri Musa müəllim, həm də əmək və əhalinin sosial müdafiəsi naziri hörmətli Sahil müəllim büdcə sosial paketi ilə bağlı ətraflı məlumat verdilər. Əminəm, həmkarlarımız da həmrəy olacaqlar ki, doğrudan da, cənab Prezident tərəfindən hökumətin qarşısında bir tapşırıq kimi, bir vəzifə kimi qoyulan əsas hədəf xalqın sosial rifahının yaxşılaşdırılması və ləyaqətli həyat səviyyəsinin təminatıdır. Bu da bizim müzakirə etdiyimiz büdcədə hiss olunur, görünür. Əlbəttə ki, bu, sevindiricidir.

Bütövlükdə, büdcənin 41 faizinin sosial sahəyə yönəldilməsi, sosial müavinətlərin, pensiyanın artırılması, əlbəttə, hər bir azərbaycanlının gözlədiyi məsələdir. Ümid edirəm ki, gələcəkdə bu istiqamətdə daha geniş işlər görüləcəkdir.

Hörmətli həmkarlar, biz etiraf etməliyik ki, sosial sahə bütün dünyada olduğu kimi, Azərbaycanda da hər zaman müəyyən mənada təzyiq altında olan sahədir. Hər kəs bu sahəyə xüsusi diqqət göstərir, hər kəs bu sahədə daha çox artım olmasını istəyir. Amma etiraf etməliyik ki, hər bir

addımın, maliyyə ilə bağlı qəbul edilən hər bir qərarın daha bir əsası olmalıdır. Son illər sosial büdcənin dəfələrcə artması göstərir ki, dövlətin, doğrudan da, çox açıq və dəqiq sosial strategiyası var. Bugünkü büdcə də bunu bir daha təsdiq edir.

Mən çox detallara toxunmaq istəməzdim. Burada məşğulluq siyasəti ilə, pensiya və müavinətlərin artırılması ilə bağlı bir çox yeni işlər nəzərdə tutulub. Ədalət naminə demək lazımdır ki, son illər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, xüsusilə Dövlət Sosial Müdafiə Fondunun işində ciddi dəyişikliklər var. Bu istiqamətdə islahatlar gedir. Əlbəttə, müəyyən məsələlər var ki, ora daha çox diqqət ayırmaq lazımdır. Bu baxımdan fürsətdən istifadə edərək mən birinci oxunuşun tələblərinə uyğun olaraq, konseptual baxımdan bir neçə təklif səsləndirmək istərdim.

Hörmətli həmkarlar, əlillik dərəcəsi olan vətəndaşlara təqdim olunan tələblər siyahısında 5 il sosial sığorta stajının olması da qeyd edilib. Belə bir tələb var. Gəlin, etiraf edək ki, bu, müəyyən mənada narazılığa və bəzi hallarda sosial ədalətsizliyə səbəb olur. Bir halda ki vətəndaşın əlillik dərəcəsi müəyyən olunub və onun artıq iş qabiliyyəti mümkün deyilsə, biz 5 il sığorta stajını niyə tələb etməliyik? Mənə belə gəlir ki, məhz bu vəziyyəti doğru qiymətləndirərək və vətəndaşın pensiya kapitalını nəzərə alaraq onlara birbaşa pensiya təyin edilsin. Hesab edirəm ki, qazilərin və müharibə iştirakçılarının da yaxşı mənada təminatı uğurla başa çata bilər.

İkinci diqqət cəlb edən məsələlərdən biri budur ki, ailə başçısını itirdiyinə görə pensiya hüququ olan, təhsil müəssisələrində əyani təhsil alan 23 yaşına qədər vətəndaşlar

pensiya alırlar. Amma bizim elə gənclərimiz var ki, onların təhsili 25, yaxud da digər yaş dövrünə təsadüf edir. Bu da, təbii ki, çox deyildir. Lakin pensiya 23 yaşında kəsilir. Ona görə xahiş edirəm ki, bu məsələyə baxılsın. Əgər imkan varsa, qanunvericiliyə müəyyən əlavə və ya dəyişikliklər edilərək məhz təhsil müddəti başa çatana qədər onların pensiya hüququ tanınsın.

Növbəti məsələ ilə bağlı, hesab edirəm, nazirliyə də dəfələrcə müraciətlər daxil olub. Bəzən müvafiq qurumlar pensiya və təqaüdlərin araşdırılması ilə bağlı müəyyən fəaliyyətə başlayırlar. Yəni pensiyanın nə qədər verilməsi və ya kəsilən müavinətin, yaxud pensiyanın həcmi ilə bağlı suallar yaranır. Bəzən bu araşdırmalar 3-6 ay davam edir. Amma elə adam var ki, o, yalnız pensiya ilə, müavinətlə dolanır. Ona görə yaxşı olardı ki, birinci, bura bir vaxt çərçivəsi müəyyənləşdirilsin və bu araşdırmalar maksimum 1 ay müddətində həyata keçirilsin. Əgər doğrudan da, müəyyən qanun pozuntuları varsa, bu şəxsin pensiyası üçün əsasları varsa, bunun verilməsi davam etsin. Əgər əsaslar yoxdursa, bununla bağlı hüquqi qərarlar qəbul edilsin.

Növbəti bir məsələ. Nazirlər Kabinetinin 2022-ci ildə 12 avqust tarixli 128 nömrəli Qərarına əsasən şəhid ailəsinin işləməyən üzvləri imtiyazlı şəxslər kimi ya sanatoriya-kurort səyahət paketləri ilə, ya da imtiyazlı kateqoriyalarla təmin olunurlar. Ancaq...

**Sədrlik edən.** Azay müəllim, sağ olun. Xahiş edirəm, yazılı surətdə verərsiniz.

Hörmətli həmkarlar, kimin söhbəti varsa, çox gözəl, rahat otaq var, orada da söhbət edə bilərsiniz.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli deputatlar. Azərbaycan sosial bir dövlətdir. Biz büdcənin sosial sahə ilə bağlı olan müzakirəsində də bunun şahidi oluruq. Həm Musa müəllim, həm də Sahil müəllim ətraflı məlumat verdilər. Təşəkkürümü bildirirəm. Mən də sosial sahədə olan işlər haqqında öz fikirlərimi qeyd edəcəyəm.

Sosial sahə hər bir ölkənin taleyində, xüsusilə müharibə keçmiş, şəhid vermiş, müharibə veteranı olan ölkədə aparıcı sahələrdən biridir. Ona görə də belə ölkələrdə sosial sahə həmişə gündəmdə olan məsələdir. Hesab edirəm ki, biz bu istiqamətdə də digər dövlətlərdən fərqlənirik. Biz qalib xalqıq, qalib dövlətik. Ona görə qalib əsgərimiz də, qalib zabitimiz də, qalib xalqımız da həm pensiyasında, həm də digər sahələrdə yüksək dərəcədə təmin olunmalıdır.

Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Biz bunu Musa müəllimlə danışdıq. Şəhid ailələri və müharibə veteranları ilə bağlı çoxlu sayda təlimatlar və qanunlar var. Cənab Prezidentin fərmanı, nazirliyin, rayon icra hakimiyyətinin sərəncamları, Nazirlər Kabinetinin, bələdiyyələrin qərarları var ki, hansı güzəştlər edilməlidir. Nazirlik bu güzəştləri bir toplum şəklində çap edib portalda yerləşdirsə... Müraciət edən qaziyə də, şəhid ailəsinə də, digərlərinə də göstərilsin ki, qanunvericilikdə, Nazirlər Kabinetinin qərarında bu məsələlər sizin hüquqlarınızı müdafiə edir. Yəni bu, qanunla sizə verilən hüquqlardır və bundan istifadə edə bilərsiniz. Müavinət, pensiya nə qədər alınacaq və sair. Ona görə hesab edirəm ki, buna ehtiyac var.

Qeyd etmək istədiyim digər məsələ özünüməşğulluqla bağlıdır. Çox gözəl proqramdır, istifadə olunur. Amma

proqramın həyata keçirilməsi mexanizmində çox böyük nöqsanlar var. Mən başqa sahələri deyə bilmərəm, amma kənd təsərrüfatı ilə bağlı bu gün çoxlu sayda şikayət var. Xəstə heyvanları insanlara verirlər, 3 gün sonra o ölür. Vətəndaşın da bunu bir dəfə almaq şansı var.

Bunun təminatı məsələsi də var. Bir mobil telefonu alırsan, ona 1 illik zəmanət verilir. Bir kəndçiyə iki inək verilir ki, özünü təmin etsin. 1 illik zəmanət verin, bunu sığortalayın və sonra həmin şəxsə təqdim edin. Heç olmasa, 3 aylıq yemini də verin ki, malı təmin etsin. Axı, kəndçi heyvanı ehtiyacdan alır, kefdən almır. Ona görə də mən hesab edirəm, bu, ciddi məsələdir.

Digər məsələ. Müharibə veteranları əlillik dərəcəsi almaq ilə əlaqədar müraciət edirlər. Ola bilər, müasir tibb bunu göstərə bilmir. Çünki müharibə elə bir sahədir ki, onu hər hansı bir aparat, kompüter müəyyən edə bilmir, o, hansı isə bir düsturla müəyyən olunmur. Əgər qucağında avtomatla kazarmada yatmayıbsansa, bunu dərk edə bilməzsən. 50 dil, başqa şeyləri öyrənə bilərsən, amma müharibədə əsgərin yanında döyüş yoldaşının ölməsi nəticəsində alınan psixoloji travma çox çətin bir haldır. Ona görə də onlara güzəşt etmək lazımdır. 200-300 nəfər olsa da, güzəşt olunsun. Kompüter bu gün göstərmirsə, sabah hansı isə formada göstərər. Onlara güzəşt olunmalıdır, əlillik dərəcəsi verilməlidir.

Keçən dəfə bir məsələ qaldırmışdım. Çernobıl əlilləri, 20 Yanvar əlilləri var. Hamısını maşın növbəsinə, ev növbəsinə götürürlər, təqaüd də verirlər. 8500 nəfər Əfqanıstanda vuruşubdur. Ümummilli Lider müraciət edəndə, Xalq Cəbhəsi ölkənin torpaqlarını qoyub qaçanda bu insanların böyük hissəsi təcrübəli döyüşçü kimi

vuruşdu. 17 milli qəhrəman var. Bunların heç biri siyahıya salınmayıb.

Qanun layihəsinə səs...

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Sahil müəllim, Siyavuş müəllimin dediyi birinci məsələ. Bu güzəştlərin hamısının çap olunduğu bir məcmuə var? Siyavuş müəllim bunu elə-belə demədi. Çünki hər birimiz seçki zamanı bununla üzləşdik. Buyurun.

**Sahil Babayev.** Hörmətli Sahibə xanım, hər halda Milli Məclis Aparatında bu məlumat var. 2020-ci ildə Zəfərimizdən sonra şəhid ailələrinə, müharibə əlillərinə verilən bütün təminatlara aid bukletlər, arayışlar təqdim olundu. Eyni zamanda, nazirliyin saytında "Zəfər sistemi" adlı bölmə yaradıldı. Orada hər bir kateqoriya üzrə hər şəhid ailəsinə, müharibə veteranına verilən bütün imtiyazlar göstərilibdir. Elektron şəkildə rahatlıqla əldə edə bilərlər.

Çox üzr istəyirəm, bir məsələyə də qısa toxunum. Bu, verilən heyvanlarla bağlıdır. Xahiş edirəm, araşdırılmamış məlumatlar verilməsin. Verilən hər bir aktiv, hər bir heyvan haqqında videoçəkiliş aparılır, təqdim olunan gün də sayta yerləşdirilir, Qida Təhlükəsizliyi Agentliyinin idxal sənədləri, xəstəliyə, sağlamlığa, baytarlığa dair bütün sertifikatları da orada olur. İstənilən fərd bizə demədən, ad-soyadını daxil etməklə saytda videoçəkilişləri görə bilər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hamı danışandan sonra mən Sizə söz verəcəyəm. Birinci məsələ ilə bağlı, Fərid müəllim, Sahil müəllim deyir ki, bukletlər verilib. Ümumiyyətlə, elektron variantları varsa, biz özümüz onları çap edək, lazım olanda deputatlara verək.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli qonaqlar. Dünən müzakirə etdiyimiz 2025-ci ilin büdcə layihəsi, eyni zamanda, bu gün müzakirə olunan fondların büdcələri göstərir ki, növbəti il sosial paket daha da dərinləşəcək və 2025-ci ildə sosial ekosistemin prinsiplərinə uyğun olaraq, sosial təminatın gücləndirilməsi prioritet olaraq qalacaq.

Mən qeyd olunan fondların büdcələri ilə bağlı fikirlərimi bölüşməmişdən öncə son zamanlar bir sıra sosial şəbəkələrdə bəzi marginal siyasi qrupların guya Azərbaycanda sosial göstəricilərin bəzi qonşu ölkələrlə müqayisədə pis olması ilə bağlı qərəzli fikirlərinə münasibət bildirmək istərdim. Əvvəla, Azərbaycan son illərdə ən çox müsbət sosial göstəricilərə malik ölkələrdən biridir. Sosial ölkələrdəki artım faizinə diqqət yetirsək, yalnız region ölkələrlə deyil, bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə Azərbaycan son illər sosial paketi ən çox dərinləşdirən ölkələrdəndir.

Eyni zamanda, sosial təminatı göstərən faktorlardan biri də sosial xərclərin ümumi daxili məhsuldakı payıdır. 2025-ci ildə dövlət büdcəsinin sosial xərcləri 17 milyard manata yaxın olacaq. Bu, ümumi daxili məhsulun 14 faizinə yaxın bir göstəricidir. Bu göstəriciyə görə, Azərbaycan hətta İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına, yəni OECD-yə üzv olan bir sıra ölkələrlə müqayisədə daha yaxşı göstəriciyə malikdir. Sosial xərclərin ümumi daxili məhsuldakı payı İrlandiyada 13,4 faiz, Koreyada 12 faiz, Çilidə 12,2 faiz, Türkiyədə 12 faiz, Meksikada 7,5 faizdir. Bu müqayisə göstərir ki, Azərbaycanda sosial xərclərin ümumi daxili məhsuldakı payı göstərici olaraq bir sıra OECD ölkələri ilə müqayisədə daha yüksəkdir.

Biz icmal büdcənin sosial xərclərini nəzərə alsaq, bu, bütövlükdə, OECD ölkələri üzrə orta, yəni 20 faizə yaxın bir göstəricidir.

2025-ci ildə dövlət büdcəsindən adambaşına düşən xərcin məbləği mövcud məcəllə ilə 2420 dollara qədər yüksələcək. Bu da regionda ən yaxşı göstəricilərdən biridir.

Azərbaycanda sosial təminatla bağlı digər mühüm məqam ondan ibarətdir ki, ölkəmizdə sosial təminat, eyni zamanda, sosial xərclərin maliyyələşdirilməsi dayanıqlıdır. Niyə dayanıqlıdır? Çünki bir tərəfdən, Azərbaycanın xarici borc asılılığı minimumdur və ölkəmiz xarici borcun ümumi daxili məhsuldakı payına görə MDB-də ən yaxşı göstəriciyə malikdir. Digər tərəfdən isə qeyri-resurs gəlirlərimiz bizim ümumi sosial xərclərimizi 25 faiz üstələyir. Yəni bu o deməkdir ki, əgər 2025-ci ildə bizim neft gəlirlərimiz olmasa belə, qeyri-resurs, yəni neftdən kənar gəlirlərimiz sosial xərcləri tam olaraq ödəmək imkanına malikdir. Bu rəqəmlər və göstəricilər, həmçinin müqayisə göstərir ki, son illər sosial təminatın yaxşılaşdırılması ilə bağlı aparılan və cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan sosial model ölkəsi olaraq regionda fərqli ölkələrdən birinə çevrilib.

Mən Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən sığorta fondu ilə bağlı qısa olaraq bir sıra təkliflərimi təqdim etmək istərdim. Əvvəla, pensiyaların hesablanmasında kəmiyyət göstəriciləri ilə yanaşı, həm də keyfiyyət göstəricisindən istifadə olunmasını təklif etmək istərdim. Çünki adətən pensiya məbləği hesablanan zaman pensiya kapitalı əsas götürülür. Amma pensiya kapitalı nisbətən az olan və pensiya kapitalı ilə bağlı tələbləri keçən vətəndaş-

larımızın pensiya məbləği də az olur. Ona görə daha məqsədəuyğun olardı ki, keyfiyyət göstəricilərindən istifadə edilsin. Məsələn, çoxuşaqlı ailələrə daha tez pensiyaya çıxmaq hüququ verilir. Bu, keyfiyyət meyarı olaraq, həm də o valideynlər üçün nisbətən yüksək pensiya məbləğinin müəyyənləşdirilməsinə gətirib çıxara bilər.

Cənab Prezidentin göstərişinə uyğun olaraq, Azərbaycanda pensiya amnistiyası tətbiq olunur. Bu o deməkdir ki, 2018-ci il iyulun 1-dək 1 manat yığımı olan hər bir vətəndaş əmək pensiyası almaq hüququna malikdir. Qeyd etmək istərdim ki, bu, regionda tətbiq edilən çox yeganə amnistiyalardan biridir.

Bütün bunlarla yanaşı, mən həm də vətəndaşlarımızın malik olduğu yığımın əmək pensiyası müəyyənləşdirilən zaman nəzərə alınmasını təklif edərdim. Bütövlükdə, hər iki fondun büdcə layihəsini dəstəkləyirəm və səs verəcəyəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Siz dediniz ki, hansı isə marginal qruplar tamamilə yanlış məlumatlar paylaşırlar. Sizin çox gözəl analitikanız var. Özünüz də paylaşa bilərsiniz. Biz hörmətli Musa müəllimlə bu məsələlərlə bağlı danışmışdıq. Musa müəllim, xahiş edirəm, Siz bir qrupla dediyimiz o diskusiyanı... İndi baxarıq, hansı formatda. Biz mütləq televiziyaya çıxmalıyıq. Çünki camaat bilməlidir ki, bu sahədə çox böyük işlər görülüb. Cəmiyyət, seçicilərimiz bunu bilməlidir.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Azərbaycanın İkinci Qarabağ müharibəsindən, sadəcə, postsovet məkanında suverenliyini təmin edə bilən yeganə dövlət kimi deyil, həm də daha böyük hədəflərə nail olmağa

qadir güclü və nüfuzlu bir dövlət kimi çıxmasını həzm edə bilməyən dövlətlər və qüvvələr hibrid müharibənin əksər elementlərini Azərbaycana tətbiq etməyə başlayıblar. Ona görə bu sahədə mövcud gücümüzü daha da artırmaqdan ötrü, təbii ki, hərbi, müdafiə, təhlükəsizlik xərclərimizin artırılması vacibdir. Amma belə bir şəraitdə – müharibədən sonra 4 milyon nəfəri əhatə edən və 7 milyard manat maliyyə tutumu olan bir sosial paket həyata keçirilib. Bu gün də sosial blokda 3 milyon nəfəri əhatə edən növbəti sosial paketin həyata keçirilməsi planlaşdırılır. Bundan ötrü Azərbaycanın 2025-ci il dövlət büdcəsində 17 milyard manata yaxın vəsait nəzərdə tutulub ki, bu da bütün büdcə xərclərinin 41 faizini təşkil edir. Hesab edirəm, sonradan bu rəqəm artırılacaq. Bu istiqamətdə vəsaitin 1,4 milyard manat artırılması nəzərdə tutulur. Bu kontekstdə qeyd etmək istərdim ki, həmin 1,4 milyard manat bilavasitə əhalinin güzəranının yaxşılaşdırılmasına yönəltmək, investisiyanın, süni qiymət artımının qarşısını almaq üçün əlavə tədbirlər görülməlidir ki, o vəsait əhalinin güzəranının daha dolğun şəkildə yaxşılaşdırılmasına yönəlsin. Çünki süni qiymət artımının hər faizi əhalinin büdcəsinə 500 milyon manata qədər mənfi təsir göstərir.

İkinci qeyd etmək istədiyim məsələ ondan ibarətdir ki, pensiya artırılan zaman orta əməkhaqqının artım tempi əsas götürülür. İndiyə qədər bu tempi nəzərə alaraq mən artımları müqayisə etmək istərdim. Burada səslənən məsələni də qeyd etmək istərdim ki, təxminən 8,3 faiz artımdan söhbət gedir. Amma hörmətli sədr, hələ ilin sonu deyil, ilin sonunda olan göstərici əsas götürüləcək. Ona görə, ola bilər, bu dəyişsin. Amma son illərin rəqəmlərini müqayisə edəndə orta əməkhaqqının artımı birrəqəmlidir-

sə, onda əlavə tədbirlər görülür. Səhv etmirəmsə, 2021-ci ildə orta əməkhaqqının artımı təxminən 9,3 faiz olub. O zaman ikirəqəmli səviyyəyə qaldırmaqdan ötrü əlavə 200 manat və ya hər rüb üçün 50 manat əlavə olundu. Bu, xeyli dərəcədə vətəndaş məmnunluğuna gətirib çıxardı. İndi 9,3 faizdən də aşağı, yəni 8,3 faizdən söhbət gedirsə, bir neçə il bundan qabaq həmin istiqamətdə atılan addımın yenə də təkrar olunması, hesab edirik ki, xeyli dərəcədə vətəndaş məmnunluğuna gətirib çıxarar.

Növbəti məsələ. Deyilir ki, minimum əməkhaqqı artırılacaq. Hörmətli sədr, minimum əməkhaqqı 200 manatdan 240 manata, 240 manatdan 280 manata, yəni hər dəfə 40 manat artanda pensiyaya çıxmaq üçün tələb olunan sığorta fondu da 6-7 min manat artır. Bu üsulla da pensiyaya çıxmaq istəyən adam minimum pensiya qalxan zaman artıq pensiyaya çıxmaq imkanını itirir, əlçatan olmur. O, qocalıq müavinətinə yuvarlanır. Hesab edirik ki, bu, pensiya sisteminin çox ciddi bir qüsurudur. Bunu aradan qaldırmaq üçün, mən inanıram ki, rasional bir sistem işləyib hazırlamaq olar.

Pensiya yaşı ilə bağlı gedən söhbətlərlə əlaqədar mən hesab edirəm ki, yenə də optimal variant tapmaq olar. Kim sağlamdırsa, onun sağlamlığı imkan verirsə, 65 yaşdan sonra da qalıb işləməsi, kiminsə sağlamlığı imkan vermirsə, 65 yaşdan da əvvəl pensiyaya çıxması üçün artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu istiqamətdə mütərəqqi addımlar atırlar. Sadəcə, həmin addımların genişləndirilməsini vacib hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Bizə

təqdim edilən 2025-ci il üçün Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən sığorta fondunun layihələri Azərbaycanın 2025-ci il dövlət büdcəsinin sosial yönümlü olduğunu bir daha təsdiq edir. Hər iki fondun gələn il üçün əsas vəsaitlərinin artması göstərir ki, bu istiqamətdə böyük işlər görülür. Əlbəttə, iqtisadiyyat gücləndikcə, yeni iş yerləri açıldıqca, sahibkarlığa diqqət artdıqca Dövlət Sosial Müdafiə Fonduna da ayırmaların həcmi artır. Bu isə pensiyaların və minimum əməkhaqqının artmasına şərait yaradır.

Gələn il üçün səsləndirilən rəqəmlər sevindiricidir. Əlbəttə, gözləyirik ki, ildən-ilə həm minimum əməkhaqqı, həm də minimal yaşayış səviyyəsi artacaq. Bunun üçün böyük işlər görülür. Bildirmək istəyirəm ki, əhalinin işlə təminatı məsələsində dövlətimiz tərəfindən mühüm işlər görülür. Hörmətli cənab nazir burada qeyd etdi. Əmək yarmarkalarının, eyni zamanda, özünüməşğulluq proqramlarının həyata keçirilməsi bu istiqamətdə görülən işlərdən biridir.

Bununla belə, mən hesab edirəm ki, gələn il üçün özünüməşğulluq proqramına cəlb olunacaq şəxslərin sayının 100 min nəfər olması azdır. Bunun daha da çoxalması, daha da genişlənməsi barədə düşünməyə dəyər. Eyni zamanda, özünüməşğulluq proqramının hər bir rayona eyni sayda ayrılması praktikası da düzgün deyil. Rayon var ki, işə tələbat daha çoxdur və bu tələbat nəzərə alınaraq buna diferensial yanaşma düzgün olardı.

İki məsələni birlikdə müzakirə edirik. Bununla bağlı bir neçə təklifimi bildirmək istəyərdim. Peşə təhsili mərkəzlərinin hər bir şəhər və rayon mərkəzində yaradılması olduqca vacibdir. Bu regional mərkəzlərdən artıq hər bir

rayona ayrılmalıdır. Eyni zamanda, "ASAN" xidmət, DOST xidməti kimi mərkəzlərin də hər bir şəhər və rayonda kiçik, yaxud da böyük formada olması çox vacib bir məsələdir. Bu forma özünü doğruldub, əhali tərəfindən müsbət qarşılanır.

Həmçinin pensiya təyinetmə məsələsinə "Bir pəncərə" prinsipinin tətbiq edilməsi. Vətəndaş özü müraciət etmədən, bürokratiya olmadan ona pensiya təyin edilməsi də pensiya təminatında müsbət bir hal kimi qeyd edilə bilər. Mənə də deputat kimi pensiya təminatı ilə bağlı ara-sıra müraciətlər olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edərkən operativ və obyektiv cavab alıram. Buna görə nazirliyin kollektivinə öz təşəkkürümü bildirirəm.

Bir neçə təklifimi səsləndirmək istəyirəm. Təkliflərdən birini hörmətli həmkarım Əli müəllim Məsimli bildirdi. Qadınlar üçün pensiya yaşının azaldılması məsələsinin hökumət tərəfindən nəzərdən keçirilməsini düzgün hesab edirəm. Düzdür, ola bilsin ki, indiki dövrdə pensiya fondunda olan vəsaitlər buna o qədər də imkan vermir. Amma gələcəkdə xüsusilə qadınlar üçün pensiya yaşının 1-2 yaş azaldılmasını düzgün hesab edərdim.

İkincisi. Yenə də Əli müəllim səsləndirdi, təşəkkürümü bildirirəm. Pensiya yaşına çatan insanların işləmək qabiliyyəti olduqda onların işdə saxlanma məsələsinə baxılmasını təklif edirəm. Bununla bağlı tək mənə deyil, bütün deputatlara müraciətlər edilir. Pensiya yaşına çatan kimi insanların iş qabiliyyəti nəzərə alınmadan pensiyaya göndərilməsi bəzən ailənin gəlirinə, ailənin müəyyən planlarına mənfi təsir göstərir.

Hər il ölkədə orta əməkhaqqı artdıqca o faizə uyğun

olaraq, yanvar ayından pensiyalar da artır. Təqribən bu, 10 faiz edir. Amma burada bir ədalətsizlik var. İş burasındadır ki, ayda 10 min manat pensiya alanın da, 300 manat pensiya alanın da pensiyası 10 faiz artır. Halbuki 300 manat pensiya alanın artıma daha çox ehtiyacı var. Ona görə də mən bu məsələyə diferensial bir yanaşma təklif edərdim. Ayda təqribən 7-10 min manat pensiya alanın pensiyası ildə 10 faiz deyil, 4 faiz artsın. Beləcə biz ayda 300 manat pensiya alanın pensiyasını 10 faiz deyil, 14-15 faiz artıra bilərik. Çünki onun üçün 20-30 manat olduqca böyük bir rəqəm hesab edilə bilər. Əlbəttə, bu, təklifdir...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Sosial sahə, təbii ki, ən çox hədəfdə olan sahələrdən biridir. Çünki bəzən cəmiyyətin aktiv işlə təmin olunan hissəsinin əhəmiyyətli səviyyədə işlə təmin olunmaması problemi qarşımıza çıxır. Ona görə biz də millət vəkili olaraq seçiciləri qəbul edərkən çox vaxt orada bir lövhə asırıq ki, “xahiş edirik, işlə bağlı bizə müraciət etməyəsiniz”. Çünki işlə bağlı müraciət olursa, biz məşğulluqla bağlı dövlət qurumuna yönəldirik. O vətəndaş da ikinci, üçüncü dəfə geri qayıdır ki, orada mənə lazım olan iş təklifi olmadı. Ona görə də mən yenidən bu məsələ ilə bağlı müraciət edirəm. Bunun mütləq yolunu tapmaq lazımdır.

Mən hesab edirəm ki, bizdə bir çox hallarda xüsusi islahatlar barədə düşünülürsə, müvafiq qurumlar bizim Hesablama Palatasının rəyində yer alan irad və tövsiyələrə həssas yanaşsalar, bu gün xeyli boşluqları aradan qaldırmaq mümkündür. Mən xüsusilə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi ilə bağlı Hesablama Palatasının rəyinin

peşəkarlığını təqdir edirəm. Bildiyiniz kimi, bizdə Dövlət Sosial Müdafiə Fondunun büdcə xərcləri 7,6 milyard manat nəzərdə tutulur. Gəlirlərin də 1,6 milyard manatı dövlət büdcəsindən ora transfer olunur.

Burada bir şeyi qeyd etməliyik ki, indiki dövrə qədər bu fəaliyyətlərdə irəliləmə özünü nədə göstərməlidir? Məsələn, TƏBİB yaradıldı, səhiyyə sahəsində xeyli işlər görüldü, bu sahədə müəyyən problemlərin aradan qaldırılmasında rolu oldu. İcbari tibbi sığorta tətbiq etdik, çox sayda insanların sosial xarakterli yükünü azaltmış olduq. Amma nədənsə bu sahədə həyata keçirilən bir sıra islahatların nəticəsi olaraq biz o yükün azaldığını hələ də müşahidə etmirik.

Digər vacib məsələlərdən biri odur ki, biz Dövlət Sosial Müdafiə Fonduna investisiya hüququ verdik və bu investisiyanın həcmi elə də kiçik deyil. 599 milyon manat investisiya qoyuldu və bu il proqnozlaşdırılan rəqəm 47 milyon manatdır. Qanunvericilikdə də nəzərdə tutduq ki, bu vəsait şəhid ailələrinə, işğaldan azad olunmuş ərazilərdə əziyyət çəkmiş və əlil kateqoriyası olan insanlara yönəldilsin. Bununla bağlı, təbii ki, müəyyən işlər görülür. Amma biz yaradılan qurumların səmərəliliyi məsələsinə bir daha baxmalıyıq. Məsələn, DOST Mərkəzi ilə bağlı məsələni dəfələrcə burada qaldırmışıq. Bura daha çox İşsizlikdən sığorta fondundan vəsait ayrılır. 87 milyon manat vəsait bura üçün nəzərdə tutulur. Bəs özünüməşğulluq proqramının həlli istiqamətində səmərəli iş görə bilməməyin səbəbi nədir? Bizim formalaşdırdığımız publik hüquqi şəxs bu yükü götürmək imkanına sahib deyil. Bizdə hər şey sahibkarlığın inkişafından asılıdır. Biz daha çox bura ayrılan vəsaitləri elə sahibkarlığın inkişa-

fına yönəltmiş olsaq, məncə, daha böyük məsafə qət edə bilərik və daha çox imkanlar əldə etmək mümkündür.

Burada ayrı-ayrı kateqoriyadan olan insanlara müavinətin verilməsi məsələsi var. Dəfn üçün müavinət və uşaqların doğumuna görə birdəfəlik müavinət artırıldı. Ancaq məncə, burada kateqoriyaları ayırmaq lazımdır. Yəni işsiz, imkanı olmayan şəxslər üçün doğulan uşağa görə standart 500 manatın verilməsi, məncə, düzgün, ədalətli sayılmır. Çünki biz demoqrafik siyasətlə bağlı stimullaşdırıcı addım atmırıq. Bildiyiniz kimi, bizdə yaşlı əhalinin saytı artır, doğum faizi aşağı düşdüyünə görə isə gənc əhalinin sayı azalmaqdadır. Ona görə də biz, heç olmasa, bu vasitə ilə doğulan uşağa görə birdəfəlik müavinətin verilməsini, eyni zamanda, 3 yaşına çatmamış uşaqlara qulluqla bağlı vəsaitin artırılmasını təmin etməliyik. Burada, həmçinin hamiləlik və doğuma görə də vəsaitin artırılması vacibdir. Çünki əgər biz sayın artmasını stimullaşdırmırıqsa, heç olmasa, alt qatda bu problemlərdən əziyyət çəkən insanlar üçün vəsaiti artırmağımız yerinə düşərdi.

Ümumiyyətlə, müharibədən sonrakı dövrdə bu sistemdə çox böyük işlər görüldü. Mən təqdir edirəm, amma görülməyən işlər də çoxdur. Mütləq bu boşluqları aradan qaldırmaq vacibdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Öncə mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyevə, eyni zamanda, hörmətli cənab nazir Sahil Babayevə ətraflı çıxışlarına görə təşəkkürümü bildirirəm.

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında və İşsizlikdən sığorta fondunun 2025-ci il büd-

cəsi haqqında layihələrlə bağlı demək istəyirəm ki, birincidə hesabatlılıq xeyli genişləndirilibdir. Bu, şəffaflıq baxımından son dərəcə önəmlidir. İkincidə isə artıq Naxçıvan Muxtar Respublikasının göstəriciləri də bura salınıb. Bu da tam mənzərə yaradır ki, bunu müsbət məqam kimi qiymələndirirəm.

Hər il sosial sahəyə ayırmalar artır və bu ayırmaların içərisində şəffaflığın ayrıca rolu var. Biz bir neçə ildir ki, ardıcıl olaraq bu sahədə, doğrudan da, böyük şəffaflıq tədbirlərinin görüldüyünün, böyük təşkilatçılıq işlərinin şahidi oluruq və bunu yüksək qiymətləndirməyə bilmərik.

Az öncə hörmətli Vüqar müəllim vurğuladı. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvləri içərisində sosial sahəyə ayrılan xərclərin ümumi daxili məhsulda yeri, faizi bizdə bir çox ölkələrdən yüksəkdir. Amma o ölkələrdən heç biri bu gün Azərbaycanın üzləşdiyi çağırışlarla üz-üzə deyil. 2025-ci ilin dövlət büdcəsində də var. Azərbaycan məhz 4 milyard manat vəsaiti işğaldan azad olunmuş torpaqlarda hay-vandallarının törətdiyi vəhşiliklərin aradan qaldırılmasına yönəldir. Azərbaycan indiki dövrdə elə bir reallıqlarla, elə təhdidlərlə üz-üzədir ki, özünün müdafiə qabiliyyətini artırmaq üçün büdcədən ayrılan vəsaitin, büdcə xərclərinin 20 faizdən çoxu buna yönəldilib. Bu baxımdan bunu nəzərə almalıyıq. Həmçinin biz Avropanın inkişaf etmiş ölkələrinin təcrübəsində də gördük ki, azacıq iqtisadi çətinliklə üzləşən kimi sosial müavinətlər azaldıldı. Amma Azərbaycan ən çətin anlarda belə, 2015-ci ildə belə heç vaxt sosial müavinətləri azaltmayıb. Burada da cənab Prezidentin sözü ilə əməlinin üst-üstə düşdüyünü bir daha görürük. Bəli, doğrudan da, Azərbaycan vətəndaşı Azərbaycan dövlətinin diqqət

mərkəzindədir. Bunu xüsusi vurğulamaq istərdim.

Burada Dövlət Sosial Müdafiə Fondunun şəhid ailələri üçün, eyni zamanda, müharibə zamanı əlillik dərəcəsi alanlar üçün mənzillərin, yaşayış evlərinin ayrılması məsələsinə də toxunuldu. Bu baxımdan Ağdaşda vəziyyət müsbətdir. Ona görə hörmətli nazirə təşəkkürümü bildirirəm. Son 4 ildə bu qəbildən olan ailələr üçün 42 fərdi ev tikilib. Rayonun özündə, Bakıda, Abşeronda və Gəncədə çoxmərtəbəli binalarda 30 mənzil verilib. Əgər bu dinamika davam etdiriləcəksə, yaxın perspektivdə növbədə duranların, bu kateqoriyadan olan insanların hamısı, demək olar ki, mənzillə təmin ediləcək. Bu da yüksək alqışa layiq haldır. Lakin cənab nazirin diqqətinə bir məsələni də çatdırmaq istəyirəm ki, 2014-cü ildə Ağdaşın Pirəyir kəndində, təqribən şəhərin bir neçə yüz metrliyində şəhid ailələri və müharibə əlilləri üçün 35 evdən ibarət yaşayış kompleksi tikilib. Onlardan 14-nün orderi verilib, amma köçən yoxdur. Çünki su, elektrik xətləri çəkilməyib. 21-nin su orderi verilməyib. Burada bir çox şəhid ailələri və qazilər istəyirlər ki, onların da şəxsi həyətlərində olsun. Ola bilər ki, bu, nəzərə alınsın.

Eyni zamanda, Ağdaşda tibbi kadr çatışmazlığı var. Təqribən 30-a yaxındır. Bəlkə o kadr çatışmazlığını nəzərə alaraq o kompleksdə onlara güzəştli şərtlərlə həmin evləri vermək olar. Order verilən binalarda isə sakinlərin tez bir zamanda öz mənzillərinə köçmələrini arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, iclasımız bu gün bitdi, sabah davam edəcəyik. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***26 noyabr 2024-cü il.***

**Ağalar Vəliyev.** Qalib dövlət və qalib xalq olaraq müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın möhtərəm Prezidetimiz cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilən dayanıqlı inkişafı təmin edilib. Ağır geosiyasi və geoiqtisadi mənzərə fonunda ölkəmizə qarşı yönələn təhdidlərə və təzyiqlərə baxmayaraq, hörmətli dövlət başçımız tərəfindən qarşıya qoyulan proqram xarakterli vəzifələr uğurla icra olunur və yeni hədəfləri müəyyənləşdirən sistemli islahatlar ardıcıllıqla həyata keçirilir.

Zənnimcə, bu baxımdan müzakirəmizə təqdim olunan Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi dövlətimizin qarşısında day müasir çağırışlara cavab verəcək səviyyədə yüksək p karlıqla hazırlanıb. "Büdcə sistemi haqqında" Qanuna və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olan və beynəlxalq təcrübəyə əsaslanan yeni büdcə zərfi iqtisadi siyasətimizin prioritet istiqamətləri nəzərə alınmaqla mükəmməl tərtib olunub. Hesab edirəm ki, güclü dövlət, güclü iqsadiyyat və güclü ordu konsepsiyasını ehtiva edən və müstəqillik tariximizin ən böyük dövlət büdcəsi olan bu qanun layihəsi kifayət qədər nikbin ssenariyə əsaslanır və makroiqtisadi sabitlik şərtlərinə cavab verir.

Gəlirləri və xərcləri artımla proqnozlaşdırılan yeni büdcənin parametrlərindən danışarkən layihədə iqtisadi strategiyanın müddəalarının, milli inkişaf prioritetlərinin, maliyyə ehtiyaclarının vaxtında qarşılanmasının nəzərə alınmasını, mühüm strateji vəzifələrin daxili imkanlar hesabına reallaşdırılmasını, büdcə dayanıqlılığının təmin edilməsi üçün fiskal və qeyri-fiskal tədbirlərin paralel həyata keçirilməsini xüsusi olaraq vurğulayardım.

Müvafiq dövlət proqramlarının və infrastruktur layihələrinin maliyyələşdirilməsini, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsini, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasını və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsini, həmçinin qeyri-neft sektorundan əldə olunan gəlirlərin ümumi büdcə gəlirlərində payının artırılmasını 2025-ci və sonrakı üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin əsas istiqamətləri və hədəfləri kimi xarakterizə edərdim. İnvestisiyatutumlu olması ilə yanaşı, daha bir prioritet istiqamət kimi büdcənin sosial yönümlülüyünün təmin edilməsini, vətəndaşların rifahının yaxşılaşdırılmasına və onların sosial müdafiəsinin gücləndirilməsinə yönələn xərclərin artırılmasını yüksək dəyərləndirərdim.

Büdcə müzakirəsi kontekstində seçicilərimin ölkə rəhbərinə ünvanladığı çoxsaylı minnətdarlıq hisslərini ifadə edərək böyük məmnunluqla qeyd etmək istərdim ki, hər zaman cənab Prezidentin diqqəti və qayğısı ilə əhatə olunan və millət vəkili kimi təmsilçisi olduğum Xaçmaz rayonunun son illər ərzində sosial-iqtisadi inkişafının sürətləndirilməsi və infrastrukturun təkmilləşdirilməsi istiqamətlərində xeyli işlər görülüb.

Bununla belə, rayonun həlli vacib olan bəzi problemləri

hələ də qalmaqdadır ki, hökumət üzvlərinin buradakı iştirakından istifadə edərək onları səsləndirmək istərdim. Belə ki, 16 minə yaxın əhalinin yaşadığı 20 kəndi birləşdirən 52,3 kilometr uzunluğunda Köhnə Xaçmaz–Bəbəli–Xəzərli–Müşkür–Uzunoba–Tikanoba avtomobil yolunun asfaltlanmasına, Niyazoba, Qarabağlı, Əbilyataq, İlxıçı, Qaraçı, Cığatay kəndlərinin elektrik enerjisi təchizatı sistemində yenidənqurma işlərinin aparılmasına, qəzalı vəziyyətdə olan Qaradağlı, İlxıçı, Armudpadar, Qobuqıraq, Xaspoladoba məktəblərinin əsaslı təmir olunmasına çox ehtiyac vardır.

Ümidvaram ki, sadaladığım problemlərin həllinə köməklik göstərilməsi üçün mövcud imkanlar daxilində zəruri vəsaitin ayrılmasına Nazirlər Kabineti tərəfindən baxılacaq və bu istiqamətlərdə respublikanın aidiyyəti qurumları tərəfindən müvafiq tədbirlər görüləcək.

Əminəm ki, büdcə-vergi siyasətimizin prioritet istiqamətlərini özündə ehtiva edən yeni ilin büdcəsi Azərbaycanın dinamik inkişafının təmin edilməsi istiqamətlərində qarşıda duran mühüm vəzifələrin layiqincə yerinə yetirilməsinə möhkəm zəmin yaradacaq. Vurğuladığım bütün bu məqamları, eləcə də digər aspektləri nəzərə alaraq 2025-ci ilin büdcə zərfinə daxil olan qanun layihələrinin dəstəklənməsini məqsədəuyğun sayıram.

**Anar Məmmədov.** Son illər ərzində Prezident İlham Əliyev tərəfindən sistemli şəkildə həyata keçirilən məqsədyönlü və düşünülmüş islahatlar nəticəsində ölkəmizin bütün regionlarında iqtisadiyyatın sürətli inkişafı, insanların yaşayış şəraitinin yaxşılaşdırılması, işsizliyin azaldılması, sabitliyin möhkəmləndirilməsinin təmin edilməsi istiqamətində bir çox işlər həyata keçirilmişdir. Çox

sevindirici haldır ki, millət vəkili seçildiyim ərazidə də abadlıq-quruculuq işləri geniş miqyas almış, uzun müddət əsaslı şəkildə təmir olunmayan yolların yenidən qurulması işləri sistemli şəkildə davam etdirilmişdir. Bu da sakinlərin sosial rifah halına müsbət təsir göstərməklə avtomobillərin hərəkətinin təhlükəsizliyinə zəmin yaradaraq yük və sərnişin daşınması asanlaşdırılmışdır. Lakin bəzi sahələr vardır ki, onların həlli məsələsi bu gün də narahatlığa zəmin yaradır və vətəndaşların müraciətləri məsələlərin həlli istiqamətində real addımlar atmağa böyük ehtiyac duyulduğunu təsdiq edir.

Hörmətli cənab Baş nazir, təmsil olunduğum 97 saylı Tərtər–Ağdərə–Goranboy seçicilərinin, xüsusən də şəhid ailələrinin işıq xətlərinin, yol infrastrukturunun bərpası və inkişafı ilə bağlı müraciətlərini diqqətinizə çatdırır və bu istiqamətdə mümkün olan diqqəti ayırmağınızı Sizdən xahiş edirik. Belə ki, Tərtər rayonunun Seydimli, Cəmilli, Dəmirçilər, Kovdadır, Rəcəbli, Bildirçinlər, Sarov kəndlərində kənddaxili yolların asfaltlanması, həmçinin rayonun Xoruzlu, Kəbirli, Bayandurlu, Bəyimsarov, Goranboy rayonunun Yeniyol, Xanqərvənd, Əlirzalı kəndlərində işıq xətlərinin kabelləşdirilməsi vətəndaşların üzləşdiyi bir çox problemlərin aradan qaldırılmasına kömək etmiş olardı. Arzu olunardı ki, həmin ərazilərdə asfaltlanmanın davam etdirilməsi, işıq xətlərinin kabelləşdirilməsi, mövcud xətlərin yeni xətlərlə əvəz olunması, insanların yaşayış şəraitinin və rahatlığının təmin edilməsi məqsədi ilə infrastrukturun qurulmasına maliyyə vəsaiti ayrılsın. Səsləndirdiyim müraicətlərin təcili şəkildə həlli şəhid ailələrinin daha rahat şəkildə hərəkətinə imkan yaratmış olar.

Hörmətli Baş nazir, Ağdərə rayonunun Narıncdar, Qarabəyli, Sırxavənd, Məlikli, Çərəktar kəndlərindən olan seçicilərimiz doğma yurdlarına qayıdış prosesi zamanı kompakt halda öz kəndlərində və rayon mərkəzində məskunlaşmaq istərdilər. Zəhmət olmasa, seçicilərimizin bu müraciətini də nəzərə alardınız.

**Əlibala Məhərrəmzadə.** Azərbaycan Respublikası ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra uğurla yeni dövr missiyasının icrasına start verib. Bu missiya ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi ilə yanaşı, əhalinin sosial rifah halının bir qədər də yaxşılaşdırılmasını, qarşıda duran sosial-iqtisadi proqramların müvəffəqiyyətlə həyata keçirilməsini, bir sözlə, Azərbaycanın yeni inkişaf mərhələsində qarşıya qoyduğu strateji hədəflərin reallaşdırılmasını nəzərdə tutur. Şübhəsiz, bu prosesdə ölkə parlamenti də öz sözünü deməli, yeni dövrün prioritetlərinin icrasında sanballı rolunu oynamalıdır. 2025-ci ilin dövlət büdcəsi zərfi ətrafında gedən müzakirələr gələcəyə olan baxışımızın formalaşdığını və Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaq məqsədi ilə yaxın illər üçün atacağımız praktik və praqmatik addımların istiqamətlərinin müəyyənləşdirildiyini göstərir.

Bu tezislə tamamilə razıyam ki, 2025-ci ilin dövlət büdcəsi iqtisadi inkişaf, dayanıqlılıq və inklüzivlik təməlləri üzərində qurulmalıdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan 30 il işğal altında qalan ərazilərini azad etdikdən sonra sosial-iqtisadi inkişaf göstəricilərinin yüksəldilməsi istiqamətində davamlı addımlar atır və mövcud resurslar inkişaf prosesini gələcəkdə də davam etdirə biləcəyimizdən xəbər verir. 2025-ci

ildə respublikada adambaşına düşən ÜDM-in 7412 dolları təşkil edəcəyinə, inflyasiyanın cəmi 4,6 faiz olacağına, dövlət büdcəsinin xərclərinin isə təxminən 41,4 milyard manat təşkil edəcəyinə dair proqnozlar iqtisadi inkişaf perspektivlərinin real rəqəmlərə əsaslandığını tam şəkildə təsdiqləyir.

Azərbaycan dövləti neçə ildir ki, sosial yönümlü siyasi kursa üstünlük verir və bu özünü büdcə xərcləri zərfində sosial sektora maliyyənin hər il artırılmasında əyani göstərir. Növbəti 2025-ci il üçün də sosial yönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və ümumi büdcə xərclərinin 41 faizini təşkil etməsi bir daha sübut edir ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının maraqları dayanır. Minimum əməkhaqqı və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində atılan addımlar, pensiyaların indeksləşdirilməsi, sosial paketin, ümumilikdə, 3 milyon insana şamil edilməsi ilə bağlı proqnozlar sosial siyasətin dövlət üçün prioritet səciyyə daşıdığının real ifadəsidir.

Bu gün ölkə vətəndaşlarının sosial rifah halının daha da yaxşılaşdırılması, əhalinin məşğulluq problemlərinin həlli, işsizlik və yoxsulluq səviyyəsinin bir qədər də aşağı endirilməsi üçün konkret proqramlar icra edilir və həmin proqramların real nəticələrini hər kəs görür. Xüsusilə işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin tapşırıqları əsasında yeni şəhər, qəsəbə və kəndlərin salınması, azad edilən bölgələrin infrastruktur mənzərəsinin tamamilə dəyişdirilməsi və yenilənməsi keçmiş məcburi köçkünlərin doğma yerlərinə qayıdışı prosesini sürətləndirəcək. Bu nöqteyi-nəzərdən

2025-ci ilin büdcə layihəsində sözügedən region üçün 4 milyard manat vəsaitin nəzərdə tutulması Böyük Qayıdış prosesinə təkan verməklə bərabər, Qarabağ və Şərqi Zəngəzura qayıdacaq əhalinin məskunlaşmasına və məşğulluğun təmininə də müsbət təsir göstərəcək.

Təbii, Qarabağ və Şərqi Zəngəzurun bərpası dövlət üçün prioritet olsa da, dövlət başçısı digər regionlarımızın da inkişafına hər zaman diqqət yetirir. Xüsusilə 2003-cü ildən etibarən həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları, sözün əsl mənasında, bölgələrin simasını dəyişdirir və yeni dövrün tələblərinə uyğun olaraq, qeyri-neft sektorunun inkişafına yeni imkanlar açır. Bu üstünlüklər təmsilçisi olduğum Quba rayonunun nümunəsində də özünü göstərir. Prezident İlham Əliyevin Quba rayonuna səfərləri, 2021-ci il dekabrın 6-da rayonda səfərdə olarkən Olimpiya İdman Kompleksində, Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə və Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olması, həmçinin "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin və Quba–Qonaqkənd avtomobil yolunun açılışlarında iştirakı Qubanın sosial-iqtisadi inkişafına dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyinin gerçək ifadəsidir. Adını çəkdiyim komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına da ciddi təkan verir.

Onu da xatırlatmaq istərdim ki, 2025-ci ilin büdcə layihəsində təhsil xərclərinə 4 milyard 946,1 milyon manatın ayrılması proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat, yəni 8,7 faiz çoxdur. Bundan başqa,

səhiyyə xərcləri üçün dövlət büdcəsindən 1 milyard 999 milyon manat vəsait ayrılacaq ki, bu da 2024-cü illə müqayisədə 7,1 faiz çoxdur. Əlbəttə, təhsil və səhiyyə infrastrukturunda keyfiyyət göstəricilərinin yüksəldilməsi Quba rayonu üçün də spesifiklik daşıyır. Məsələn, Prezidentin iştirakı ilə açılışı olan Rayon Mərkəzi Xəstəxanası və Regional Perinatal Mərkəz, tibb məntəqələri, Ailə Sağlamlıq Mərkəzi, eləcə də Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Quba bölməsi, Gigiyena və Epidemiologiya Mərkəzi və digər səhiyyə strukturları Quba sakinlərinə keyfiyyətli tibbi xidmət göstərmək üçün bütün imkanların səfərbər edildiyindən xəbər verir. Lakin insanların tibbi xidmətlərdən istifadə əlçatanlığını artırmaqdan ötrü rayonun ən ucqar bölgələrində də yeni tibb məntəqələrinin yaradılması və müasir avadanlıqlarla təchiz olunması mühüm vəzifə kimi qarşıda durur.

Düşünürəm ki, büdcə zərfində sosial layihələrə ayrılan vəsait və ümumilikdə, büdcənin sosial yönümlü olması bu problemlərin həlli üçün böyük imkanlar açır. Eləcə də, təhsil göstəricilərini yaxşılaşdırmaq üçün rayon kəndlərində yeni məktəblərin, xüsusilə də modul tipli məktəblərin tikilməsinə nail olunmalıdır ki, bu prosesdə Ulu Öndərin adını daşıyan və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun özünəməxsus rolu var.

Quba rayonunun sosial-iqtisadi inkişafının əsas istiqamətləri, o cümlədən rayon üzrə su resurslarının düzgün istifadəsi, əhalinin içməli su təminatının yaxşılaşdırılması, habelə daxili avtomobil yollarının müasirləşdirilməsi, rayonlararası yolların isə beynəlxalq standartlara uyğunlaş-

dırılması məsələləri də hər zaman diqqət mərkəzindədir. Quba rayonu həm də ölkəmizin mühüm turizm zonalarından biridir. Hesab edirəm ki, rayonda sosial-iqtisadi infrastruktur layihələrinin icrası turizm sektorunun da inkişafında əhəmiyyətli rol oynaya bilər. Ölkə Prezidentinin bu sahələrə həssas münasibəti büdcə zərfində sosial-iqtisadi layihələrə ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsi ilə tamamlanmalıdır. Yeni dövrün tələbləri də məhz bunu stimullaşdırır.

**Göydəniz Qəhrəmanov.** Qeyd edim ki, 2025-ci ilin dövlət büdcəsinin hazırlanmasını çox peşəkar və uğurlu hesab edirəm, qəbul olunması üçün səs verəcəyimi öncədən bildirirəm.

Hər il artan maliyyə gəlirlərimiz və dövlət büdcəsinin güclənməsi cənab Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin bəhrəsidir. Dövlət büdcəsində yer alan istiqamətlər sosial, müdafiə və təhlükəsizlik, Qarabağ və Şərqi Zəngəzurun bərpası, səhiyyə, gənclər, idman, mədəniyyət və sair sahələri əhatə edir. Nəzərdə tutulmuş Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsində bütün sahələrə yetərincə diqqət ayrılıb və əminəm ki, gələn il də ölkəmiz üçün uğurlu olacaqdır.

Noyabr ayında uğurla keçirilən COP29 Azərbaycanın dünyaya bir daha ciddi və güvənli ölkə olduğunu sübut etdi. Bu, cənab Prezidentin dünyanın siyasi arenasında nüfuzu, daxili və xarici siyasəti uğurla idarə etməsinin nəticəsidir.

Fürsətdən istifadə edərək millət vəkili seçildiyim Yasamal rayonu, Haqverdiyev 1 ünvanında yaşayan sakinlərin xahişini "Azəristiliktəchizat" ASC-nin diqqətinə çatdırmaq istəyirəm. 30 ilə yaxındır ki, qazı olmayan 16

mərtəbəli panel binada 64 ailə yaşayır. Hazırda binanın istilik sistemində çətinliklər mövcuddur. Belə ki, mənzillərin istilik boruları çəkilib və ərazidə qazanxana üçün yer ayrılıb. Lakin qazanxananın tikilməsində çətinliklər var. Nəzərinizə çatdırım ki, qış aylarında hər mənzil işığın istifadəsinə təxminən 300-400 manat ödəniş edir. Bu, həm onların ailə büdcələrinə yükdür, həm də təhlükəsizlik baxımından risklər yaradır. Binanın elektrik xətləri yüklənir və hər an yanğına səbəb ola bilər. Qeyd olunanları nəzərə alaraq "Azəristiliktəchizat" ASC-dən xahiş edirəm, bu məsələnin həllində köməklik göstərsinlər.

**Kamaləddin Qafarov.** Ötən illər ərzində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən iqtisadi siyasət xətti, respublikanın ümumi sosial-iqtisadi inkişaf strategiyası sayəsində Azərbaycanda makroiqtisadi sabitlik təmin edilmişdir. Ölkəmizdə maliyyə dayanıqlılığı xeyli möhkəmlənmiş, iqtisadi inkişaf sahəsində qarşıya qoyulmuş yeni məqsədlərə nail olmaq üçün əlverişli zəmin yaranmışdır. Bütün bu müsbət tendensiyalar öz təzahürlərini 2025-ci ilin dövlət büdcəsi layihəsində aydın şəkildə tapıb.

Mənimlə razılaşarsınız ki, ilk növbədə, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi dövlət büdcəsinin əsas prioritet xərci olaraq qalmalıdır. Bununla yanaşı, Azərbaycanın qlobal enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rolunun getdikcə artmasını nəzərə alsaq, yaşıl enerjiyə keçid sahəsində irimiqyaslı layihələrin icrasına da, əlbəttə, kifayət qədər vəsait ayrılmalıdır. Bu günlərdə öz işini başa çatdırmış COP29-un nəticələrinə uyğun olaraq, Azərbaycanın qarşısında duran mühüm vəzifələrin də icrasının bir qismi

bu xərclər hesabına həyata keçirilməlidir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdış planının təmin edilməsi də 2025-ci ilin dövlət büdcəsinin layihəsində əsas istiqamətlər kimi müəyyən olunub. Bu istiqamətdə də növbəti ildə dövlət büdcəsindən vəsait ayrılmasında artım vardır.

2025-ci ilin dövlət büdcəsi, əvvəlki illərdə olduğu kimi, yenə də sosial yönümlü olaraq proqnozlaşdırılmışdır. Növbəti ildə əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə və tibbi xidmətlərə əlçatanlığının daha da artırılması əsas istiqamətlərdəndir. Möhtərəm Prezident cənab İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında etdiyi çıxışı zamanı ölkə qarşısında duran əsas vəzifələri elan edib. Eyni zamanda, dövlət başçısının sosial-iqtisadi siyasətinin istiqamətləri də müəyyən olunub. Təhlillər göstərir ki, dövlət büdcəsi xərclərində bu istiqamətlər nəzərə alınıb. Hərbi xərclərin artırılmasını dəstəkləyirəm, indiki zamanda bu bizim üçün çox vacibdir. Sosial yönümlü xərclərin ilk dəfə olaraq 1370 milyard manat artırılaraq ümumi xərclərin 41 faizinə çatdırılması əhalinin sosial rifahının yaxşılaşması baxımından müsbət haldır.

Ölkənin ərzaq təhlükəsizliyinin etibarlı və dayanıqlı təminatı üçün büdcə resurslarının artırılması, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi məsələləri də 2025-ci ilin dövlət büdcəsində kifayət qədər nəzərə alınıb.

Keçən həftə ərzində komitələrdə keçirilən müzakirələr, bu müzakirələrə hökumət üzvlərinin cəlb olunması dövlət büdcəsinin bütün parametrlərinin geniş müzakirəsinə imkan yaratdı. Təqdim olunmuş dövlət büdcəsinin layihəsi həcm etibarı ilə son illərin ən böyük büdcəsidir. 2025-ci il

ÜDM-nin 29,7 faizini təşkil edən 38,3 milyard manatlıq gəlir, ÜDM-in 32 faizini təşkil edən 41,3 milyard manatlıq xərc ilə dövlət büdcəsi layihəsi kifayət qədər mühüm bir sənəddir.

Bunlar növbəti il və sonrakı 3 il üçün proqnozlaşdırılan makroçərçivə gəlirlərin bu çərçivəyə uyğunluğu, xərclərin dövlət və cəmiyyət qarşısında duran çağırışlarla uzlaşması, kəsirin riski və büdcə qaydasına əməl olunmasıdır. Birincisi, cari ilin sonunda ölkədə ÜDM-in 4,2 faiz, qeyri-neft sektorunun isə 6,4 faiz böyüməsi, orta illik inflyasiyanın 2,7 faiz olması, əhalinin real gəlirlərinin 4,5 faiz artması, fikrimizcə, yaxşı göstəricidir.

Növbəti ildə ÜDM artım tempinin 3,5 faiz, qeyri-neft sektorunun 4,9 faiz proqnozlaşdırılması da reallığı əks etdirir. Cari ildə iqtisadi artıma, məcmu tələbin artımına təkan verən sahələrin və amillərin təhlili bu qənatə gəlməyə əsas yaradır. Neftin qiymətinin 70 dollardan götürülməsi reallığa çox yaxındır. Beynəlxalq təşkilatlar da 2025-ci ildə neft qiymətləri üzrə proqnozu 70-80 dollar arasında veriblər.

Beləliklə, bütün bu aspektləri təhlil etdikdə 2025-ci il dövlət büdcəsi layihəsinin növbəti ildə dövlət və cəmiyyət qarşısında duran məsələlərin həllinə lazımi maliyyə təminatının yaradacağı əminliyi yaranır. Bunları nəzərə alaraq Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsini dəstəkləyirəm.

**Malik Həsənov.** Bu gün müzakirəmizə təqdim olunan 2025-ci il üçün dövlət büdcəsi layihəsi bu il də plenar iclasa qədər həm komitələrdə, həm də ki, ictimaiyyət arasında geniş müzakirə olunmuşdur. Builki büdcədə, hər

il olduğu kimi, sosial yönümlü və minimum əməkhaqqının, minimum pensiyanın, bütün növ müavinətlərin artımı nəzərdə tutulur. Bu da öz növbəsində on milyonluq ölkənin təxminən üç milyon insanının rifah halının müəyyən qədər yaxşılaşdırılmasına kömək edəcəkdir. Növbəti büdcə ilində də dövlət büdcəsinin həm mədaxil, həm də məxaric hissəsinin artımı proqnozlaşdırılır. Bu da ölkə iqtisadiyyatının inkişaf səviyyəsinin real təzahürüdür.

Bu günə qədər işğaldan azad olunmuş torpaqların bərpasına dövlət büdcəsindən, ümumilikdə, 17,5 milyard manat vəsait xərclənmişdir. Növbəti ildə də bu istiqamətdə 4 milyard manatın yatırılması nəzərdə tutulmuşdur. Hesab edirəm ki, bu, qarşımıza qoyduğumuz 2026-cı ilə qədər olan dövrdə yüz minə yaxın insanın qayıdışının təmin edilməsində vacib faktordur. Onu da nəzərə alsaq ki, artıq işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərinə təkcə pul xərcləmirik, eyni zamanda, həmin bölgənin potensialından və resurs imkanlarından yararlanmaqla ilkin gəlirlər əldə etməyə başlamışıq. Artıq elə həssas bir mərhələyə daxil olmuşuq ki, imkanlardan səmərəli istifadə etsək, çəkilən xərclərin miqdarı azalacaq, paralel olaraq əldə edilmiş gəlirlərin miqdarı dinamik şəkildə artacaqdır.

Dövlət büdcəsindən müdafiə xərcləri maddəsi üzrə vəsaitin artırılması təbiidir. Bu gün dünya ordularında insan resursu amili get-gedə ikinci plana keçir, ağıllı silahlara və peşəkar hərbçilərə əsaslanan ordu modelinə keçid baş tutur. Bu mənada gələcək illərdə ölkəmizdə yeni yaranmış müdafiə universitetinin potensialı artırılmalıdır, getdikcə peşəkar ordu modelinə keçmək zəruridir.

Təbiidir ki, bütün bunlara nail olmaqdan ötrü elm və təhsilə ayrılan vəsait hər il hiss oluna biləcək səviyyədə

artırılmalıdır. Hesab edirəm ki, növbəti il üçün təqdim edilmiş büdcə layihəsi orta müddətdə qarşımıza qoyduğumuz başlıca hədəflərə çatmağa imkan verən səviyyədədir.

Bir neçə cümlə ilə təmsil etdiyim Cəlilabad rayonunun problemlərinə toxunmaq istərdim. Cəlilabad rayonu aqrar potensialına görə ölkəmizin ən öndə gedən bölgələrindəndir. Bununla belə, rayonda mühüm infrastruktur layihələrin keçirilməsi vacibdir. Bunlar içərisində orta ümumtəhsil məktəblərinin inşası və təmiri, qaz təchizatı ilə bağlı məsələlərin yekunlaşdırılması, elektrik təsərrüfatının yenilənməsi, yolların təmiri və digər bu kimi məsələlər həllini gözləyən əsas problemlərdəndir. Təbiidir ki, ən böyük problem işsizlik və işlə təminolunma ilə bağlıdır. Fürsətdən istifadə edərək hökumət üzvlərindən xahiş edərdim ki, həmin problemlərin bir qisminin həllinə dəstək olsunlar.

**Mehriban Vəliyeva.** 2024-cü il Azərbaycanın tarixinə ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra ilk seçkilər ili və tarixi COP ili kimi daxil oldu. Qərbin bütün ciddi cəhdlərinə baxmayaraq, ölkəmiz yeni bir qələbəyə imza atdı. Azərbaycanın COP29-a sədrlik dövrü bir il də dünyanın diqqətini ölkəmizə çəkəcək və Qoşulmama Hərəkatına sədrliyinin uğur təcrübəsi ilə bu dəfə də dünyada yeni bir siyasi arxitektura formalaşdıracaq. Bu yeni Zəfər münasibəti ilə başda Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva olmaqla xalqımızı, COP29-un təşkilat komitəsini, əməyi keçən hər kəsi təbrik edir, yeni dövrdə Azərbaycanımıza yeni-yeni zəfərlər arzulayıram.

2025-ci ilin dövlət büdcəsi layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"

üzrə 5 milli prioritet istiqamətində dövlət proqramlarının, islahatların icrasını və büdcə dayanıqlılığını nəzərdə tutur. Gəlir və xərclərin, ayrı-ayrı sahələr üzrə büdcənin ilbəil artımı Azərbaycanın davamlı iqtisadi inkişafını əks etdirir. Təbii ki, büdcə bölgüsü prioritetləşdirilərək təqdim olunmuşdur. Müdafiə və təhlükəsizlik, sosial müdafiə və sosial təminat sahəsində büdcə artımı milli təhlükəsizlik və sabitliyin qorunması, əhalinin sosial rifahının yaxşılaşdırılması kimi mühüm dövlət siyasətinin reallaşdırılmasına hesablanmışdır. Dövlət büdcəsinin hazırlanması və təqdimatına görə hər kəsə təşəkkür edir, lehinə səs verəcəyimi bildirirəm.

Təmsil etdiyim 44 saylı Sumqayıt 3-cü seçki dairəsinin seçicilərinin qaldırdıqları məsələlərin bəzilərini diqqətinizə çatdırmaq istərdim. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı üzrə Dövlət Proqramı nəticəsində Azərbaycanın hər yerində sürətli inkişaf hiss edilməkdədir. Sumqayıt şəhəri ölkəmizin böyük şəhərləri sırasında sürətli inkişafına görə fərqlənir və sənaye şəhəri kimi nəinki respublikamızda, Cənubi Qafqazda belə tanınır.

Sumqayıtda mənzil fondunun balansında 61 yataqxana mövcuddur. Bu yataqxanaların əksəriyyətinin istismar vaxtı bitmişdir. Müvafiq dövlət proqramına görə, 2023–2028-ci illər ərzində qəzalı binaların köçürülməsi ilə bağlı tədbirlər görülür. Bu tədbirlər çərçivəsində 2023-cü ildə yataqxanalardan 3-ü sökülmüş, 272 ailə evlə təmin olunmuş, yaxud kompensasiya ödənilmişdir. Mərhələli şəkildə sökülməsi nəzərdə tutulan bu yataqxanalardan 42-ci məhəllədə yerləşən 11, 16 nömrəli yataqxanalar təhlükəli vəziyyətdədirlər. Həmin yataqxanaların, xüsusilə 16 nömrəli yataqxananın təhlükəli vəziyyətini nəzərə alaraq növ-

bəti ilin büdcəsində onun köçürülməsinin prioritetləşdirilməsini xahiş edirəm.

Sumqayıtın inkişafı onun böyüməsinə və əhali sayının artmasına da təsir edir. Yeni yaşayış massivləri yaranır. Təbii, belə yaşayış massivlərində yeni sosial problemlər də olur. "Yaşıl dərə" yaşayış massivi bu qəbildəndir. Yaşayış massivinin kommunal-məişət və sosial problemləri kompleks yanaşma tələb etdiyindən, ola bilər ki, tam həllinin büdcədə nəzərdə tutulması mərhələli yanaşma tələb etsin. Bunu nəzərə alaraq "Acı dərə" kanalının massivə düşən son açıq hissəsinin qapalı sistemə salınmasını (bununla bağlı layihə-smeta sənədi də hazırlanıb), kanalizasiya və yol çəkilişinin imkan daxilində növbəti ilin büdcəsində nəzərə alınmasını hökumətdən xahiş edirəm.

Sumqayıtda gənclərin peşə hazırlığı, məşğulluq probleminin həlli də ümdə məsələlərdəndir. Sənaye Texnologiyalar Parkı nəzdində peşə təhsili məktəbinin yaradılması dövlət-peşə hazırlığı-sənaye tərəfdaşlığı çərçivəsində sənayeyə uyğun peşə hazırlığı modelinin gözəl nümunəsidir. Sumqayıtda iki Peşə Təhsil Mərkəzi mövcuddur. Bunlardan Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzində məskunlaşmış keçmiş məcburi köçkünlər öz yurdlarına köçürüldükdən sonra oranın yenidən qurulmasına ehtiyac var. Bunun imkan daxilində növbəti ilin büdcəsində nəzərə alınmasını xahiş edirəm.

**Məzahir Əfəndiyev.** Birləşmiş Millətlər Təşkilatının tamhüquqlu üzvü olan Azərbaycan hər zaman beynəlxalq təşkilatların çağırışlarına yüksək diqqətlə yanaşıb, elan olunan qlobal mövzulara dair böyük tədbirlərin keçirilməsinə dəfələrcə ev sahibliyi edib.

2014-cü ildə Azərbaycan ilk dəfə BMT-nin prioritet elan etdiyi beş sahədən biri olan dünya gənclər siyasətinin müəyyənləşməsində yaxından iştirak edərək ilk dəfə dünyada gənclər siyasətinə dair "Bakı Kommünikesi"nin qəbul olunduğu "Gənclər Siyasəti üzrə birinci Qlobal Forumu"na (1st Global Youth Policy Forum) ev sahibliyi edib. Daha sonra 2016-cı ildə Bakı şəhəri dünyanın 140 ölkəsindən yüksək səviyyəli nümayəndələrin iştirak etdiyi, tolerantlıq və multikulturalizmin inkişafına xidmət edən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə keçirilən bu kimi qlobal tədbirlər BMT-nin Azərbaycana və müdrik xalqımıza nəinki inamını yüksəltdi, eyni zamanda, BMT ölkələrinin Azərbaycanın daha böyük qlobal tədbirlərə ev sahibliyi etməsi ilə bağlı gözləntilərini artırdı. Əlbəttə, bu, təsdüfi deyil. Azərbaycanın BMT-nin 4 qətnaməsini təkbaşına icra edərək öz suverenliyinin bərpası istiqamətində nümayiş etdirdiyi iş bu gün də dünyanın qabaqcıl beyin mərkəzlərinin diqqətindədir.

Bu baxımdan, ötən il BMT-nin ən mötəbər tədbiri olan COP29-un gözəl paytaxtımızda keçirilməsi üçün konvensiya tərəfdaşları yekdilliklə Azərbaycana səs verdilər. Bu kimi böyük, mötəbər tədbirlərin həyata keçirilməsinə hazırlıq müddətinin iki il və daha çox olmasına baxmayaraq, Azərbaycanda bu tədbirə hazırlıq cəmi 11 ay ərzində həyata keçirildi. Uğurla və yüksək peşəkarlıqla görülən işlərin məntiqi nəticəsidir ki, bu yüksək səviyyəli tədbir çərçivəsində 196 ölkədən 70 mindən çox iştirakçı Azərbaycana səfərə gəldi. Bu tədbir, eyni zamanda, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər tərəfin-

dən yekdilliklə qəbul olunmuş, 17 məqsəd və 169 hədəfi əhatə edən “Dayanıqlı İnkişaf Məqsədləri” (DİM) universal sənədinin 17-ci məqsədinin (Məqsədlər üçün tərəfdaşlıq) uğurla həyata keçirilməsini ortaya qoydu.

Keçirilən COP29 tədbirlərində bir daha bəyan olundu ki, inkişaf etmiş superdövlətlər inkişafda olan və yaxud ehtiyacı olan dövlətlərə iqlim dəyişikliyi ilə mübarizədə yardım etməlidirlər. Bu çağırış isə DİM-in 13-cü (iqlim dəyişikliyinə qarşı mübarizə), 16-cı (Sülh, ədalət və səmərəli institutlar) və 17-ci məqsədlərinin həyata keçirilməsinin vacibliyini əsaslandırmış oldu.

Qeyd edim ki, Azərbaycan BMT-dən sonra dünyada ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatına dörd ilə yaxın müddətdə rəhbərliyi zamanı Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına çox böyük önəm vermiş və hazırda ölkəmiz bu məsələlərin həyata keçirilməsi üçün BMT-yə DİM-in icrasına dair 4-cü Könüllü Milli Hesabatı təqdim edən beş ölkədən biridir.

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti iqlim dəyişikliyi fonunda dayanıqlılıq nümayiş etdirilə bilməsi üçün bu dövlətlərə köməyin vacibliyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Həmin sammitdə çıxışı zamanı Prezident İlham Əliyevin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərməsi ilə bağlı sözləri ölkəmizin hər zaman qlobal problemlərin həllində yaxından iştirak etdiyinin əyani sübutudur. Bu baxımdan, təsadüfi deyil ki, COP29-un ardınca Azərbaycan BMT-nin 2026-cı ildə 13-cü Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəkdir. Xüsusilə Qarabağ və

Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edildiyindən 2026-cı ildə Azərbaycan nəinki işğaldan azad olunmuş ərazilərdə yenidən qurulan müasir, "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarının nümayişini həyata keçirəcək, eyni zamanda, alternativ enerjinin yeni şəhərsalma standartları ilə uyğunluğunu ortaya qoyacaqdır.

Müzakirə olunan Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsinin lehinə səs verəcəyimi bildirirəm.

**Musa Qasımlı.** 2025-ci ildə hədəflərimizə çatmağı, dövlətimizin daha qüdrətli olmasını və vətəndaşın daha rahat yaşayışını təmin etməyi özündə əks etdirdiyi üçün möhtərəm cənab Prezidentimiz Zati-aliləri İlham Əliyev tərəfindən təqdim edilmiş büdcə layihəsinin lehinə səs verəcəyəm. Gələn il dövlət büdcəmizin gəlirlərinin və xərclərinin artımının nəzərdə tutulması ölkəmizin daha da inkişaf edəcəyini göstərir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və vətəndaşlarımızın dədə-baba torpaqlarına qayıtmaları dövlətimiz və millətimiz üçün ən vacib məsələlərdən biri olduğundan büdcə layihəsində xüsusi yer ayrılması seçicilərimizin ürəyindəndir. İnkişafımızın və vətəndaşın təhlükəsiz yaşayışının təmin edilməsi ilə bilavasitə bağlı olan dövlətimizin müdafiəsi və milli təhlükəsizliyinin etibarlı qorunmasına ayrılan məsrəflərin artırılması milli dövlət maraqlarımızın tələbidir. Layihədə sosial yönümlü xərclərin artırılmasının proqnozlaşdırılması dövlətimizin həssas təbəqələrdən olan insanlara qayğısının təsdiqidir. 2025-ci ildə dövlət büdcəsindən təhsil almaq üçün xərclərin artırılmasının nəzərdə tutulması təhsilin hamı üçün əlçatan olmasına dair möhtərəm cənab

Prezidentimiz İlham Əliyevin siyasətinin təzahürüdür.

Sonda 75 saylı Yardımlı-Masallı seçki dairəsindən olan seçicilərimin istəklərini hörmətli hökumətimizin nəzərinə çatdırmağı özümə borc bilirəm. Dairəyə daxil olan, lakin qazlaşdırılmayan kəndlərə qaz xətlərinin çəkilməsi meşələrin qırılmasının, bulaqların qurumasının qarşısını almağa kömək etməzdimi? Yardımlı rayonunun Şəfəqli kəndinə qaz xətti çəkilsə də, indiyədək evlərə qaz verilməməsinin səbəbləri nə üçün aradan qaldırılmayıb? Hər iki rayonda elektrik xətlərinin kabelləşdirilməsindən ötrü müvafiq quruma ayrılan vəsaitin artırılması necə olardı? Bəzi kənd və qəsəbələrdə yeni məktəb binalarının tikintisinə, köhnələrinin isə təmirə ehtiyacı vardır. Həmin məktəblərin siyahısı Elm və Təhsil Nazirliyində olduğu üçün təkrarlamağa ehtiyac görmürəm. Yardımlı rayonunda iri heyvandarlıq komplekslərinin yaradılmasına vəsait ayırmaq yeni iş yerlərinin açılmasına, məşğulluğa kömək etməzdimi? Sərhəd rayonlarının sosial-iqtisadi inkişafına dair xüsusi proqramların qəbul edilməsi xeyirli olmazdımı?

**Nigar Məmmədova.** 2025-ci ilin dövlət büdcəsi layihəsi iqtisadi inkişafı, dayanıqlılığı və inklüzivliyi özündə ehtiva edir. Layihə cənab Prezidentin müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri özündə əks etdirir. Gözlənildiyi kimi, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaq. Sosial yönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyinin təsdiqidir. Şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial mü-

dafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcək.

Eyni zamanda, çoxşaxəli artımları nəzərdə tutan sosial tədbirlər paketinin icrası təqdirəlayiqdir. Növbəti ildə minimum əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcək ki, bu da sosial siyasətin uğurla icrasının bariz nümunəsidir. Bir sözlə, ötən illərdə olduğu kimi, 2025-ci il dövlət büdcəsi də iqtisadi və sosial tərəqqiyə hesablanır.

Büdcə siyasətinin prioritetlərini nəzərə alaraq deputat seçildiyim 48 saylı Abşeron 1-ci seçki dairəsində mövcud olan sosial problemlərin bir qismini diqqətinizə çatdırmaq istəyirəm. Sözügedən ərazidə bütün sahələr üzrə kompleks işlər görülür, bununla belə bəzi yolların ötürücülüyündə mövcud olan problemlər nəqliyyatın təmin olunmasında çətinliklər yaradır. Həmçinin yolların təmirsiz olması nəqliyyat vasitələrinin tez sıradan çıxmasına səbəb olur. Söhbət, əsasən, Abşeron rayonunun Qobu, Hökməli, Atyalı, Nübar və digər qəsəbələrindən gedir.

Eyni zamanda, rayon üzrə kanalizasiya xətlərinin olmaması və ya boruların istifadəyə yararsız olması sakinləri narahat edən əsas problemlərdən biridir. Belə ki, Xırdalan şəhəri və adını qeyd etdiyim qəsəbələrdə, xüsusilə yağışlı havadan sonra yaranan gölməçələr uşaqların və sakinlərin məktəb və ya işə getməsinə çətinlik yaradır.

Qəsəbələrdə poliklinikaların müasir standartlara cavab verməməsi, həkim sayının əhali sayına uyğun olmaması mərkəzi xəstəxanada daimi növbələrin yaranmasına səbəb olur.

Ölkədə idmanın kütləviliyinin vacibliyini nəzərə alaraq hesab edirəm ki, Abşeron rayonunun bir sıra qəsəbələrində gənclərin idmana marağının artırılması üçün meydança-ların qurulmasına ehtiyac var. Eyni zamanda, mədəniyyət evlərinin dövlət balansına alınmaması, burada istilik sisteminin olmaması mədəni tədbirlərin keçirilməsinə də mane olur.

Daha bir məsələ. Əkinə yararlı torpaqların özəl şəxslərə verilməsi səbəbindən əhali əkinçiliklə və heyvandarlıqla məşğul ola bilmir.

Seçicilərimlə görüşdə qaldırılan məsələlərdən biri də icazəsiz tikildiyi üçün bəzi mənzillərin qeydiyyat problemi ilə bağlıdır. Eyni zamanda, sənədsiz evlərdə sayğacların olmaması da əlavə çətinliklər yaradır.

Təmsil olunduğum dairəni əhatə edən ərazilərdə mək-təblərin sayının azlığı, eyni zamanda, bu təhsil müəs-sisələrinin müasir standartlara cavab verməməsi də həllini gözləyən problemlərdən biridir.

Rayonda xalçaçılıq, dərzilik ənənələrinin bərpası üçün yeni sənaye müəssisələrinin qurulmasına da ehtiyac var. Məsələn, Hökməli qəsəbəsində insanlar öz şəxsi mənzil-lərində bu fəaliyyətlə məşğul olurlar.

Rayonda narahatlıq yaradan problemlərdən biri də sahibsiz itlərlə bağlıdır. Belə ki, bu heyvanların baxımsız-lığı, qidalanma problemi, həmçinin uşaqların onlarla düzgün rəftar etməməsi narahatlıq yaradır. Üstəlik, bu cür baxımsız heyvanlar əlavə xəstəlik mənbəyidir ki, bu da əhalinin təhlükəsizliyinə təhdiddir.

Sonda bir daha 2025-ci ilin dövlət büdcəsi layihəsini dəstəkləyirəm.

Nurlan Həsənov. Bu gün biz burada ölkəmizin siyasi və

iqtisadi gələcəyinin kifayət qədər önəmli məsələlərindən biri barədə müzakirə aparırıq. Dövlət büdcəsi yalnız gəlir və xərclərdən ibarət olan rəqəmlərin əks olunduğu bir sənəd deyil, o, siyasi prioritetlər, gələcəyimiz naminə əsaslı qərarlar üçün baza rolunu oynayır.

İlk növbədə, dövlət büdcəsi bir məsuliyyətdir. Bu məsuliyyəti dərk etmək yalnız bu gün üçün deyil, həm də ölkədə yaşayacaq gələcək nəsillər üçün önəmlidir. Biz dövlət büdcəsi barədə qərarlar verərkən yalnız indiki dövrün tələblərini deyil, həm də gələcəyi hesablamalıyıq, ona uyğun fəaliyyət göstərməliyik və hansı uğurlar əldə etdiyimizi qiymətləndirməliyik.

Gənclərimizin yüksək səviyyədə təhsil alması cənab Prezident İlham Əliyev tərəfindən daim diqqətdə saxlanılmışdır. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” qəbul edilmişdir. Əlbəttə, hamımız bilirik ki, sabahın dünyası bu günün texnologiyaları və ideyaları ilə formalaşmayacaq. Beynəlxalq rəqabət qabiliyyətimizi qorumağımız üçün gələcəyə doğru atılacaq ən mühüm addımlardan biri təhsilə və elmi tədqiqatlara yatırım etməkdir. Bu baxımdan biz dünyanın inkişaf etmiş dövlətlərinin təcrübələrindən daha səmərəli şəkildə faydalana bilərik. Buna görə də, xüsusilə regionlarımızda təhsil müəssisələrini, universitetləri və tədqiqat institutlarını maliyyələşdirməyə daha çox diqqət etməli olduğumuzu düşünürəm. Ulu Öndər Heydər Əliyevin bizə miras qoyduğu “Təhsil millətin gələcəyidir!” kəlamını unutmamalıyıq. Elmi tədqiqatlara daha çox vəsait ayırmaq gələcəyin texnoloji inkişafına və elmi tərəqqisinə dəstək vermək deməkdir. Lakin bu vəsaitlərdən səmərəli, ölkə-

mizin gələcək inkişafına fayda verə biləcək şəkildə istifadə olunmalıdır.

Digər tərəfdən, öz qiymətləndirməmizi aparmalıyıq, özümüzə sual verməliyik: elmi tədqiqatlara ayrılan vəsaitlər nəticəsində biz ötən illər ərzində hansı uğurları əldə etdik? Əgər uğurlar varsa, biz bu vəsaitləri daha da artırmalıyıq. Əgər yoxdursa, bu vəsaitlərdən daha səmərəli şəkildə necə istifadə etmək barədə yenidən düşünməliyik. Yeni Lütfizadələr, Yusif Məmmədəliyevlər yetişdirmək üçün, ölkəmizin adını elm sahəsində yüksəltmək üçün, yeni elmi nailiyyətlər əldə etmək üçün elmi tədqiqatlara ayrılan vəsaitlərdən səmərəli istifadə önəmlidir.

Azərbaycan xalqı tarix boyu yeni kəşflər etməyi bacaran xalq olmuşdur. Azərbaycan alimlərinin kəşfləri həm ölkə daxilində, həm də beynəlxalq aləmdə elmin inkişafına mühüm töhfələr vermişdir. Bu baxımdan regionlarda təhsil üçün infrastrukturun yaxşılaşdırılması, xüsusilə məktəblərin təmiri və isidilməsi kimi problemlərin birdəfəlik həllinə nail olunması önəmlidir. Biz bununla regionlarımızda gənc nəslə öz potensialını ortaya çıxara bilməsi üçün bərabər şans yaratmış olarıq.

Sonda Şəmkir rayonunda yerləşən Heydər Əliyev Mərkəzinin işıq və qazla təchizatı üçün mövcud maliyyə problemlərinin aradan qaldırılması məqsədi ilə hökumətin dəstək verməsini xahiş edirəm. Hökumətə gələcək fəaliyyətində uğurlar arzu edirəm.

**Pərvin Kərimzadə.** Bir neçə gün öncə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına uğurla ev sahibliyi etdi. COP29-un yekununda qəbul edilən qərarlar

bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Azərbaycan noyabrın 11-də start götürən və qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etmişdi. Rəsmi Bakı yüksək səviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Aidiyyəti qurumların yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbul etməsi bunun bariz göstəricisidir. Ölkəmiz COP29-u yüksək səviyyədə təşkil etməklə beynəlxalq birliyə iqlim çağırışları ilə bağlı müzakirələrin aparılması üçün böyük bir platforma təqdim etmiş oldu.

Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi altında quruculuq işləri, ardıcıl iqtisadi islahatlar, irimiqyaslı və böyük maliyyə tutumlu layihələr həyata keçirilir. Azərbaycan tarixinin ən qüdrətli və qürurlu dövrünü yaşayırıq. 2020-ci il Zəfərindən sonra regionda yeni reallıq yaradan Azərbaycan yeni strateji mərhələdə də uğurla inkişaf edir. Təqdim olunan 2025-ci il büdcə layihəsi prioritet istiqamətlərinə uyğun olaraq, mövcud qanunvericiliyin tələblərini nəzərə alaraq hazırlanmış, eyni zamanda, müasir çağırışları özündə ehtiva edir. 2025-ci ildə büdcənin yenidən sosial yönümlü olması sosial təminatın gücləndirilməsi tədbirlərinin gələn il də intensiv şəkildə davam edəcəyindən xəbər verir. Gələn ilin dövlət büdcəsində praktik olaraq bütün göstəricilərdə keyfiyyət baxımından artımlar var. Təbii, sosial yönümlülüyünü qoruyub saxlamış, qeyri-neft sektorunun inkişafını, qeyri-

neft ixracını nəzərdə tutan büdcə layihəsinə səs verəcəyəm.

Təqdim olunan büdcə layihəsində prioritetlər olduqca dəqiq və strateji kontekstdə müəyyənləşdirilir. Bunlardan biri, əlbəttə, Böyük Qayıdışla bağlıdır. Hər kəsə bəllidir ki, 30 ilə yaxın işğal atında olan tarixi torpaqlarımızda Azərbaycan xalqının illərlə formalaşdırdığı maddi, mədəni, mənəvi irs, evlərimiz dağıdılıbdır. Onların bərpasına ehtiyac var idi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində torpaqlarımız azad edildikdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinə başlandı. Qısa müddət ərzində nəhəng işlər görüldü. İnfrastrukturun, kommunikasiyaların bərpa olunması istiqamətində çox mühüm işlər həyata keçirildi. Beynəlxalq hava limanları istifadəyə verildi, maddi-mədəni abidələrimiz bərpa edildi və edilir. Böyük Qayıdış sürətlə davam edir.

Büdcədə nəzərdə tutulan əsas strateji məsələlərdən biri, bəlkə də birincisi, şübhəsiz ki, müdafiə və təhlükəsizliklə bağlıdır. Bu istiqamətdə də mühüm işlər həyata keçirilir. Eyni zamanda, büdcədə təhsil və elmə ayrılan vəsaitin artırılması nəzərdə tutulmuşdur ki, bu da olduqca təqdirəlayiq haldır.

Ötən illər ərzində təkcə işğaldan azad olunmuş ərazilərdə deyil, bütün iqtisadi zonalarda mühüm işlər görüldü, abadlıq, quruculuq işləri həyata keçirildi. Bütün sosial layihələr uğurla davam etdirilir. Bu, bir daha göstərir ki, Azərbaycanın iqtisadiyyatı dayanıqlıdır və inklüzivdir.

Sonda təmsil etdiyim Gəncə şəhəri ilə bağlı bir neçə məsələni hökumət üzvlərinin diqqətinə çatdırmaq istərdim. Birinci məsələ seçildiyim dairənin Sadıllı qəsə-

bəsində yerləşən 17 nömrəli orta məktəblə bağlıdır. Məktəbin əsaslı təmirə və ətrafının abadlaşdırılmasına ciddi ehtiyac var.

Digər məsələ Məhsəti qəsəbəsində yerləşən 21 nömrəli məktəblə bağlıdır. Şagird sıxlığını nəzərə alaraq əlavə binanın tikilib istifadəyə verilməsinə ehtiyac var.

Üçüncü məsələ Gəncədə yolların asfaltlanması ilə bağlıdır. Gəncə böyük şəhərdir, hər il Gəncəyə vəsait ayrılır, amma bu vəsaitin artırılmasına ehtiyac vardır. Ümidvaram ki, bu məsələ öz həllini tapacaq və Gəncə şəhərində bir çox küçə və prospektlər asfaltlanacaq.

**Ramil Həsən.** Ucar rayonunda vətəndaşların qaldırmış olduğu həlli vacib məsələləri büdcə müzakirəsi zamanı sizin diqqətinizə çatdırmaqdan məmnuniyyət hissi duyuram. Ucar rayonunun yerləşdiyi coğrafi mövqeyini, strateji əhəmiyyətli Bakı-Tbilisi avtomobil və dəmir yolları nəqliyyatının tam mərkəzində yerləşməsini logistik cəhətdən xüsusi əhəmiyyətli olduğunu nəzərə alaraq, rayonun ərazisində əhalinin işlə təminatına böyük töhfə verə biləcək respublika əhəmiyyətli müəssisənin salınmasını təklif edirik.

Eyni zamanda, rayonun 20 Yanvar küçəsində, Ucar Pambıq Emalı Zavodunun ərazisində mövcud stadion hazırda yararsız vəziyyətdədir və istifadə olunmur. Zavodun rəhbərliyi ilə aparılan danışıqlar zamanı müvafiq dövlət qurumu məqsədəuyğun hesab edərsə, balansdan çıxarılaraq həmin ərazidə Ucar rayonu üçün idman kompleksinin tikilməsinə etiraz etmədiklərini vurğulayırlar. Bu baxımdan bu günə qədər Ucar rayonu ərazisində hər hansı bir idman qurğusunun, idman kompleksinin, eyni zamanda, olimpiya kompleksinin olmadığını nəzərə alaraq yüz minə

yaxın əhalisi olan Ucar kimi böyük bir rayonda belə bir idman kompleksinin məhz Ucar Pambıq Emalı Zavodunun balansında yararsız və istifadəsiz olan stadionda salınmasının çox böyük faydası olacağının, gənclərin asudə vaxtlarını səmərəli keçirməsinə, idmanımızın inkişafına böyük töhfə verə biləcəyinin nəzərə alınmasını qeyd etməliyik.

İcrasına 2011-ci ilin oktyabrında başlanmış "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması" layihəsi 2013-cü ilə qədər davam etdirilmiş, lakin kanalizasiya sisteminin çəkilişi tamamlanmamışdır. Şəhərin mərkəzi və ara küçələrində antisanitar vəziyyətin günbəgün artdığını nəzərə alaraq rayonun kanalizasiya sisteminin yenidən qurulmasının vacibliyini qeyd etməliyik.

Rayonun elektrik təsərrüfatının yararsız vəziyyətdə olmasını, şəhərin küçələrinin gecə işıqlandırmasının olmamasını, Ucar şəhərinin və kəndlərinin elektrik xətlərinin yenilənməsi və kabelləşməsi işlərində də çox böyük ləngimələrin olmasını, son beş ildə, ümumilikdə, rayonda cəmi iki kənddə kabelləşmə işlərinin görülməsini, bir kənddə isə elektrik xətlərinin kabelləşməsi işlərinin başlanmasını, başlanılmış işlərin 2025-ci ildə də davam etdirilməsi ilə bağlı əlavə tədbirlərin görülməsini və büdcədə nəzərə alınmasının vacibliyini qeyd etməliyik.

Rayonun Qaracallı kənd 1 saylı tam orta məktəbinin, Bağırbəyli kənd ibtidai məktəbinin binaları şagirdlərin təhsil almaları üçün yararsız vəziyyətdədir. Hər iki təhsil müəssisəsinin yenidən tikilməsi üçün tədbirlər görülməlidir.

Həmçinin rayonun kəndlərində fəaliyyət göstərən bütün mədəniyyət müəssisələrinin və uşaq bağçalarının inzibati

binalarının yenilənməsinə ehtiyac vardır. Qeyd olunan məsələlərin həlli üçün xərclərin büdcədə nəzərdə tutulmasını xahiş edirik.

Daha sonra bildirmək istəyirəm ki, Bakı–Qazax magistral avtomobil yolu çəkilərkən Müsüslü kəndi ərazisində bir neçə yerdə əvvəllər mövcud olmuş, sel və daşqınlar üçün, həmçinin suların axıdılması üçün nəzərdə tutulmuş irihəcmli borular çıxarılmış, lakin yenisi ilə əvəz olunmamışdır, bu da hazırda kənd əhalisinin həyətyanı və pay torpaq sahələrinin qrunt suları altında qalmasına səbəb olmuşdur. Rayonun torpaqları şoranlaşmaya daha çox məruz qaldığı üçün kənd təsərrüfatı və digər təyinatlı torpaqlarda meliorativ tədbirlər görülməsi vacibdir.

Rayonun Qaracallı, Qaradağlı, Bağırbəyli kəndlərinin avtomobil yolları, eləcə də Göyçay rayonunun Qaraməryəm, İnçə, Alpout kəndlərini Ucar rayonunun Müsüslü kəndi və Bakı–Qazax magistral avtomobil yolu ilə birləşdirən Müsüslü–Qaraməryəm yolu  tamamilə yararsız vəziyyətə düşdüyü üçün əhalinin gediş-gəlişində böyük çətinliklər yaranır. O cümlədən Mərkəzi Aran bölgəsində Ucar rayonunun torpaqları şoranlaşmaya daha çox məruz qaldığı üçün rayonun kənd təsərrüfatı və digər təyinatlı torpaqlarında meliorativ tədbirlərin görülməsinin də 2025-ci ilin büdcəsində nəzərə alınmasını istərdik.

Ucar rayonunda yuxarıda qeyd etdiyim məsələlərin aradan qaldırılması ilə bağlı xərclərin növbəti ilin büdcəsində nəzərə alınmasını xahiş edirəm.

**Rizvan Nəbiyev.** 2025-ci ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji hədəflərə uyğun olaraq, dövlətimizin suverenliyinin müdafiəsi və beynəlxalq münasi-

bətlər sistemində mövqeyinin daha da möhkəmləndirilməsinin təmini üçün zəmanətdir. Məhz indiyədək ayrılan büdcə vəsaitləri çərçivəsində ölkəmizin davamlı inkişaf sahəsindəki nailiyyətləri Azərbaycanı onun mövqeyi ilə hesablaşmalı olunan nüfuzlu dövlətə çevirmişdir.

2023-cü ilin sentyabrında öz suverenliyini tam bərpa edən Azərbaycan BMT üzvü olan 193 dövlət arasında azsaylı dövlətlərdən hesab olunur ki, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş, hüquqi məcburi olan prinsiplərini öz resursları hesabına təmin etdi. Bu tarixi nailiyyət həm regional, həm də beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə çox ciddi töhfədir.

Cənab Prezidentin rəhbərliyi altında dövlətimizin daxili və xarici siyasətdə əldə etdiyi uğurlar hədəflərin düzgün seçildiyini, onlara aparan strategiyanın düşünülmüş olduğunu sübutlayır. Ən aktual misal: COP29 kimi tanınan nəhəng BMT tədbirinin ölkəmizdə yüksək səviyyədə təşkili 2023-cü ilin sentyabrından sonra regionda yaranmış yeni siyasi və hüquqi reallıqların beynəlxalq arenada qəbul edildiyini təsdiqlədi.

Növbəti ildə də Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində fəaliyyətinin təmini və bu qəbildən olan digər tədbirlərin təşkili məqsədi ilə dövlət büdcəsində 754,2 milyon manat məbləğində vəsait proqnozlaşdırılmışdır. Bu vəsaitin 238 milyon manatı beynəlxalq və ölkə səviyyəli tədbirlər üçün nəzərdə tutulmuşdur ki, bu da ötən illə müqayisədə 17,6 faiz, manatla ifadədə isə 37,1 milyon manatlıq artım deməkdir. Bunu uzun illər diplomatik xidmət orqanlarında çalışmış şəxs olaraq təqdirəlayiq addım kimi yüksək qiymətləndirirəm.

Ölkəmizin yeni coğrafi məkanlarda təmsilçiliyinin və

gücünün artırılması üçün strateji fəaliyyətlər 2025-ci ildə də davam etdiriləcəkdir. Çoxşaxəli parlament diplomatiyası vasitəsi ilə də bu işlərə töhfə verilməkdədir. Hazırda Milli Məclis Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə, Asiya Parlament Assambleyasına və Türk Dövlətlərinin Parlament Assambleyasına uğurla sədrlik edir. 100-dən çox dövlət ilə isə parlamentlərarası işçi qrupları fəaliyyət göstərir.

Bütün bu fəaliyyətlərin əsasında, təbii, insan kapitalının inkişafı dayanır ki, buna aparan yol məktəb və təhsildən başlayır. Bir faktı vurğulamaq istərdim ki, 2007-ci ildə təsdiq edilmiş Milli Təhlükəsizlik Konsepsiyasında ixtisaslı kadr çatışmazlığı məsələsi dövlətimizin suverenliyinə təhdidlər sırasında hərbi təcavüz və digər bu kimi faktorlarla eyni sırada sadalanmışdır. İxtisaslı kadrın hazırlanması, təbii ki, məktəbdən başlayır. Cənab Prezidentin yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqindən sitatla ifadə etsək, "ailə–məktəb–cəmiyyət birliyi dövlətimizin ideoloji təhlükəsizliyinin təminində aparıcı rola malikdir".

Bu mənada təqdirəlayiq haldır ki, hökumətimizin və Heydər Əliyev Fondunun dəstəyi ilə 2003–2024-cü illər ərzində 4000-dək məktəb binasının tikilməsi və ya əsaslı təmiri sayəsində 1 milyon şagirdin təlim şəraiti yaxşılaşdırılıb. Fürsətdən istifadə edərək bu kontekstdə təmsil etdiyim 49 saylı Abşeron 2-ci seçki dairəsinin ərazisində yeni məktəb binalarının və yardımçı korpusların tikilməsi zərurətini qeyd etmək istərdim.

Urbanizasiya prosesinin sürətlə getdiyi bölgələrdən biri Xırdalan şəhəri və Masazır yaşayış məskənidir. Rəsmi statistikaya görə, Azərbaycanda urbanizasiya səviyyəsi ötən il 55 faizə çatmışdır. Müqayisə üçün bildirim ki,

qlobal miqyasda urbanizasiya prosesi daha sürətlə gedir, COP29 çərçivəsində "UN Habitat"ın yaydığı məlumata əsasən 2050-ci ildə dünya əhalisinin 68 faizi şəhərlərdə yaşayacaq. Bu isə indikindən 2,5 milyard çox insan deməkdir. Təbii ki, Xırdalan və Masazırda əhali sıxlığı artdıqca məktəb tikintisi ilə yanaşı, həmçinin sosial infrastruktur sahəsində xidmətlərin genişləndirilməsi zərurəti artır.

Digər bir məsələ Abşeron ərazisində sahibsiz küçə heyvanları üçün sığınacaq yerinin tikilməsi planı ilə bağlıdır. Minnətdarlıqla bildirirəm ki, maliyyə ayrılması barədə razılıq var. Amma torpaq sahəsinin ayrılması, onun təyinatı ilə bağlı və digər məsələlərin həlli üçün iş davam edir. Prosesin sürətləndirilməsi üçün burada təmsil olunan aidiyyəti dövlət qurumlarının dəstəklərinə ehtiyacımız var. Çünki sahibsiz itlərdən qorunmaqda çətinlik çəkənlər, əsasən, məktəblilər, qadınlar və təqaüdçülərdir.

Hörmətli xanımlar və cənablar. Büdcə layihəsinin hazırlanması prosesində iştirak edən bütün dövlət qurumlarına təşəkkürümü bildirirəm. Layihənin lehinə səs verəcəyəm.

**Tamam Cəfərova.** 2025-ci ilin dövlət büdcəsi Azərbaycanın müstəqillik tarixinin ən böyük büdcəsidir. Azərbaycan Respublikasının Milli Məclisi artıq 4 ildir ki, Zəfər büdcəsini müzakirə edir. 2025-ci ilin dövlət büdcəsi layihəsi ölkəmizdə Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən və onun rəhbərliyi altında uğurla həyata keçirilən iqtisadi və sosial siyasət sahəsində əldə edilən nailiyyətləri özündə ehtiva edir. Büdcədə ötən müddətdə qazanılan uğurlarla yanaşı, hökumətin növbəti ildə əsas məqsəd və prioritetləri öz əksini tapır. 2025-ci ildə Azərbaycan hökumətinin əsas prioritetləri ölkə iqtisadiyyatının

daha da inkişaf etdirilməsi, dövlət təhlükəsizliyinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, yenidən qurulması və ölkə iqtisadiyyatına reinteqrasiyası, həmin ərazilərə Böyük Qayıdışın təmin edilməsi işlərinin miqyasının genişləndirilməsi, vətəndaşların rifah halının yaxşılaşdırılması üçün layihələrin reallaşdırılması ilə bağlıdır.

2025-ci il dövlət büdcəsi layihəsini kifayət qədər uğurlu hesab etmək üçün əsaslar mövcuddur. 2024-cü illə müqayisədə büdcə gəlirlərinin artması ölkə iqtisadiyyatının inkişafının və dayanıqlılığının göstəricisidir. Büdcə xərclərinin artırılması isə hökumətin insanların rifah halının yaxşılaşdırılması üçün əlavə tədbirlər həyata keçirmək və buna nail olmaq niyyətini özündə ehtiva edir. Büdcə layihəsinin sosial xarakterli olması, xüsusilə diqqətçəkən məqamlardandır. Belə ki, 2025-ci ilin dövlət büdcəsinin layihəsində sosial siyasətin həyata keçirilməsi üçün 41 faiz nəzərdə tutulması Azərbaycan dövlətinin sosial xarakterindən irəli gəlir. Cənab Prezidentin hər zaman dediyi kimi, Azərbaycanda dövlət siyasətinin mərkəzində məhz Azərbaycan vətəndaşı, onun rifahı dayanır. Ümumilikdə, büdcə layihəsi hazırlanarkən milli prioritetlərin həyata keçirilməsi rəhbər tutulub və layihə qanunvericiliyin tələblərinə tam cavab verir.

Təmsil etdiyim Şamaxı rayonu ilə bağlı bir neçə məsələni diqqətinizə çatdırmaq istərdim. Cənab Prezident İlham Əliyevin birbaşa diqqəti və rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində təmsil etdiyim Şamaxı rayonunda müasir infrastrukturun yaradılması, yolların çəkilməsi, məktəb, uşaq bağçalarının tikilməsi ilə bağlı xeyli işlər görülmüşdür. Bütün

bunların məntiqi nəticəsi olaraq Şamaxının siması köklü şəkildə dəyişib. Fürsətdən istifadə edərək Şamaxı rayonuna göstərdikləri diqqətə görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya öz adımdan və şamaxılılar adından təşəkkür edirəm.

Şamaxı rayonu üzrə həlli vacib olan sosial-iqtisadi məsələləri hökumət üzvlərinin diqqətinə çatdırmaq istərdim. Su məsələsi Şamaxı rayonunun ən böyük problemidir. Qeyd etmək lazımdır ki, qlobal iqlim dəyişiklikləri, eləcə də əhalinin sayının və tələbatlarının artması nəticəsində dünyanın əksər regionlarında içməli və suvarma suyu ilə bağlı problemlər kəskinləşmişdir. Son illərdə cənab Prezident İlham Əliyevin siyasi iradəsi ilə Azərbaycanda su təchizatının yaxşılaşdırılması istiqamətində islahatlar aparılmış, çox mühüm işlər görülmüşdür. Xüsusilə qeyd etməliyik ki, Şamaxı rayonunda əhalinin içməli su təchizatının yaxşılaşdırılması sahəsində də kifayət qədər işlər görülmüş, Şamaxı şəhərinin içməli su problemi tamamilə həll edilmişdir.

Rayonun 32 kəndində suvarma və içməli su təminatında problemlər mövcuddur. Bunlardan 10 kənddə (Kərkənc, Mərzəndiyə, Çıraqlı, Günəşli, Şərədil, Göylər, Birinci Çaylı, Dağ Bağırlı, Mədrəsə, Quşçu kəndləri) və 2 qəsəbədə – Sabir və Şəhriyar qəsəbələrində su problemi daha kritik səviyyədədir. Bunları nəzərə alaraq dövlət proqramına daxil edilmiş Şəhriyar və Sabir qəsəbələrinin içməli su və kanalizasiya sistemi ilə təchiz olunması məsələsinə, ilk mərhələdə adları çəkilən 10 kəndin su təminatı məsələsinə baxılmasını və 2025-ci ilin dövlət büdcəsində bu məsələlərin nəzərə alınmasını xahiş edirəm.

Növbəti problem bəzi kənd yollarının yararsız olması-

dır. Qeyd etməliyəm ki, Şamaxı şəhərinin yol infrastrukturunun müasirləşməsi sahəsində xeyli işlər görülmüş, Şamaxının şəhərdaxili yollarının 80 faizindən çoxu asfaltlanmışdır. Lakin yolları yararsız vəziyyətdə olan kəndlərimiz hələ də qalmaqdadır. Bəzi kəndlərdə yolların çəkilməsi ilə bərabər, körpülərin tikintisinə də ehtiyac var. Bakı–Şamaxı–Yevlax avtomobil yolunu Muğanlı–Qurdtəpə, Çıraqlı, Mədrəsə–Kərkənc, Şirvan kəndləri ilə birləşdirən yolların, Sis–Qaleybuğurd–Keçməddin–Qaladərəsi, Çuxuryurd–Dədəgünəş–Birinci Çağan–İkinci Çağan, eləcə də Şamaxı–Çöl Göylər–Padar Çöl avtomobil yolunu Dağ Bağırlı və Hacıqədirli kəndi ilə birləşdirən yolların, Nağaraxana–Talışnuru və Şamaxı–Pirqulu avtomobil yolunun 24-cü kilometrliyində Ərçiman yolunun tikintisinə ehtiyac var.

Yol infrastrukturu olmaması əhalinin rifahına birbaşa təsir göstərir. Bu kəndlərdən Ərçiman, Qaleybuğurd, Keçməddin, Qaladərəsi kəndləri məhz yol və körpü infrastrukturunun olmadığına görə rayonun turizm xəttindən kənarda qalmışdır. Ümumi uzunluğu 35 kilometrdən bir az artıq olan bu yolların çəkilişi 12 min insanın rifahı deməkdir. Hökumət üzvlərindən bu məsələnin mərhələli şəkildə, xüsusilə çay kənarında yeləşən və körpüyə ehtiyacı olan Ərçiman və Qaleybuğurd kəndlərinin ilk növbədə gələn ilin büdcəsində nəzərə alınmasını xahiş edirəm.

Seçicilərimi narahat edən daha üç məsələni də qısaca olaraq diqqətinizə çatdırmaq istərdim. Bunlar zəlzələdən ziyan çəkmiş evlərin təmirini başa çatdırmaq məqsədi ilə əlavə vəsaitin ayrılması, dağlıq rayonlarında güzəştli qaz limitinin artırılması və kəndlərin qazlaşdırılmasının başa çatdırılması məsələləridir. Məlumat üçün bildirim ki, bu

gün zəlzələdən ziyan çəkmiş 421 ev təmir, 19 ev isə bərpa işləri üçün növbə gözləyir. Bu isə vətəndaşların haqlı narazılığına səbəb olur.

Şamaxı rayonunda qazlaşdırma prosesi sürətlə və intensiv şəkildə həyata keçirilib. Lakin son 2 ildə rayonda qazlaşdırma işləri aparılmayıb, rayonun 8 kəndi hələ də qazlaşdırılmamışdır. İlkin mərhələdə Şamaxı rayonunun Ərçiman, Talışnuru, Dədəgünəş kəndlərinin qazlaşdırılması məsələsinə baxılmasını xahiş edirəm.

Qeyd olunan məsələlərin 2025-ci ildə öz həllini tapması Şamaxı rayonunda əhalinin həyat tərzinin və sosial rifahının yaxşılaşdırılması istiqamətində görülmüş ən vacib işlərdən biri olardı.

Sonda layihəni dəstəkləyirəm və səs verəcəyəm. Hökumətimizə də gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

**Ülviyyə Həmzəyeva.** İlk öncə, ölkəmiz üçün uğurlu və önəmli olan COP29 tədbirinin yüksək səviyyədə keçirilməsinə görə dövlət başçımız cənab İlham Əliyevi və Azərbaycan xalqını təbrik edirəm.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsini yüksək qiymətləndirirəm və səs verəcəyimi bildirirəm.

Dünyada baş verən siyasi və iqtisadi kataklizmlər fonunda hökumətimiz kifayət qədər məhsuldar çalışır. Ölkəmizdə cənab Prezidentin rəhbərliyi altında bir çox sahələrdə olduğu kimi, mədəniyyət sahəsinə də böyük diqqət və qayğı var. Bunu hörmətli nazir Samir müəllim də öz çıxışında aydın hiss etdirdi.

Fürsətdən istifadə edərək mədəniyyətimizin formalaşmasında böyük rolu olan təsviri incəsənət və heykəltəraşlıq sahələrinə də diqqəti yönəltmək istərdim. Sənət adamı

olaraq həmkarlarımın səsini də burada eşitdirmək, rəsm və dəzgah heykəltəraşlığı əsərlərinə də vergi tətbiqinin olmamasını istərdik. Qeyd edim ki, dost ölkələrin bir çoxunda emalatxana əsərlərinə vergi tədbiq edilmir və satışı asanlıqla icra olunur. Bu, həm rəssamların yaşayış səviyyəsinin artırılmasına, həm də Azərbaycan təsviri incəsənətinin əlçatanlığına gətirib çıxarardı. Dövlət Ekspert Komissiyası tərəfindən təqdim olunan sənət əsərlərinə sertifikat və rəylər verilməsinin sadələşdirilməsi məsələsi də sənət adamlarının arzusudur.

Sənət əsərlərinin – rəsm, heykəltəraşlıq, dekorativ tətbiqi sənət nümunələrinin, əsasən, yeni yaradılmış əsər və suvenirlərin ölkədən maneəsiz çıxarılması məsələsi vacibdir. Rəsm qalereyaları, bədii sərgi salonları tərəfindən təqdim olunan sertifikatların gömrük orqanları tərəfindən tanınması – qalereyalar tərəfindən verilən "əsllik sertifikatları"nın Dövlət ekspert komissiyasının möhürü ilə təsdiqlənərək vətəndaşlara təqdim olunduqdan sonra bu sertifikatların da gömrük orqanları tərəfindən tanınması və keçərli olması həmin yeni yaranmış əsərlərin digər ölkələrə aparılmasını asanlaşdırardı.

Bununla belə, bir sıra məsələləri qeyd etmək istəyirəm. Gələcəkdə bir sıra mədəniyyət obyektlərinin vergidən azad olması haqqında söz açıldı. Bunun bədii sərgi salonlarını, rəsm qalereyalarını, fərdi yaradıcılıq studiyalarını – emalatxanaları əhatə etməsi və onlara şamil olunması da çox yaxşı olardı. Yaradıcılıq emalatxanalarının və qeyri-hökumət təşkilatları olan yaradıcı birliklərin kommunal ödənişlərinin (su, qaz, işıq) əhaliyə tətbiq olunmuş tarif ilə ödənilməsi, daha asan olması bu sahələrin inkişafına təkan verərdi.

Mən bu gün fürsətdən istifadə edərək hökumət üzvlərinə hər zaman müraciətlərimizə və məktublarımıza qısa zamanda cavab verdikləri üçün və hər məsələyə diqqətlə yanaşdıqları üçün öz minnətdarlığımı bildirirəm. Prezidentimizin rəhbərliyi altında görülən böyük işləri hamımız, seçicilər daxil olmaqla dəstəkləyirik.

Qeyd edim ki, seçildiyim 6 saylı Babək–Naxçıvan–Culfa seçki dairəsini əhatə edən ərazidə vətəndaşlarımız dövlətimizi dəstəkləyir və Zəfər tariximizi qürurla yaşayırlar. Bu seçki dairəsi ərazisində mövcud olan bir neçə məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Ölkəmizdə cənab Prezidentin rəhbərliyi altında idmana, bədən tərbiyəsinə böyük diqqət və qayğı var. Bakıda, bölgələrimizdə, işğaldan azad olunan torpaqlarımızda geniş quruculuq işləri həyata keçirilir, idman kompleksləri tikilir, həyətlərdə uşaqların, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün idman qurğuları quraşdırılır.

Seçildiyim ərazilərdə, xususilə Culfa şəhərində idman kompleksinin olmaması gənclərimizin dəmir yoluna aid qəzalı binada məşq etmələri ilə nəticələnir. Nehrəm, Qaraxanbəyli kimi böyük kəndlərdə uşaq bağçalarının olmaması burada işləyən valideynlərə böyük çətinliklər yaradır. Babək rayonunun dağ kəndi olan Göynük kəndinin yol problemi, şəhərdən kəndə gələn müəllimlərin, tibbi yardıma ehtiyacı olan vətəndaşların həm kənddən şəhərə, həm əks istiqamətdə hərəkətini xeyli məhdudlaşdırır. Xususi olaraq yağış, qar yağan zaman yol keçilməz olur. Müraciətimiz üzrə İcra Hakimiyyəti tərəfindən yola çınqıl tökülsə də, bunun kifayət etmədiyini görürük. Hər görüşdə bu məsələlər seçicilər tərəfindən qaldırılır.

Doğrudur, dilə gətirdiyim bu məsələlərlə Naxçıvan

Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli nümayəndəliyi və dövlət qurumları da yaxından maraqlanır və həll etməyə çalışırlar. Lakin seçicilərim bu mötəbər kürsüdən də səslərinin eşidilməsini xahiş etdilər. Prezidentimizin Naxçıvan Muxtar Respublikasına diqqət və qayğısını daim hiss etmişik. Belə ki, Naxçıvan Muxtar Respublikasına 2025-ci il üçün büdcədən ayrılmış vəsaitin sözügedən bu və digər məsələlər üçün səmərəli istifadə olunmasını diləyirik. Tərəqqi, rifah və inkişaf naminə var gücümüzlə, birlikdə çalışmalıyıq.

**Vasif Qafarov.** *(çıxışının davamı)* Dövlət büdcəsindən 16,5 milyon manat vəsaitin ayrıldığı bu yolu inşa edən podratçı şirkət tərəfindən tikintinin qısa vaxt ərzində tikinti norma və qaydalarına uyğun tikilib istifadəyə verilməsini təmin etməyi xahiş edirəm.

Həmçinin əsaslı xərclər üçün nəzərdə tutulan xərclərdən sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcək məbləğdə Lerik rayonunda qazlaşdırmanın davam etdirilməsi üçün də vəsaitin nəzərdə tutulmasını xahiş edirəm.

Bildiyiniz kimi, Lerik rayonu qışı sərt keçən və mavi yanacağa daha çox ehtiyac duyulan rayondur. Burada ilin 8 ayı qızınmaq üçün mavi yanacağa ehtiyac vardır. 2006-cı ildə Lerik şəhəri qazlaşdırılıb. 2009-cu ildən bu yana keçən 15 il ərzində rayonun 161 yaşayış məntəqəsindən 60-ı qazlaşdırılıb, 101-i isə hələ də qazlaşdırılmayıb. İldə 3-6, bəzi illərdə 10-13 kənd qazlaşdırıldığı halda, son illərdə bu temp ildə 1 kəndə qədər aşağı düşmüşdür. İldə, heç olmasa, 5 kəndin qazlaşdırılması həyata keçirilsə, Lerik rayonunun tam qazlaşdırılması prosesi 20 ilə yekunlaşar.

Lerik rayonunun Nücü, Lərmərud, Soru, Gürdəsər, Əliabad, Bilnə, Noda kimi kəndlərinin 200-300 metr yaxınlığından qaz xətti keçir. Bu məsafədən qaz kəməri keçdiyi halda, bu kəndlərə qaz xəttinin çəkilməsi o qədər də böyük vəsait tələb etmir. Lerik əhalisinin təkidli xahişlərini ifadə edərək rayonun qazlaşdırılmayan kəndləri üçün büdcədən vəsait ayrılmasını və bu məsələnin diqqətdə saxlanılmasını xahiş edirəm. Bütövlükdə, büdcəni təqdir edirəm və dəstəkləyirəm.

**Zaur Şükürov.** İlk olaraq ölkəmizin mükəmməl şəkildə ev sahibliyi etdiyi, beynəlxalq birliyin ən mötəbər və qlobal əhəmiyyətli tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurla başa çatması, mühüm nəticələr əldə olunması münasibəti ilə Prezident cənab İlham Əliyev başda olmaqla bütün Azərbaycan xalqını, o cümlədən COP29 sədrliyinin yüksək peşəkarlıq və çeviklik nümayiş etdirmiş komandasını təbrik edirəm.

Ölkəmiz hələ COP29 tədbirindən öncə ekologiya, yaşıl enerjiyə keçid məsələlərini prioritet hədəflərdən biri olaraq müəyyənləşdirmiş və bu məqsədlə davamlı olaraq mühüm addımlar atılmışdır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" müddəasının prioritet olaraq yer alması bunun bariz nümunəsidir. Azərbaycanın COP29-a ev sahibliyi ilə bağlı yekdil qərar qəbul edilməsi prosesində Prezident cənab İlham Əliyevin liderliyi ilə dövlətimizin beynəlxalq miqyasda nüfuzunun daha da artması, etibarlı tərəfdaş olaraq qəbul edilməsi kimi məqamlar mühüm rol oynamaqla yanaşı, bərpa olunan enerjiyə keçid məsələlərində Azərbaycan hökuməti

tərəfindən həyata keçirilən tədbirlər və hədəf kimi qarşıya qoyulan məqsədlər də xüsusilə nəzərə alınmışdır.

Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etdi və COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi oldu. Həqiqətən, Prezident cənab İlham Əliyevin uğurlu xarici siyasət kursu çərçivəsində Azərbaycan diplomatiyası COP29-da dünya diplomatiya tarixinə öz adını yazdırdı.

Müzakirəyə çıxarılmış 2025-ci ilin büdcə zərfi ilə əlaqədar qeyd etmək istərdim ki, Prezident cənab İlham Əliyevin sentyabrın 23-də Milli Məclisin ilk iclasındakı və sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki çıxışları zamanı qeyd etdiyi proqram xarakterli tapşırıq və tezislərin, həmçinin “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda, “Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapmış müddəaların və qlobal çağırışların nəzərə alındığı və peşəkar şəkildə hazırlanmış büdcə layihəsini dəstəkləyirəm və ona səs verəcəm.

Dünənki və bugünkü iclaslar zamanı hörmətli nazirlərimizin, Mərkəzi Bankın sədrinin və Hesablama Palatası sədrinin, dəyərli deputat həmkarlarımın çıxışlarında büdcə layihəsi barədə geniş şəkildə statistik və təhlil xarakterli, vacib əhəmiyyətli məlumatlar təqdim olundu. Bu xüsusda qeyd etmək istərdim ki, məhz cənab Prezidentin müəyyənləşdirdiyi əsas prioritetlər – hərbi potensialımızın gücləndirilməsi, təhlükəsizliyimizin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inki-

şafı, sosial məsələlərin diqqətdə saxlanılması, Qarabağın və Şərqi Zəngəzurun bərpası kimi istiqamətlər nəzərə alınmaqla formalaşan və müasir çağırışlara cavab verən büdcə layihəsinin hazırlanması xüsusilə önəmlidir.

Təmsil etdiyim Sumqayıt–Abşeron–Qaradağ seçki dairəsi üzrə seçicilərin qaldırdığı bir sıra məsələləri diqqətə çatdırmaq istərdim. Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində ölkə üzrə mühüm layihələr həyata keçirilir, Sumqayıt, Abşeron və Qaradağda da bu istiqamətdə müvafiq işlər görülür. Bununla yanaşı, daxili miqrasiya məsələləri, əhalinin sayında artım müşahidə olunması, kanalizasiya və su xətlərinin getdikcə yararsız hala düşməsi və bir sıra məsələlər gündəmə gətirilir. Bu xüsusda qeyd etdiyim şəhər və rayonlar üzrə seçicilərin qaldırdığı məsələlərin aidiyyəti qurumlarımız tərəfindən diqqətə alınaraq onların həlli istiqamətində müvafiq addımlar atılmasını xahiş edirəm.

Sumqayıt şəhərinin Corat qəsəbəsi. Bu qəsəbə qədim tarixə malik yaşayış məskənlərindən biridir. Qəsəbədə kanalizasiya xəttinin çəkilməsi vacibdir. Belə ki, sakinlərin bildirdiyinə görə, yağışlı havalardan sonra həmin ərazilərdə hərəkət məhdudlaşmaqla yanaşı, çirkab suları həyətyanı sahələrə dolur. Həmçinin kanalizasiya xəttinin olmaması, yolların uzunmüddətli təmiri küçələrin Bakı şəhəri Sabunçu rayonunun Balaxanı qəsəbəsinə oxşar şəkildə abadlaşdırılmasına mane olur.

Qəsəbədə qədim hamamlar mövcuddur. Məlumdur ki, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Bakı şəhərində yerləşən tarix-memarlıq abidələrinin mühafizəsinin gücləndirilməsi, abidələrə qanunsuz müdaxilələrin

qarşısının alınması məqsədi ilə monitorinq aparılır. Məhz bu hamamların adıçəkilən xidmətin reyestrinə daxil edilməsi həmin binaların digər fiziki və hüquqi şəxslər, o cümlədən xeyriyyəçilər tərəfindən bərpa olunmasını mümkünsüz edir. Bu məsələlərin həlli, eyni zamanda, gələcəkdə qəsəbəyə turist axınına da töhfə vermiş olardı.

Qəsəbədəki digər məsələ fərdi evlərin sənədləşdirilməsi ilə bağlı yaranan problemdir. Bununla bağlı hörmətli həmkarlarım çıxışlarında qeyd etdilər. Belə ki, vaxtı ilə Bakının enerji təminatını tamamilə bərbad vəziyyətə salmış və enerji təsərrüfatını sıradan çıxarmış "Barmek" şirkəti Corat qəsəbəsində fərdi evlərin üzərindən keçməklə yüksək gərginlikli elektrik xətləri çəkmişdir. Məhz bu səbəbdən həmin evlər avtomatik olaraq yüksək gərginlikli elektrik xətlərinin altında yerləşən evlər kateqoriyasına aid edilir ki, bu da öz növbəsində həmin evlərin sənədləşdirilməsində ciddi problem yaradır.

Abşeron rayonunun "Şəfəq" qəsəbəsi. Bu yeni yaşayış kompleksi Abşeron rayonunun inzibati ərazisində "Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2011-ci il 21 fevral tarixli 1346 nömrəli Sərəncama uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi ilə 2018-ci ildə inşa edilmişdir. 2018–2021-ci illər ərzində bu yaşayış kompleksində, ümumilikdə, 4043 mənzil olmaqla 88 bina, 2 tam orta məktəb, 2 uşaq bağçası, 2 klub icma mərkəzi, 1 musiqi məktəbi, 1 poçt şöbəsi, 1 tibb məntəqəsi və 1 polis məntəqəsi binası inşa olunmuşdur.

2024-cü ilin aprelində Prezident İlham Əliyevin təsdiqlədiyi "Abşeron rayonunun inzibati ərazi bölgüsündə

qismən dəyişiklik edilməsi haqqında" Qanunla "Şəfəq" yaşayış məntəqəsinə qəsəbə statusu verilib. Hazırda massivdə şəhid ailələri, Qarabağ müharibəsi qazilərinin ailələri, gözdən əlil və digər güzəştli şəxslərin ailələri yaşayırlar. Mənzillər güzəştli mənzil növbəsində olan şəxslərə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən təqdim edilmiş müqavilə əsasında verilmişdir. Hazırda da mənzillərin verilməsi nazirlik tərəfindən davam etdirilir.

Ümumi kompleksdə 1001 mənzildən ibarət 24 çoxmərtəbəli yaşayış binası (əlavə olaraq məktəb, bağça, tibb məntəqəsi, poçt şöbəsi, klub icma mərkəzi binası) Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin balansında saxlanılmış, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 27 sentyabr tarixli 607s saylı Sərəncamı ilə ərazi üzrə 64 çoxmərtəbəli yaşayış binası (3042 mənzil) isə RİH-in balansına verilmişdir. RİH-in balansına verilmiş yaşayış binaları 2021-ci ildən istifadəyə verilmişdir. Ümumi ərazidə 88 bina üzrə faktiki yaşayan əhalinin sayı 8850 nəfərdir. Bunlardan RİH-in balansına verilmiş 64 binada isə yaşayan əhalinin sayı 5150 nəfərə çatmışdır. Hazırda təhvil verilmiş binalarda tam və ya qismən məskunlaşma vardır. Boş qalmış mənzillərdə tam məskunlaşmadan sonra yaşayan əhalinin sayının təxminən 15 min nəfər olacağı ehtimal olunur.

Bu qəsəbənin sakinlərinin qaldırdığı əsas məsələ onların öz mənzillərini sənədləşdirə bilməməsi və bu səbəbdən qeydiyyat ünvanlarının olmamasıdır. Bununla bağlı sakinlərin dəfələrcə müraciət etməsini nəzərə alaraq aidiyyəti qurumlarımızın yüksək vəzifəli rəsmilərinin

birgə iştirakı ilə həmin qəsəbədə vətəndaşlarla görüş keçirilməsini təklif edirəm. Hesab edirəm ki, bu halda vətəndaşların davamlı olaraq qaldırdığı məsələ ilə bağlı suallara yerindəcə aydınlıq gətirilməsi mümkün olardı.

Qaradağ rayonunun Qızıldaş və Şonqar qəsəbələri. Qızıldaş qəsəbəsinin sakinləri qəsəbədəki yolların sıradan çıxdığını, yağışlı havalarda yolların keçilməz olduğunu, məktəbyaşlı uşaqların xeyli əziyyət çəkdiyini bildirirlər və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən məsələnin tezliklə həll olunmasını xahiş edirlər. Ümid edirəm ki, agentlik bu məsələni diqqətdə saxlayacaq və məsələnin həlli istiqamətində müvafiq addımlar atacaq.

Şonqar qəsəbəsinin sakinləri ilə görüş zamanı onlar qəsəbədə məktəbin olmaması ilə bağlı şikayətlərini çatdırdılar. Belə ki, məktəbin olmaması səbəbindən valideynlər övladlarını qonşu Qızıldaş qəsəbəsinə göndərmək məcburiyyətində qalırlar. Həmin ərazidə ictimai nəqliyyatla bağlı vaxtaşırı problemlərinin olduğunu deyən sakinlər məcburi şəkildə taksi xidmətinə müraciət etməli olurlar ki, bu da aztəminatlı ailələrin büdcəsinə kəskin təsir edir. Ümid edirəm ki, qeyd olunan məsələlər aidiyyəti qurumlar tərəfindən diqqətə alınacaq və bu istiqamətdə mümkün addımlar atılacaqdır.

Təqdim olunmuş ilkin büdcə layihəsinə bir daha dəstəyimi ifadə edirəm və inanıram ki, dövlətimizin və xalqımızın maraqlarına, müasir çağırışlara cavab verəcək 2025-ci ilin dövlət büdcəsi qarşıdan gələn illərdə ölkəmizin daha da güclənməsinə, vətəndaşlarımızın sosial rifah halının yüksəldilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

# MÜNDƏRİCAT

26 noyabr 2024-cü il ..........................................................  3
Edilməmiş çıxışların mətnləri............................................ 131

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Birinci sessiya
Payız

10-cu cild

26 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  11,0. Sifariş 4. Tiraj 150.